Xalqın qəzeti!

# Xalq qəzeti

№ 72 (31041) 28 aprel 2026-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

Dünyada hamı barışa can atır, lakin çoxu buna çatmır



Səhifə ⇨ 7

# Azərbaycan – Ukrayna dostluğu ortaq keçmişə, çağdaş maraqlara və gələcək hədəflərə əsaslanır

## Ukrayna Prezidenti Volodimir Zelenskinin Azərbaycana işgüzar səfəri

*Qəbələdə Azərbaycan Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti ilə təkbətək və geniş tərkibdə görüşü*





**Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycanda işgüzar səfərdə olub.**

Aprelin 25-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Volodimir Zelenski ilə təkbətək və geniş tərkibdə görüşləri keçirilib.

Söhbət zamanı dövlətimizin başçısının Volodimir Zelenski ilə əvvəlki görüşləri məmnunluqla xatırlandı, Ukrayna Prezidentinin ölkəmizə bu səfərinin ikitərəfli əməkdaşlıq məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaradacağına əminlik bildirildi. Əməkdaşlığın bir çox istiqamətdə, o cümlədən enerji sahəsində genişləndirilməsinə dair fikir mübadiləsi aparıldı, kənd təsərrüfatı ilə bağlı əməkdaşlıq məsələləri müzakirə olundu, Hökumətlərarası Komissiyanın fəaliyyətinə toxunuldu.

Ölkəmizin Ukraynaya humanitar dəstəyini, eyni zamanda, Azərbaycan dövləti tərəfindən ukraynalı uşaqlara olan diqqət və qayğını yüksək qiymətləndirən qonaq bütün bunlara görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Tezliklə bir qrup ukraynalı tələbənin reabilitasiya məqsədilə, həmçinin Azərbaycanın mədəniyyəti və incəsənəti ilə tanış olması üçün ölkəmizə səfərinin nəzərdə tutulduğu vurğulandı.

## Prezident İlham Əliyev: Vaşinqtonda baş verən atışma məni dərindən sarsıtdı




Vaşinqtonda keçirilən Ağ Ev Müxbirləri Assosiasiyasının şam yeməyində baş verən atışma məni dərindən sarsıtdı.

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev X sosial media hesabındakı paylaşımında bildirib.

"Belə zorakılıq halları qəbuledilməzdir və qəti şəkildə pislənməlidir. Prezident Trampın, birinci xanımın və bütün iştirakçıların təhlükəsiz olması sevindiricidir. Onlara davamlı təhlükəsizlik və rifah arzulayıram", - deyə dövlətimizin başçısı vurğulayıb.

## Makronun İrəvan səfərinin gözləntiləri

*Proseslər Fransanın Ermənistanın əsas hamisi olaraq qaldığını göstərir*

**Fransa Prezidenti Emmanuel Makron Ermənistana dövlət səfərinə hazırlaşır. Bu barədə Ermənistan mediası hökumətin mətbuat xidmətinə istinadən məlumat yayıb. Səfər həm region, həm də Avropa üçün diqqətlə izlənilən vacib hadisələrdən biri kimi dəyərləndirilir.**



Qeyd edək ki, E.Makron mayın 4-də İrəvanda keçiriləcək Avropa Siyasi Birliyinin (ASB) VIII sammitində iştirak edəcək. Sammit ərəfəsində hazırlıq işləri artıq aktiv mərhələyə keçib. Ermənistan Baş nazirinin müavini Tiqran Xaçatryan və Fransanın İrəvandakı səfiri Olivye Dekotini ötən həftə ASB-nin sammitinin təfərrüatlarını müzakirə ediblər. Görüş zamanı təşkilati məsələlərlə yanaşı, gündəmdə olan əsas mövzular və tərəflərin gözləntiləri diqqət mərkəzində olub. Baş nazir müavininin ofisi bildirib ki, həmçinin Fransa Prezidenti Emmanuel Makronun mayın 5-də Ermənistana dövlət səfərinin əhəmiyyəti də müzakirə predmeti olub. "Səfərdən əvvəl ikitərəfli münasibətlərin gündəliyindəki bir sıra məsələlər, eləcə də strateji əhəmiyyətli digər proqramlar və təşəbbüslər ətraflı nəzərdən keçirilib", – deyə açıqlamada qeyd olunub.

*(ardı 9-cu səhifədə)*

## Prezident İlham Əliyev: Azərbaycan-Çexiya iqtisadi əməkdaşlığını şaxələndirmək üçün böyük potensial var

**Baş nazir Andrey Babiş, rəsmi səfəriniz və bu gün Qəbələdə apardığımız konstruktiv müzakirələrə görə sizə minnətdarlığımı bildirirəm. Bunun Aİ hüdudlarından kənara ilk rəsmi səfəriniz olması ikiqat şərəfdir. Bizim sıx siyasi münasibətlərimiz mövcuddur və bugünkü fikir mübadiləsi bir daha Azərbaycan-Çexiya əlaqələrinin daha da dərinləşdirilməsinə olan ortaq sadiqliyimizi təsdiqlədi.**

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev X sosial media hesabındakı paylaşımında bildirib.

"Ticarət dövriyyəmiz yüksək səviyyədə olsa da, iqtisadi əməkdaşlığımızı daha da inkişaf etdirərək şaxələndirmək üçün böyük potensial var. Səfər çərçivəsində keçirilən və işgüzar icmalarımızın nümayəndələrini bir araya gətirən biznes-forum bu istiqamətdə mühüm addımdır. Biz birgə hökumətlərarası iqtisadi komissiyanın səviyyəsini yüksəltmək qərarına gəldik ki, bu da xüsusilə enerji, sənaye və digər əsas sektorlarda daha effektiv koordinasiyaya töhfə verəcəkdir. Həmçinin müdafiə sənayesindəki əməkdaşlığımızı yüksək qiymətləndiririk və onun daha da inkişaf etdirilməsi üçün yaxşı perspektivlər görürük. Sizin Çex Respublikasına səfər etmək təklifinizi məmnuniyyətlə qəbul edirəm və bir daha dostluğunuza və tərəfdaşlığınıza görə sizə təşəkkür edirəm", - deyə dövlətimizin başçısı vurğulayıb.

## Transatlantik çatlar dərinləşir




Səhifə ⇨ 8

## 28 aprelin 28 may qətliamı

*Yaxud 71 illik əsarətin 35 il əvvəlki iflası*



**...Əgər tarixin təkəri saat əqrəbinin əksi istiqamətində hərəkətini davam etdirsəydi, bu gün biz "Azərbaycanda sovet hakimiyyətinin qurulmasının 106-cı ildönümü"nü qeyd etməyə məcbur idik. Təqvimlərimizdə isə noyabrın 7-si "Böyük Oktyabr Sosialist İnqilabının 109-cu ildönümü" sözləri qırmızı hərflərlə yazılmış olardı.**

Proletar diktaturasının SSRİ adlanan quruluşu tarixi dialektikanın qanunlarına tamamilə zidd olaraq 71 il davam etdi. 15 respublika, o cümlədən "sovet Azərbaycanı" "qırmızı imperiya"nın "xalqlar həbsxanasında" yaşamalı oldu.

28 aprel Azərbaycan tarixin yeni əsarətin başlanğıcıdır. 7 onillik ərzində bu təcavüzdən Azərbaycan türklərinin təkcə dövlətçilik tarixinə qarşı deyil, milli kimliyinin və dəyərlərinin üzərinə çirkablar atıldı, beyinlərə saxta və çürük ideologiya sırımaq istədilər.

*(ardı 9-cu səhifədə)*

## Qlobal aclıq dünyanın çağdaş bəlası və utancıdır



Səhifə ⇨ 11

# Azərbaycan və Ukrayna prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

**Aprelin 25-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Volodimir Zelenski mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.**







## Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli cənab Prezident, hörmətli qonaqlar.

Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz.

Bizim Sizinlə görüşlərimiz müntəzəm xarakter daşıyır. Son dörd il ərzində bu, bizim yeddinci görüşümüzdür. Son görüşlər beynəlxalq təşkilatların toplantıları çərçivəsində baş vermişdir. Ancaq mən xatırlayıram ki, Siz Prezident kimi Azərbaycana ilk dəfə 2019-cu ildə gəlmisiniz. Bizim şəxsi münasibətlərimiz də o vaxtdan başlayır və bu gün də uğurla davam edir. Mən 2022-ci ilin yanvarında Kiyevə səfərimi də xatırlayıram. Sizinlə apardığımız fikir mübadiləsi və ondan sonrakı təmaslar Ukrayna-Azərbaycan əlaqələrini daha yüksək səviyyəyə qaldırmışdır.

Əməkdaşlığımızın çox güclü siyasi təməli vardır. 2008-ci ildə Kiyevdə, 2011-ci ildə Bakıda strateji tərəfdaşlığa dair iki sənəd imzalanmışdır və bunlar çox güclü siyasi sənədlərdir. O sənədlərdə ölkələrimizin qarşılıqlı olaraq ərazi bütövlüyü, suverenliyi, sərhədlərimizin toxunulmazlığı məsələləri öz əksini tapmışdır. Azərbaycan və Ukrayna bütün beynəlxalq təşkilatlarda qarşılıqlı olaraq ölkələrin suverenliyini, ərazi bütövlüyünü dəstəkləyir və dəstəkləyəcəkdir.

Keçən il iki mühüm hadisə baş vermişdir. Bakıda Xarici İşlər nazirliklərinin məsləhətləşmələri və Hökumətlərarası Komissiyanın iclası keçirilmişdir. Bu gün söhbət əsnasında bu tədbirlərin Ukraynada növbəti dövrdə keçirilməsi haqqında da fikir mübadiləsi aparılmışdır. Bir sözlə, bu gün biz bir çox istiqamətlər üzrə uğurla əməkdaşlıq edirik. Bu əməkdaşlıq bu gün bir daha təsdiqləndi.

Müzakirə olunan məsələlər arasında siyasi dialoqdan başqa, xüsusilə energetika sahəsində əməkdaşlığı qeyd etmək istərdim. Burada həm əldə edilmiş nailiyyətlər var, - SOCAR Ukraynada uzun illərdir ki, uğurla fəaliyyət göstərir, - eyni zamanda, çox gözəl perspektivlər, birgə layihələr var. Birgə təşəbbüslər, o cümlədən sərmayə qoyuluşu ilə bağlı məsələlər bu gün ətraflı müzakirə edilmişdir. Təbii ki, ticarət dövriyyəsinin bundan sonra da artırılması məsələləri də gündəliyin mərkəzindədir. Bizim ticarət dövriyyəmiz yarım milyard dolları ötüb. Amma ümid edirəm ki, növbəti illərdə bu rəqəm daha da böyüyəcək. Çünki buna da böyük imkanlar var.

Hərbi-texniki əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı və burada da çox böyük perspektivlər var. Həm Azərbaycanda, həm Ukraynada hərbi sənaye kompleksi inkişaf edir və burada birgə istehsalla bağlı, ümumiyyətlə, sənaye sahəsində birgə istehsalla bağlı çox gözəl imkanlar var. Bu barədə də bu gün ətraflı danışıldı və biz bütün başqa sahələrdə əməkdaşlığımızı dərinləşdirmək istəyirik.

Qeyd etdiyim kimi, son dörd il ərzində prezidentlər səviyyəsində yeddi görüşün keçirilməsi, - sonuncu görüş iki ay bundan əvvəl Münxen şəhərində olmuşdur, - gözəl göstəricidir. Bu, əlaqələrimizin nə qədər dinamik olmasından xəbər verir. Biz bu gün qarşılıqlı hörmətdən, qarşılıqlı maraqların təmin edilməsindən danışırıq. Əminəm ki, bugünkü səfər Azərbaycan-Ukrayna dostluq əlaqələrinin inkişafına növbəti mühüm töhfə olacaqdır.

Bir daha Sizi və bütün ukraynalı qonaqlarımızı səmimiyyətlə salamlayıram.

***

Sonra Ukrayna Prezidenti bəyanatla çıxış etdi.

## Prezident Volodimir Zelenskinin bəyanatı

– Hörmətli cənab Prezident, çox sağ olun.

Mən Sizə təşəkkürümü bildirmək istəyirəm. O cümlədən nümayəndə heyətimizə göstərilən diqqətə görə minnətdaram.

Bizim müxtəlif beynəlxalq platformalarda görüşlərimiz olub. Ötən il görüşlərimizdə qeyd etmişik ki, biz hər zaman bir-birimizi dəstəkləmişik. Mən qeyd etmişəm ki, biz Azərbaycanın ərazi bütövlüyünü və müstəqilliyini hər zaman dəstəkləmişik, eyni zamanda, biz Ukraynaya eyni münasibəti görmüşük.

Əlbəttə ki, müharibə başladıqdan sonra bu, mənim Azərbaycana ilk səfərimdir və mən buraya nümayəndə heyətimlə gəlmişəm. Sizə təşəkkür edirəm.

Bu gün 6 sənəd imzaladıq. Heyətlərimiz birmənalı olaraq onların təfərrüatları ilə bağlı fikir mübadiləsi aparacaqlar. Bu gün sahələrə gəldikdə, bir nömrəli sahə təhlükəsizlikdir. Müdafiə sənayesi sahəsində artıma gəldikdə, Ukrayna müharibə şəraitindən irəli gələrək öz müqavimət gücünü göstərdi və biz ekspert biliklərimizi bölüşmək istərdik. Bu gün ekspertlərimiz Azərbaycandadır, onlar azərbaycanlı həmkarlarına dəstək verir. Biz bu tərəfdaşlığı bundan sonra da davam etdirərək birgə istehsala başlayacağıq.

Digər mühüm sahələr var. Əlbəttə ki, bunlar bizim xalqlarımızın, ölkələrimizin təhlükəsizliyinə töhfə verir və sözün əsl mənasında biz istərdik ki, ölkələrimiz arasında bu əlaqələr daha da artsın. Əlavə olaraq, mən cənab Prezidentə təşəkkürümü bildirmək istəyirəm ki, bizim tərəfdaşlığımız bu çox sərt qış şəraitində də davam etmişdir. Eyni zamanda, əlbəttə ki, biz hava hücumundan müdafiə tədbirlərini görmüşük. Lakin buna baxmayaraq, enerji sahəsində təchizata gəldikdə, belə çox ağır bir dövrdə biz Azərbaycandan 11 yardım paketini almışıq. Biz bu yardıma görə öz təşəkkürümüzü bildiririk. Biz bu haqda xeyli söhbət etdik. Biz, həmçinin, cənab Prezident, xüsusi olaraq Sizə təşəkkürümüzü bildiririk ki, bizim uşaqlarımıza kömək edirsiniz. O uşaqlar, övladlarımız cəbhəyanı bölgələrdən gəlirlər. Onlar əzab-əziyyətlərlə üzləşiblər, müharibədən əziyyət çəkiblər. Dəstəyinizə görə təşəkkür edirik. Beş yüzdən artıq ukraynalı uşaq buradadır və bu humanitar dəstəyə görə Sizə minnətdarıq.

Əvvəlcə biz energetika sahəsini müzakirə etdik, əməkdaşlığımıza nəzər saldıq. Bu gün, əslində, nəinki Ukrayna üçün, bütün dünya üçün, Avropa üçün bu, böyük bir çağırışdır. İranla müharibə aparılır. Bizə bu halda etibarlı tərəfdaşlarımız lazımdır. Buna görə Sizə təşəkkür edirik. Biz çox şadıq ki, azərbaycanlı tələbələr əksər hallarda məhz Ukraynanı öz təhsil ocağı kimi seçirlər. Biz buna görə də təşəkkür edirik.

Biz, eyni zamanda, sülh sahəsində səyləri müzakirə etdik. Bu, Ukrayna üçün olduqca vacibdir ki, yekun nəticədə müharibəyə son qoyulsun. Əlbəttə, biz bu prosesdə vasitəçilik edən tərəfdaşlara minnətdarıq. Biz Azərbaycan Prezidentinə minnətdarıq. Bizim üçtərəfli və digər formatda danışıqlarımız oldu. Onlardan bəziləri Türkiyədə baş tutdu, daha sonra isə amerikalı tərəfdaşlarımızla Cenevrədə görüşdük və həmçinin istərdik ki, danışıqlarımızı Azərbaycanda aparaq. Bir halda ki, əgər bu diplomatiyanı, həmçinin Rusiya tərəfi də seçərsə.

Cənab Prezident, düşünürəm, müdafiə sənayesinə gəldikdə, təhlükəsizlik elə bir sahədir ki, orada biz çox dərin əməkdaşlıq qura bilərik və çox çalışmalıyıq ki, bu məqsədə nail olaq.

Silahların istehsalına gəldikdə, bu, bizim xalqlarımız üçün sabitlik gətirə bilər. Bizim ölkələrimizin kifayət qədər imkanları var ki, bütün çağırışlarla üzləşərək tab gətirsin. İstənilən bir ölkəni götürsək, hətta nəzəri baxımdan əgər o, təcavüzlə üzləşərsə bilməlidir ki, öz hərbi əməliyyatlarını apararaq özünü müdafiə edə bilsin. Bu baxımdan biz sabitliyə, sülhə gedən yolda Azərbaycana uğurlar arzulayırıq. Eyni arzularımızı biz, həmçinin öz ünvanımıza bildiririk.

Bu gün biz ən çətin, ən ağır müharibə şəraitindəyik. Sizə səmimi deyim, cənab Prezident, mən bir hesabatı gördüm. Rusiya müxtəlif yerlərə yenidən aviazərbələr endirib. Dağıntılar göz qarşısındadır. Onlar dəmir yollarına, enerji infrastrukturuna, mülki təyinatlı obyektlərə hücum çəkirlər. Əfsuslar olsun ki, bu gün artıq bəzi şəxslər öz həyatını itirib və xəsarət alan da var.

Cənab Prezident, Sizə minnətdaram ki, başsağlığı verdiniz. Bütün bu səfəri təşkil etdiyinizə görə Sizə çox təşəkkür edirəm.

***

Daha sonra Azərbaycan və Ukrayna prezidentləri qısa söhbət etdilər.

# Çexiyanın Baş naziri Andrey Babişin Azərbaycana rəsmi səfəri

## Qəbələdə rəsmi qarşılanma mərasimi





**Aprelin 27-də Qəbələdə Çex Respublikasının Baş naziri Andrey Babişin rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Çexiyanın Baş nazirinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Çexiyanın Baş naziri Andrey Babişi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Çexiyanın Baş nazirinə raport verdi.

Çex Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Çexiyanın Baş naziri Andrey Babişin qarşısından keçdi.

Azərbaycan nümayəndə heyətinin üzvləri Baş nazir Andrey Babişə, Çexiya nümayəndə heyətinin üzvləri isə Prezident İlham Əliyevə təqdim olundu.

Sonra rəsmi foto çəkdirildi.

## Azərbaycan Prezidenti İlham Əliyevin Çexiyanın Baş naziri ilə təkbətək görüşü



**Aprelin 27-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çex Respublikasının Baş naziri Andrey Babişlə Qəbələdə təkbətək görüşü keçirilib.**

## Azərbaycan Prezidentinin Çexiyanın Baş naziri ilə geniş tərkibdə görüşü



**Aprelin 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qəbələdə Çex Respublikasının Baş naziri Andrey Babişlə geniş tərkibdə görüşü olub.**

# Azərbaycan Prezidenti İlham Əliyev və Çexiyanın Baş naziri Andrey Babiş mətbuata bəyanatlarla çıxış ediblər





**Aprelin 27-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Çex Respublikasının Baş naziri Andrey Babiş mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.**

## Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli cənab Baş nazir.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Sizi səmimiyyətlə salamlayıram.

Mən çox şadam ki, cənab Baş nazir bu gün bizim qonağımızdır. Biz üç ay bundan əvvəl Davosda görüşmüşük. Bu, bizim birinci görüşümüz olmuşdur və görüş çox məhsuldar keçmişdir, bir çox məsələlər ətrafında fikir mübadiləsi apardıq. Mən cənab Baş naziri Azərbaycana rəsmi səfərə dəvət etmişəm və şadam ki, bu gün cənab Baş nazir bu səfəri Azərbaycana həyata keçirir. Bu, iki ölkə arasındakı əlaqələrin dinamik şəkildə inkişafını göstərir. Bizim indi çox fəal siyasi dialoqumuz var. Bu gün bir çox məsələlər – həm regional, həm ikitərəfli, həm də daha qlobal xarakter daşıyan məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

İqtisadi sahədə görüləcək işlərlə bağlı konkret təkliflər var. Mən şadam ki, cənab Baş nazirlə birlikdə Azərbaycana Çexiyadan böyük qrup iş adamları gəlmişdir və bu gün keçiriləcək biznes-forumda həm yeni təmaslar qurulacaq, həm də mövcud layihələrlə bağlı fikir mübadiləsi aparılacaq. Bizim çox böyük ümidimiz ondan ibarətdir ki, ticarət dövriyyəmizi daha da yüksək səviyyəyə qaldıraq. Halbuki bu gün də ticarət dövriyyəmiz əhəmiyyətli dərəcədə artmışdır, 800 milyon dollardan çoxdur. Amma əgər biz ticarət dövriyyəsinin strukturuna baxsaq görərik ki, burada əsasən Azərbaycan neftinin ixracı gözə dəyir. Ona görə biz ticarət dövriyyəsinin daha tarazlı olmasını və strukturun təkmilləşdirilməsini arzulayırıq. Ümid edirəm ki, biz buna nail olacağıq. Çünki bu gün həm təkbətək görüşdə, həm heyətlərin iştirakı ilə apardığımız danışıqlarda bir çox konkret iqtisadi və sərmayə yönümlü layihələr müzakirə edilmişdir.

Təbii ki, əməkdaşlığımızın böyük hissəsi energetika sektoruna aiddir. Burada da uzun illər ərzində Çexiya və Azərbaycan çox etibarlı tərəfdaşlardır. Azərbaycan nefti Çexiyaya ixrac edilir və Çexiyanın enerji balansında önəmli yer tutur. Azərbaycan dünya bazarlarına öz enerji resurslarını ixrac edən etibarlı ölkələr sırasındadır. Bunu, o cümlədən Avropa İttifaqı da qeyd edir və Azərbaycanı etibarlı tərəfdaş kimi qiymətləndirir. Bu gün Azərbaycan qazı 16 ölkəyə ixrac edilir və onlardan 10 ölkə Avropa İttifaqının üzvüdür. O cümlədən Azərbaycan Çexiyaya qonşu olan ölkələrə təbii qaz ixrac edir. Təbii ki, bu gün biz bu barədə də danışdıq və bu sahədə gələcək əməkdaşlıq haqqında qərara gəldik. Biz buna daha geniş prizmadan yanaşırıq. Bu, sadəcə olaraq, ticarət əməliyyatları, enerji resurslarının ixracı əməliyyatları olmayacaq. Biz buna daha genişmiqyaslı, uzunmüddətli əməkdaşlıq kimi yanaşırıq.

Bizim ölkələrimiz arasında digər önəmli əməkdaşlıq sahəsi müdafiə sənayesi ilə bağlıdır. Burada da uzun müddət ərzində uğurlu əməkdaşlıq aparılır. Biz Çexiyadan bir çox hərbi təyinatlı məhsullar alırıq və indiki mərhələdə birgə istehsalla bağlı konkret layihələr üzərində danışıqlar gedir. Əminəm ki, bu sahə də çox genişmiqyaslı olacaq. Çünki Azərbaycan öz müdafiə potensialını, o cümlədən yerli istehsal hesabına təmin edir və gələcəkdə bu sahədə böyük təcrübəsi olan Çexiya kimi ölkələrlə bizim müştərək işlərimiz xüsusi önəm daşıyır.

Bu gün bir çox digər sahələr ətrafında fikir mübadiləsi aparıldı. Hökumətlərarası Komissiyanın tezliklə tədbir keçirməsi, yenidən görüşməsi ilə bağlı fikir mübadiləsi aparılmışdır. Yəni bu gün bir daha Çexiya-Azərbaycan dostluğu, əməkdaşlığı öz təsdiqini tapır və bizim qarşımızda çox gözəl perspektivlər açılır.

Cənab Baş nazir, bir daha Azərbaycana xoş gəlmisiniz.

***

Sonra Çexiyanın Baş naziri bəyanatla çıxış etdi.

## Baş nazir Andrey Babişin bəyanatı





– Cənab Prezident.

Burada, iqamətgahınızda məni çox səmimiyyətlə qəbul etdiyinizə görə Sizə çox minnətdaram. Bunu həqiqətən yüksək dəyərləndirirəm və mənim üçün böyük şərəfdir. Şadam ki, Davosdan sonra söhbətimizi davam etdiririk.

Burada bəyan edə bilərəm ki, Azərbaycan Çex Respublikasının strateji tərəfdaşıdır. Buna görə məmnunam ki, münasibətlərimiz də dostluğa söykənir. Aydındır ki, Azərbaycan dünyanın diqqət mərkəzindədir. Ukrayna Prezidenti Zelenski burada oldu, sonra Ciorcia Meloni bura səfər edəcək. Bu, sadəcə, gözəl ölkənizin əhəmiyyətini bir daha nümayiş etdirir.

Bu gün keçirdiyimiz görüş çox xüsusi oldu. Əlbəttə, Avropa bu gün enerji haqqında danışır, çünki neftayırma zavodlarına xammal tələb olunur, müxtəlif məhsulların istehsalı üçün təbii qaz lazımdır. Azərbaycan Çex Respublikasında ən iri neft təchizatçısıdır. İdxal edilən neftin 42 faizi Azərbaycandan daxil olur.

Cənab Prezident, biz buraya ÇES adlanan yarıdövlət şirkətimizlə gəlmişik və o, buradan qaz təchizatı ilə bağlı müqavilə imzalamaq istəyir. Siz əsasən hasilatı artıracaqsınız. ÇES şirkətinin baş icraçı direktoru buradadır. O, ən iri qazpaylayıcı şirkətlərdən biri olan ÇES ilə qaz təchizatı haqqında Sizinlə uzunmüddətli müqaviləni gələcəkdə imzalasa, təbii ki, çox məmnun olardı. Beləliklə, Azərbaycan neftdən əlavə, bu sahədə de-fakto bizim strateji tərəfdaşımız ola bilər.

Çox şadam ki, Siz Hökumətlərarası Komissiyanın iclasını keçirməyi təklif etmisiniz və düşünürəm ki, Sizin tərəfdən komissiyaya təyinatı artıq öyrənmişik. Bizim tərəfdən isə Baş nazirin birinci müavini Karel Havliçek olacaq və o, danışdığımız bütün məsələləri əhatə edəcək.

Əlbəttə ki, enerji bizim üçün olduqca vacibdir. Həmçinin vacibdir ki, Avropa anlasın: onun bəzi direktivləri, əslində, qeyri-Avropa təchizatçılarına zərər vurur və Avropada yalnız iki qaz təchizatçısının olması bizim üçün yaxşı deyil. Bir sözlə, biz həmin təchizatda maraqlıyıq və düşünürəm ki, uzunmüddətli müqavilələri imzalamağa hazırıq.

Ən mühüm Çex şirkətləri bizimlədir və bütövlükdə nümayəndə heyətimizdə 50 şirkət təmsil olunub. Əlbəttə ki, bizim Bakı Metropoliteni ilə müqavilənin imzalanmasında çox böyük marağımız var. “ŞKODA Daşımalar” ölkəmizin, bəlkə də ən iri iqtisadi “PPF Qrupu”nun bir hissəsidir. Həmin qrup digər şirkətlərlə yanaşı, birgə müəssisə qurmaq, Azərbaycanda istehsalata başlamaq, elm və tədqiqata sərmayə yatırmaq, universitetlərinizlə əməkdaşlıq etmək və təbii ki, Sizin insanlarınızla işləməyə hazırdır. Bilirik ki, qarşımızda Çin var, lakin biz çox bacarıqlıyıq və bunlar tarixən bizim qanımızdadır. Çexoslovakiya dünyada on ən çox sənayeləşmiş ölkələrdən biri olub və mən əminəm ki, biz bir kapital ola bilərdik. “Çekoslova Qrup” burada artıq fəaliyyət göstərir və əlbəttə ki, birgə müəssisə olaraq biz öz məhsullarımızı istehsal edirik.

“Aero Vodoxodı” şirkəti köhnəlmiş “L-39” təyyarələrinə de-fakto xidmət göstərir və təmir edir. Əlbəttə, biz yeni “L-39NG” təyyarəsini Sizə təqdim edirik və onu dəyərləndirsəniz, çox şad olardıq. “Kolt” şirkəti, sözün əsl mənasında, mühüm beynəlxalq şirkətdir və o, bütün dünyaya əla məhsullarını təchiz edir və şadıq ki, sizin polis və digər qüvvələr həmin məhsulları artıq tanıyır.

Bir sözlə, bu haqda biz bu gün biznes-forumda danışacağıq. Əlbəttə, başqa variantlarımız da var. Siz burada yükdaşımalarında fəal olan şirkətinizi qeyd etdiniz və biz onda təbii ki, maraqlıyıq. Bir faktı da qeyd etdik. Karlovı Varıda yeni layihə haqqında danışdıq və istərdik ki, hava limanı və onun uçuş zolağı genişlənsin. Beləliklə, bu, Çex Respublikasının sərmayə yatıracağımız yeni strateji əhəmiyyətə malik hava limanı ola bilərdi. Nəticədə ölkələrimiz arasında turizmə və inkişafa töhfə ola bilərdi. Bir sözlə, bu gün bir çox məsələləri müzakirə etdik.

Bütün bunlardan çox məmnunam. Çox yaxşı hisslər keçirirəm. Söhbətimiz xüsusi oldu və təbii ki, biz, ümumiyyətlə, dünyadakı vəziyyət haqqında danışdıq. Lakin bu gün buraya iqtisadi münasibətlərimizi sürətləndirməyə və intensivləşdirməyə gəlmişik. Həmin layihələrin sayı çoxdur. Biz hazırıq, sürətli və çevik olacağıq.

Ayırdığınız vaxta, ölkənizə səfər etmək imkanına görə çox minnətdaram. Əla qəbula görə təşəkkür edirəm. Bütün bunları, həqiqətən yüksək dəyərləndirirəm.

# Qəbələdə Azərbaycan–Çexiya biznes forumu

**Aprelin 27-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çex Respublikasının Baş naziri Andrey Babişin iştirakı ilə Azərbaycan-Çexiya biznes forumu keçirilib.**



Azərbaycan Prezidenti və Çexiyanın Baş naziri tədbirdə çıxış ediblər.

Əvvəlcə Azərbaycan Prezidenti çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

– Günortanız xeyir, xanımlar və cənablar, əziz qonaqlar.

Çox şadıq ki, Baş nazir Babişin rəsmi səfəri zamanı Çexiyanın böyük biznes nümayəndə heyəti onu müşayiət edir. Bu, biznesin birgə aparılmasında qarşılıqlı marağın çox aydın işarəsidir. Adətən, işgüzar dairələr öz qərarını layihənin gəlirliyi ilə bağlayır, lakin eyni zamanda, bir çox məsələlər hüquqi əsaslar və siyasi ölçülərdən asılı olur.

Beləliklə düşünürəm ki, bu gün Çexiya və Azərbaycan liderləri özlərinin işgüzar dairələrinə çox aydın mesaj göndərirlər: ikitərəfli ticarət, sərmayələrdə iştirak etmək, praktiki layihələrə nəzər salmaq və işbirliyinin qurulması yolları haqqında düşünmək vaxtıdır. Fikrimcə, bu gün yüksək səviyyədə qurulan siyasi təmaslar çox güclü siyasi bünövrəni təşkil edir.

Bu gün artıq qeyd olunduğu kimi, biz Baş nazir Babişlə üç ay əvvəl Davosda bir araya gəldik, indi isə burada, Qəbələdə görüşürük. Bir sözlə, bu, həqiqətən göstərir ki, hər iki tərəf müxtəlif sahələrdə tərəfdaşlığın möhkəmləndirilməsində çox maraqlıdır. Bu gün siyasi gündəliyin, o cümlədən regional və qlobal siyasi gündəliyin bir çox mühüm məsələləri ilə yanaşı, biz, həmçinin biznes imkanları, qarşılıqlı sərmayələr haqqında xeyli danışdıq.

*(ardı 4-cü səhifədə)*

# Qəbələdə Azərbaycan–Çexiya biznes forumu



*(əvvəli 3-cü səhifədə)*

Biz konkret layihələrə toxunduq və birmənalı olaraq biznes-forumda bütün həmin məsələlər nəzərdən keçirilir.

Əlbəttə, hüquqi çərçivəyə əlavə, hər hansı sərmayədar üçün potensial sərmayələr sahəsində iqtisadi vəziyyət də vacibdir. Auditoriyanı məlumatlandıra bilərəm ki, Azərbaycanın maliyyə və iqtisadi vəziyyəti sabitdir. Çox illər ərzində, artıq doqquz ildir ki, valyutamız sabitdir. Əslində, məzənnə dəyişməz olaraq qalır. 2017-ci ildən etibarən bir dollar 1,7 manat təşkil edir. Düşünürəm ki, bu, hər hansı yerli və xarici potensial sərmayədar üçün mühüm göstəricidir. Son iyirmi il ərzində Azərbaycana sərmayə kimi 350 milyard ABŞ dolları yatırılmışdır və onun demək olar ki, yarısı xarici tərəfdaşlardan daxil olmuşdur. Bir sözlə, müsbət sərmayə iqlimi, əlbəttə ki, əsas hədəf idi. Çünki aydındır ki, sərmayələr olmasa, heç bir iqtisadiyyat inkişaf edə bilməz, xüsusilə də beynəlxalq gündəliyin qarışıq vaxtlarında.

Biz borcalmanı azaldaraq maliyyə sistemimizin gücləndirilməsinə nail olduq. Əslində, biz xarici borcu aşağı salmaq üçün bir neçə il əvvəl əsas borcalmaları dayandırdıq. Hazırda biz yenidən borcalmaya başladıq, çünki indi xarici borc ÜDM-in cəmi 6,1 faizini təşkil edir.

İnfrastruktur layihələri. Qarabağın və Şərqi Zəngəzurun azad olunmuş sahələrində yenidənqurmaya gəldikdə, görüləsi işlər çoxdur. Beləliklə, biz Dünya Bankı, AYİB, Asiya İnkişaf Bankı, Asiya İnfrastruktur və Sərmayə Bankı və digər aparıcı maliyyə təsisatları ilə artıq fəal işə başlamışıq. Məqsəd qarşımızda olan mühüm layihələrin icrasında daha çox dinamika yaratmaqdır. Beynəlxalq təcrübəyə gəldikdə, biz, həmçinin qeyd edə bilərik ki, "Moody's" Reytinq Agentliyi Azərbaycanın kredit reytinqini müsbət proqnozlu sərmayə reytinqi səviyyəsinə qaldırıb. Düşünürəm ki, bütün bunlar Azərbaycana pul vəsaitlərinin qoyulması üçün münasib məkan olması barədə investorlara yaxşı işarədir. Birmənalı olaraq, siyasi sabitlik, sosial sabitlik, təhlükəsizlik, yəni ölkədə işgüzar fəaliyyətlə məşğul olmaq qərarını qəbul edən sərmayədara ilk növbədə lazım olan hər meyar var.

İkitərəfli əməkdaşlığın perspektivlərinə gəldikdə, əvvəlcə bildirmək istərdim ki, biz Avropa İttifaqından ilk kənar ölkəyə - Azərbaycana səfər etdiyinə görə Baş nazir Babişə çox minnətdarıq. Biz bunu dostluq, hörmət əlaməti kimi görürük və bu, həmçinin göstərir ki, həqiqətən hər iki ölkənin bir-birinə ehtiyacı var. Biz Azərbaycandan ardı kəsilməyən neft təchizatı ilə enerji sahəsində artıq yaxşı tərəfdaşlıq qurmuşuq. Bu gün biz təbii qaz sahəsində əməkdaşlığın başlanılması imkanlarını geniş şəkildə müzakirə etdik. Neft, qaz, neftayırma məhsulları, neft-kimya, gübrələr, elektrik enerji, süni zəka, məlumat mərkəzləri böyük potensial əsasında ikitərəfli qaydada hər iki ölkənin fəal işlədiyi bütün digər sahələri əhatə edəcək strateji əməkdaşlığın qurulması məqsədilə həmin məsələlərə geniş perspektivdən nəzər saldıq.

Nəticə verən sahələrdən biri müdafiə sənayesidir. Çexiya müdafiə sənayesi sahəsində özünün çox müasir və etibarlı məhsulları ilə xeyli tanınır. Biz Çexiyanın şirkətləri ilə artıq bir neçə müqavilə imzalamışıq. Hazırda fəaliyyət dairəsini artırmağı və birgə istehsalata başlamağı planlaşdırırıq. Elə danışdığımız zaman heyətlərimiz bunun üzərində işləyir. Bu, istənilən ölkə üçün, xüsusən də müharibə və münaqişələrin yağışdan sonra göbələk kimi artdığı dövrdə çox mühüm sahədir. Hər bir ölkə öz suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını müdafiə etməyə hazır olmalıdır. Bu nöqteyi-nəzərdən düşünürəm ki, biz böyük artım potensialı olan bu sahədə əməkdaşlıq üçün çox güclü əsas qoyduq.

Həmçinin bu gün cənab Baş nazirlə birgə qəbul etdiyimiz qərarlar arasında Birgə İqtisadi Komissiyanın həmsədrliyinin səviyyəsinin nazirlər səviyyəsinə qaldırılması və Birgə Hökumətlərarası Komissiyasının iclasının təşkili də var idi. Yaxşı olardı ki, bu iclas bu il keçirilsin. Birgə Hökumətlərarası Komissiyanın iclası sonuncu dəfə 3 il bundan əvvəl keçirilmişdir. Beləliklə, bir çox məsələlər üzərində iş gedir. Biz bu məsələlərin gedişi barədə xəbərdar edilməliyik, informasiya mübadiləsi aparılmalıdır, biznes ictimaiyyəti istiqamətləndirilməlidir və onlar üçün daha yaxşı mühit təmin edilməlidir.

Ölkəmiz üçün prioritet sayılan sahələrdə Azərbaycana yatırıla biləcək potensial investisiyalara gəldikdə, birinci sahə əlbəttə ki, sənayenin inkişafıdır və birgə istehsaldır. Biz nəqliyyat infrastrukturunun aparıcı istehsalçıları ilə Azərbaycanda birgə müəssisə yaratmaq məqsədilə Çexiyanın çox məşhur olan nəqliyyat sektorunu geniş müzakirə etdik.

Biz Azərbaycanda böyük potensialı olan bərpaolunan enerji sahəsini fəal şəkildə inkişaf etdiririk. Planımız 2032-ci ilə qədər Günəş, külək və hidroelektrik enerjidən 8 giqavat əldə etməkdir və bu, təkcə planlara yox, artıq imzalanmış müqavilələrə əsaslanır. Bunun üçün çoxlu sahə işləri aparılmalıdır. Əlbəttə ki, bu, sahələrdən biri ola bilər.

Bağlantı. Bu gün biz Şərq-Qərb nəqliyyat dəhlizinə geniş sərmayə yatırırıq və bu gün ənənəvi təchizat zəncirinin kəsilməsinə, logistika və tranzitlə bağlı problemlərə görə bu dəhlizə heç vaxt olmadığı kimi ehtiyac var. Beləliklə, Azərbaycan Şərqdən Qərbə və əks istiqamətdə, hətta Şimaldan Cənuba və Cənubdan Şimala təhlükəsiz və etibarlı tranziti təmin edir. Biz hər iki dəhlizin kəsişməsində yerləşirik və son illərdə infrastruktura geniş investisiyalar ilə biz bir çox ölkələrə lazım olan bu böyük aktivi artıq yaratmışıq.

Turizm, əlbəttə ki, tərəfdaşlığın önəmli sahəsi ola bilər. Hər iki ölkənin zəngin tarixi, mədəniyyəti, abidələri, təbiəti var. Yeri gəlmişkən, bugünkü forum təkcə Azərbaycanın deyil, daha geniş coğrafiyanın qədim parçası olan bir yerdə keçirilir. Qəbələ əsrlər boyu qədim Qafqaz Albaniyası dövlətinin paytaxtı olub. Bu gün deyərdim ki, Azərbaycanın turizm paytaxtıdır. Biz əlbəttə ki, əlaqələr, xalqlararası təmaslar, mövcud olan, lakin planlarımızı nəzərə alaraq artırmalı olduğumuz hava yolu əlaqəsi üzərində çalışmalıyıq.

Biz, həmçinin Azərbaycanın regionda artıq önəmli rol oynadığı hava ilə yükdaşımaları sahəsində potensial əməkdaşlığı müzakirə etdik. Bir çox digər sahələr də var. Əlbəttə ki, qeydlərimizdə bütün məsələləri əhatə etmək mümkün deyil. Lakin mən əminəm ki, biznes dairələri bu gün biznesin qurulması və dostyana mühitin yaradılması üzrə potensiala dair aydın anlayışla bir araya gəliblər. Ümid edirəm ki, Çexiya və Azərbaycandan olan biznes dairələrinin nümayəndələri həm də yaxşı dost olacaqlar. Bu dostluğun təməli bu gün qoyulacaq  və o, davam edəcəkdir.

Bir daha, cənab Baş nazir, hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz.

***

Sonra Çexiyanın Baş naziri çıxış etdi.




## Baş nazir Andrey Babişin çıxışı



– Hörmətli cənab Prezident Əliyev, nazir Cabbarov, hörmətli qonaqlar, xanımlar və cənablar.

Ən dinamik ölkələrdən biri olan Odlar diyarı Azərbaycanla əlaqələrin gücləndirilməsinə və yeni üfüqlərin kəşfinə həsr olunmuş Çexiya-Azərbaycan biznes forumu üçün burada, Qəbələdə olmaqdan böyük şərəf hissi duyuram.

Azərbaycan əlbəttə ki, bizim üçün, Çex Respublikası üçün strateji tərəfdaşdır. Buna görə də Avropa İttifaqına üzv olmayan ölkələr arasında ilk səfərimi məhz buraya edirəm. Biz cənab Prezidentlə Davosda görüşmüşdük, bu səfəri razılaşdırmışdıq və burada olmağımdan şadam və şərəf hissi keçirirəm. Eyni zamanda, Sizi Praqada qəbul etmək üçün dəvəti də çatdırıram.

Ölkələrimiz arasında Birgə İqtisadi Komissiyanın təşkil edilməsi ilə bağlı ideya var və bizim tərəfdən bu komissiyaya birinci vitse-premyer cənab Havliçik rəhbərlik edəcəkdir. Hesab edirəm ki, bu komissiya işinə mümkün qədər tez – bu il başlamalıdır ki, biz bütün bu layihələrdə irəli gedə bilək.

Enerjiyə gəldikdə, biz Avropa İttifaqında enerjidən danışırıq. Çex Respublikası bütün liderlərə, komissiyaya və Avropa İttifaqı Şurasına dörd məktub göndərib. Bizim problemimiz var. Bizim problemimiz yaşıl razılaşma ilə bağlıdır və bu məsələ bugünkü durumundan fərqli olaraq tamamlanmaq üzrədir. Bununla da "ETS1", "ETS2" ilə Avropa sənayesi məhv edilir, Avropanın və Avropa vətəndaşlarının həyatlarına zərbə vurulur. İndi isə Hörmüz boğazı ilə bağlı problem yaşayırıq. İndi Avropada xam neft və qaz məsələsi üzə çıxır. Biz buraya enerji ilə bağlı danışıqlar aparmaq üçün də gəlmişik, çünki Azərbaycan Çex Respublikasına xam neftin ən böyük təchizatçısıdır, 42 faiz təchiz olunur. Siz bir nömrəli təchizatçımızsınız.

Biz buraya qazın ən böyük paylayıcısı olan ÇES şirkəti ilə gəlmişik və əlbəttə ki, uzunmüddətli əməkdaşlığı, uzunmüddətli müqaviləni, ikitərəfli investisiyaları müzakirə etməyə çox şad olardıq. Siz yeni qaz yataqlarını kəşf edəcəksiniz və əlbəttə ki, bizim bu məsələyə çox böyük marağımız var. Hər ikimiz etibarlı tərəfdaş olduğumuzu bilirik və bizim əməkdaşlığımız qarşılıqlı hörmətə və etibara əsaslanır. 2025-ci ildən indiyədək ticarət dövriyyəsi 1,75 milyard avro təşkil etmişdir və bu, əsasən xam neftin təchizinə görə olmuşdur. Lakin gələcəkdə şaxələndirmə üçün böyük potensial mövcuddur. Məhz buna görə, cənab Prezident, çox önəmli 50 Çex şirkətinin nümayəndələri ilə buraya təşrif buyurmuşam və Sizi bu gün burada bizimlə bir yerdə olan bu konkret şirkətlərlə tanış etmək istəyirəm. Biz enerji üzrə həllərin tam spektrini təklif edən kurasiyamızda olan bir qrup ixtisaslaşmış şirkətləri bir araya gətirmişik. Bu gün burada təmsil olunmuş şirkətlər arasında ÇES, "Inco Engineering", "Provico", "TTC Marconi", "ZPA Pečky", "ZVVZ Engineering" və "ŽDAS" var.

İcazə verin, həmçinin müdafiə sektorunda fəaliyyət göstərən bir qrup şirkəti Sizə təqdim edim və Siz artıq onlarla tanışsınız. Çex Respublikası 1939-cü ildə dünyada hərbi avadanlıq və silahların ən böyük istehsalçısı idi. Burada Çexiya və Slovakiya qrupu da təmsil olunur, birgə müəssisələr, investisiyalar, - "L-39NG Aero Vodochody", "CSG Aerospace", "Česká Zbrojovka", "Colt", "Excalibur International", "Explosia", "VOP CZ", "Omnipol" və "Livance SRO Meteopress", - biz bu layihələri müzakirə etmişik. Bütün bu şirkətlər Sizin xüsusi ehtiyaclarınıza uyğun hərtərəfli çeşiddə məhsul və inteqrasiya olunmuş həlləri təklif edirlər. Nümayəndə heyətimiz müasir nəqliyyat mühəndisliyində ən yaxşı hədləri təcəssüm etdirir. Bu şirkətlər qatarlar və dəmir yolu texnologiyasından tutmuş, qabaqcıl nəqliyyatı idarəetmə sistemi və "ağıllı" infrastruktura qədər hər şeyi təmin edirlər. Onlar bizə daha da sürətli, təhlükəsiz və dayanıqlı nəqliyyat şəbəkəsini qurmağa kömək etmək üçün buradadırlar. Əlbəttə ki, "ŠKODA Transportation" və  Çexiyada çox önəmli və iqtisadi qrup olan "PPF"in  üzvü olan "ŠKODA" şirkətlər qrupunun Bakı metrosunda keçirilən tenderdə uğur qazanması bizi çox şad edərdi. Həmçinin "AŽD Praha", "CZ Loco", "Daco" və "Tatra Export" şirkətləri də burada təmsil olunur. Burada olan bütün bu şirkətlər çox konkret layihələr təqdim ediblər və mən əminəm ki, bizimlə işbirliyi qursanız, bundan çox məmnun qalarsınız.

Həmçinin geologiya və mədən sənayesi sektorunu təmsil edən ixtisaslaşmış "Česká geologická služba və Frýdlantské strojírny", "TR", "SRO" şirkətlərini də təqdim etmək mənim üçün şərəfdir. Bu şirkətlər suyun idarəedilməsi və dayanıqlılıq məsələlərində ixtisaslaşmış şirkətlərdir. Burada "MEGA", "Chemoprojekt" və maliyyə sektorunda fəaliyyət göstərən "Czech Export Bank", "Exportní garanční a pojišťovací společnost", analitik texnologiyalar və laborator şəbəkə xidmətləri üzrə fəaliyyət göstərən "JTH Holding" şirkətləri də var.

Bu gün müzakirələrimizin təbii ki, sənaye və iqtisadi artıma fokuslanmasına baxmayaraq, biz tərəfdaşlığın texnologiya və ticarətdən daha dərin olduğunu hesab edərək, onun, eyni zamanda, mədəniyyəti, təhsili və sosial məsuliyyəti əhatə etdiyini düşünürük. Bu kontekstdə musiqi alətləri üzrə ixtisaslaşmış və ümumdünya miqyasında tanınmış şirkət olan "Petrov"u salamlamaq istəyirəm. Bundan əlavə çox vacib məsələni də Sizin diqqətinizə çatdırmaqdan fərəh hissi keçirirəm. Burada təmsil olunan şirkət və təşkilatlardan bəziləri sosial tərəqqiyə, xüsusilə qadınların cəmiyyətdə və peşəkar sahədə roluna dərindən bağlıdırlar. Bunu nəzərə alaraq, mən Qadın Sahibkarlarının və Menecerlərinin Çexoslovak Moraviya Assosiasiyası olan "FCEM"i salamlamağa çox şadam. Bu şirkətlər müvafiq sənayelərin zirvəsini təmsil edərək onilliklər ərzində davam edən Avropa ənənələrini bu gün qlobal bazarları müəyyənləşdirən müasir innovasiyalarla birləşdiriblər. Beləliklə, şirkətlərin siyahısı budur, çox böyük maraq var idi və biz yəqin ki, siyahıya 100 şirkəti əlavə edə bilərdik. Lakin, cənab Prezident, biz düşündük ki, müəyyən seçimlər etməliyik. Beləliklə, bu siyahı Çex şirkətlərinin gözəl ölkənizə və sizinlə iş qurmağa olan marağını əks etdirir.

İndi isə şirkətləri öz təklifləri ilə çıxış etməyə dəvət edirəm. Hesab edirəm ki, bugünkü forum, əlbəttə ki, bizim əməkdaşlığımızı intensivləşdirərək irəli aparacaq və bu bizim üçün çox önəmlidir. Çünki biz əminik ki, şirkətlərimiz əla məhsul və xidmətləri təklif edirlər. Biz birgə müəssisə yaratmağa, insanlarınızı işə götürməyə, tədqiqat və araşdırmaya investisiya yatırmağa, universitetlərlə əməkdaşlıq etməyə hazırıq və ölkəmizdə böyük potensial mövcuddur.

Çox sağ olun. Mən Sizi Praqada qəbul etməyi səbirsizliklə gözləyirəm və bundan əvvəl ümid edirəm ki, nümayəndələrimiz bu layihələri irəli aparacaq və ticarət dövriyyəmiz xeyli artacaq.

Çox sağ olun, cənab Prezident.

# Çexiyanın Baş nazirinin şərəfinə rəsmi lanç verilib



**Aprelin 27-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Çex Respublikasının Baş naziri Andrey Babişin şərəfinə rəsmi lanç verilib.**

# Qəbələ Beynəlxalq Hava Limanında qarşılanma



**Aprelin 26-da Çex Respublikasının Baş naziri Andrey Babiş Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Qəbələ Beynəlxalq Hava Limanında Çex Respublikasının Baş nazirinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Çexiyanın Baş naziri Andrey Babişi Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və digər rəsmi şəxslər qarşıladılar.

***AZƏRTAC***

# "Sülh və Barışıq üçün Gernika mükafatı"nın təqdimolunma mərasiminin iştirakçılarına

**Hörmətli dostlar!**

Azərbaycan ilə Ermənistan arasında sülhün əldə olunması və dialoqun təşviqi istiqamətində göstərdiyim səylərə görə "Sülh və Barışıq üçün Gernika mükafatı"na layiq görülməyim ilə əlaqədar Gernika-Lumo və Pforshaym şəhər Şuralarına, Gernika Sülh Muzeyinə, Mədəniyyət evinə və "Gernika Qoqoratuz" Sülh Araşdırmaları Mərkəzinə dərin minnətdarlığımı ifadə edirəm.

Gernika faciəsinin tarixi yaddaşını yaşatmaq, sülh və barışıq proseslərində töhfəsi olan insanları tanıtmaq məqsədi daşıyan bu mötəbər mükafata layiq görülmək böyük şərəfdir. Bu mükafatın 26 Aprel Gernika qurbanlarının anım günündə təqdim olunması xüsusi rəmzi məna daşıyır. 89 il əvvəl Gernikada dinc əhaliyə qarşı törədilmiş amansız cinayət ötən əsrin ən dəhşətli və qanlı səhifələrdən biridir. Hesab edirəm ki, dinc insanlara qarşı istənilən cinayət, bütövlükdə, bəşəriyyətə və insanlığa qarşı yönəlir. Gernika şəhərinin bu ağrı-acısını bölüşür, qurbanların əziz xatirəsini dərin ehtiramla yad edirəm.

Gernika şəhərinin tarixindən irəli gələn sülh və barışıq mesajı bütün xalqlar üçün mühüm əhəmiyyət kəsb edir. Müharibələrin acı nəticələrini yaşamış xalqların xatirəsi və təcrübəsi gələcək nəsillərin daha sabit və təhlükəsiz dünyada yaşaması üçün mühüm dərs olmalıdır.

30 ilə yaxın müddət ərzində münaqişə şəraitində yaşamış, müharibənin ağır fəsadları ilə üzləşmiş Azərbaycan xalqı da sülhün və barışığın dəyərini çox yaxşı anlayır. Azərbaycan bu gün sülh şəraitində yaşamağın nə olduğunu öyrənir. Bu, bizim üçün yeni və qeyri-adi bir hissdir. Çünki müstəqilliyimizi bərpa edəndən bəri biz bu hissi yaşamamışdıq.

2025-ci ilin avqustunda Vaşinqton şəhərində baş tutmuş tarixi Zirvə Görüşündə Azərbaycan və Ermənistan arasında sülh sazişinin mətni paraflanmış, eyni zamanda Birgə Bəyannamə imzalanmışdır. Bununla da üç onillik ərzində davam edən münaqişə tamamilə sona çatmış, xalqlarımız üçün sülhün, barışığın, qarşılıqlı tərəfdaşlıq dövrünün əsası qoyulmuşdur.

Hazırda Azərbaycan bu yeni reallığa və sülh mühitində yaşamağa uyğunlaşır. Ümumi müsbət atmosfer, sabitliyə və təhlükəsizliyə daha çox inam bizi irəliləməyə və inkişaf gündəliyimizə daha çox vaxt və resurs ayırmağa imkan verir. Biz eyni zamanda sülhü möhkəmləndirmək və onu əməli fəaliyyətə çevirmək üçün addımlar atırıq və artıq hər iki cəmiyyətimiz sülhün iqtisadi, ticari və digər sahələrdə real faydalarının şahidi olur. Bu gün artıq Azərbaycanın neft məhsulları, üçüncü ölkələrdən taxıl və digər məhsullar ölkəmizin ərazisindən keçməklə Ermənistana ixrac edilir.

İki ölkə arasında etimad quruculuğu tədbirləri davamlı sülhün bərqərar olmasında mühüm rol oynayır. Dövlət səviyyəsində atılan addımlarla yanaşı, vətəndaş cəmiyyətinin nümayəndələri arasında mütəmadi görüşlər bu prosesə müsbət töhfəsini verir.

Azərbaycanın və Ermənistanın nümunəsi göstərir ki, uzunmüddətli münaqişəyə, iztirablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, güclü siyasi iradə və beynəlxalq dəstək mövcud olduqda sülh əldə etmək mümkündür.

Hörmətli dostlar,

"Sülh və Barışıq üçün Gernika mükafatı" yalnız artıq əldə olunmuş nailiyyətlərin tanınması deyil, həm də beynəlxalq birliyin ortaq rifahı, sülh naminə atılacaq gələcək addımlar baxımından mühüm ruhlandırıcı stimul və məsuliyyətdir.

Bu mükafata görə bir daha təşəkkürümü ifadə edir, sülh, dialoq və qarşılıqlı anlaşmanın təşviqi istiqamətində fəaliyyətinizdə hər birinizə uğurlar arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

# Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin və əvəzedici üzvlərinin təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Milli Məclisinin Qərarı*

"Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinə əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.7-ci və 24-cü maddələrinə əsasən, Milli Məclisdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının, heç bir siyasi partiyaya mənsub olmayan (müstəqil) deputatların, Milli Məclisdə azlıq təşkil edən Vətəndaş Həmrəyliyi Partiyasının, Ədalət, Hüquq, Demokratiya Partiyasının, Azərbaycan Demokratik İslahatlar Partiyasının, Böyük Quruluş Partiyasının, Azərbaycan Demokratik Maarifçilik Partiyasının, Milli Cəbhə Partiyasının (MCP), Böyük Azərbaycan Partiyasının, Azərbaycan Milli İstiqlal Partiyasının, Ana Vətən Partiyasının, Respublikaçı Alternativ Partiyasının (REAL) təqdimatlarını nəzərdən keçirərək Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** Aşağıdakı şəxslər Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvləri təyin edilsinlər:

Abdullayeva Sevinc Qurban qızı,
Cavadov Fuad Musa oğlu,
Əsgərov Bəxşeyiş Məmməd oğlu,
Əsgərova Nailə Şahmərdan qızı,
Həsənov Tofiq Eldar oğlu,
Xələfov Elçin Abuzər oğlu,
İbrahimov Ramiz Hilal oğlu,
Qasımov Rövzət Afət oğlu,
Qəhrəmanlı Almas Əlisultan qızı,
Quliyev Etibar Cəfər oğlu,
Məmmədov Elmar Eldar oğlu,
Məmmədov İlham Sabir oğlu,
Muxtarova Arifə Ağaverdi qızı,
Orucov Qabil Əhməd oğlu,
Paşayev Hüseyn Məmməd oğlu,
Pənahov Məzahir Məhəmməd oğlu,
Rəhimov Mikayıl Rəhman oğlu,
Şahbazov İlkin Zaur oğlu.

**2.** Aşağıdakı şəxslər Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının əvəzedici üzvləri təyin edilsinlər:

Cəlilova Aysel Zaur qızı,
Qarayeva Züriyə Ruslan qızı,
Mustafayeva Elnarə Eyyub qızı.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***

**Bakı şəhəri, 27 aprel 2026-cı il**

# Məzahir Məhəmməd oğlu Pənahovun Mərkəzi Seçki Komissiyasının sədri seçilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.2-ci, 19.3-cü, 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Məzahir Məhəmməd oğlu Pənahov Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri seçilsin.

**Sədr** Məzahir Pənahov
**Üzvlər**
Sevinc Abdullayeva
Fuad Cavadov
Bəxşeyiş Əsgərov
Nailə Əsgərova
Tofiq Həsənov
Elçin Xələfov
Ramiz İbrahimov
Rövzət Qasımov
Almas Qəhramanlı
Etibar Quliyev
Elmar Məmmədov
İlham Məmmədov
Arifə Muxtarova
Qabil Orucov
Hüseyn Paşayev
Mikayıl Rəhimov
İlkin Şahbazov

# Rövzət Afət oğlu Qasımovun Mərkəzi Seçki Komissiyası sədrinin müavini seçilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.2-ci, 19.3-cü, 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Rövzət Afət oğlu Qasımov Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası sədrinin müavini seçilsin.

**Sədr** Məzahir Pənahov

**Müavin** Rövzət Qasımov
**Üzvlər**
Sevinc Abdullayeva
Fuad Cavadov
Bəxşeyiş Əsgərov
Nailə Əsgərova
Tofiq Həsənov
Elçin Xələfov
Ramiz İbrahimov
Almas Qəhramanlı
Etibar Quliyev
Elmar Məmmədov
İlham Məmmədov
Arifə Muxtarova
Qabil Orucov
Hüseyn Paşayev
Mikayıl Rəhimov
İlkin Şahbazov

# Arifə Ağaverdi qızı Muxtarovanın Mərkəzi Seçki Komissiyasının katibi seçilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.2-ci, 19.3-cü, 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Arifə Ağaverdi qızı Muxtarova Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının katibi seçilsin.

**Sədr** Məzahir Pənahov

**Müavin** Rövzət Qasımov
**Katib** Arifə Muxtarova
**Üzvlər**
Sevinc Abdullayeva
Fuad Cavadov
Bəxşeyiş Əsgərov
Nailə Əsgərova
Tofiq Həsənov
Elçin Xələfov
Ramiz İbrahimov
Almas Qəhramanlı
Etibar Quliyev
Elmar Məmmədov
İlham Məmmədov
Qabil Orucov
Hüseyn Paşayev
Mikayıl Rəhimov
İlkin Şahbazov

# Mikayıl Rəhman oğlu Rəhimovun Mərkəzi Seçki Komissiyasının katibi seçilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.2-ci, 19.3-cü, 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Mikayıl Rəhman oğlu Rəhimov Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının katibi seçilsin.

**Sədr** Məzahir Pənahov

**Müavin** Rövzət Qasımov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov
**Üzvlər**
Sevinc Abdullayeva
Fuad Cavadov
Bəxşeyiş Əsgərov
Nailə Əsgərova
Tofiq Həsənov
Elçin Xələfov
Ramiz İbrahimov
Almas Qəhramanlı
Etibar Quliyev
Elmar Məmmədov
İlham Məmmədov
Qabil Orucov
Hüseyn Paşayev
İlkin Şahbazov

# Ombudsmanın vətəndaş qəbulu



**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva aprelin 23-24-də Bakı şəhərində növbəti dəfə vətəndaşların müraciətlərini dinləyib.**

Ombudsman müraciət edən şəxslərlə fərdi qaydada görüşüb, bəzi məsələlərin operativ həlli məqsədilə yerində zəruri tədbirlər görülüb. Araşdırma tələb edən digər məsələlərin nəzarətdə saxlanılacağı və mövcud qanunvericiliyin tələblərinə uyğun həlli istiqamətində aidiyyəti dövlət qurumlarına müraciət ediləcəyi diqqətə çatdırılıb.

Görüş zamanı vətəndaşlara hüquqi məsləhətlər verilib.

***XQ***

# Cənubi Afrika Respublikasının Prezidenti Zati-aliləri cənab Matamela Siril Ramafozaya

**Hörmətli cənab Prezident!**

Cənubi Afrika Respublikasının milli bayramı – Azadlıq Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik etməkdən məmnunluq duyuram.

İnanıram ki, Azərbaycan ilə Cənubi Afrika arasında dostluq əlaqələri və qarşılıqlı faydalı əməkdaşlıq həm ikitərəfli əsasda, həm də çoxtərəfli çərçivədə bundan sonra da xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə uğurla inkişaf edəcək və genişlənəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 aprel 2026-cı il**

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2026-cı ilin may ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1 | **Ədliyyə naziri** Fərid Əhmədov | **Şəmkir** | Şəmkir, Gədəbəy, Tovuz, Ağstafa, Qazax | **01** |
| 2 | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | **Cəbrayıl** | Cəbrayıl, Qubadlı, Zəngilan | **01** |
| 3 | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Xankəndi** | Xankəndi, Ağdərə, Xocalı | **04** |
| 4 | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **06** |
| 5 | **Daxili işlər naziri** Vilayət Eyvazov | **İmişli** | İmişli, Füzuli, Beyləqan, Xocavənd, Saatlı, Sabirabad, Kürdəmir | **07** |
| 6 | **Gənclər və idman naziri** Fərid Qayıbov | **İmişli** | İmişli, Saatlı, Sabirabad | **07** |
| 7 | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Xızı** | Xızı, Siyəzən | **14** |
| 8 | **Baş prokuror** Kamran Əliyev | **Masallı** | Masallı, Lənkəran, Astara, Lerik, Yardımlı, Cəlilabad | **15** |
| 9 | **Ekologiya və təbii sərvətlər naziri** Rəşad İsmayılov | **Laçın** | Laçın, Kəlbəcər | **15** |
| 10 | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **15** |
| 11 | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Şuşa** | Şuşa | **15** |
| 12 | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Naftalan** | Naftalan, Goranboy, Xocalı | **15** |
| 13 | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | **Qusar** | Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən | **18** |
| 14 | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Ağdam** | Ağdam, Füzuli, Xocavənd | **18** |
| 15 | **Baş prokuror** Kamran Əliyev | **Xankəndi** | Xankəndi, Ağdərə, Xocalı, Xocavənd, Şuşa | **20** |
| 16 | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Xızı** | Xızı, Sumqayıt, Abşeron | **21** |
| 17 | **Energetika naziri** Pərviz Şahbazov | **Neftçala** | Neftçala, Salyan, Biləsuvar, Cəlilabad, Şirvan, Hacıqabul | **22** |
| 18 | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev | **Xankəndi** | Xankəndi, Ağdərə, Xocalı | **22** |
| 19 | **Mədəniyyət naziri** Adil Kərimli | **Beyləqan** | Beyləqan, İmişli, Saatlı, Sabirabad, Xocavənd | **22** |
| 20 | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Biləsuvar** | Biləsuvar, Lənkəran, Masallı, Astara, Lerik, Cəlilabad, Yardımlı | **22** |
| 21 | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Vüsal Nəsirli | **Zəngilan** | Zəngilan, Cəbrayıl, Qubadlı | **22** |
| 22 | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | **Ağstafa** | Ağstafa, Qazax, Tovuz | **22** |
| 23 | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Lənkəran** | Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad, Biləsuvar, Cəbrayıl | **25** |
| 24 | **Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktoru** Anar Bayramov | **Xızı** | Xızı, Siyəzən | **25** |
| 25 | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Qax** | Qax, Şəki, Zaqatala, Balakən | **26** |
| 26 | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Beyləqan** | Beyləqan, Füzuli, İmişli, Saatlı, Sabirabad, Cəbrayıl, Xocavənd | **26** |
| 27 | **"Azəristiliktəchizat" ASC-nin sədri** İlham Mirzəliyev | **Qusar** | Qusar, Quba | **26** |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

# Azərbaycanın Ukraynanın İrpen şəhərinə avtobus hədiyyəsi

**Ukrayna Prezidenti Volodimir Zelenskinin ölkəmizə işgüzar səfəri çərçivəsində Azərbaycan dövləti İrpen şəhərinə humanitar yardım olaraq 5 elektrik avtobusu hədiyyə edib.**



Ukrayna tərəfi bu addımı ölkələrimiz arasında dostluq və həmrəyliyin təcəssümü kimi qiymətləndirib.

***XQ***



# MSK-ya sədr, müavin və katiblər seçilib



**Aprelin 27-də Mərkəzi Seçki Komissiyasının yeni tərkibdə ilk iclası keçirilib.**

Komissiyanın iclasında qurumun sədri, müavini və iki katibi seçilib.

İclasda Milli Məclisin Sədri Sahibə Qafarova da iştirak edib. Mərkəzi Seçki Komissiyasının yeni tərkibinin formalaşdırılmasının dövlətimizin demokratik təsisatlarının varisliyini və siyasi hüquqi sistemin dayanıqlılığını ifadə etdiyini bildirən Milli Məclisin Sədri qeyd edib ki, Azərbaycanın demokratik inkişafında seçkilər və ümumxalq səsvermələri böyük rol oynayır.

"Seçkilər xalqın iradəsinin ifadə olunmasının fundamental mexanizmini, cəmiyyətin, dövlət institutlarının etimadının möhkəmləndirilməsinin mühüm vasitəsidir. Bu baxımdan seçkilərin qanunauyğun şəkildə hazırlanıb keçirilməsi vacib məsələdir. Ölkənin demokratik inkişaf səviyyəsi seçkilərin nə dərəcədə şəffaf təşkil edilməsindən asılıdır. Dünya sürətlə dəyişir və seçki prosesinə tələblər artır. Bu baxımdan MSK-nın üzərinə böyük məsuliyyət düşür. Hesab edirəm ki, ötən dövrdə üzərinə düşən işi layiqincə yerinə yetirən Komissiya bu gün ölkəmizin siyasi sistemində özünəməxsus yer tutur", - deyə S.Qafarova vurğulayıb.

Sonra MSK-nın ən yaşlı üzvü Məzahir Pənahov Komissiyanın yeni tərkibdə ilk iclasını açıq elan edib.

Daha sonra açıq səsvermə yolu ilə Mərkəzi Seçki Komissiyası sədrinin, sədr müavininin və katiblərinin seçkisi keçirilib.

Məzahir Pənahov yekdilliklə Mərkəzi Seçki Komissiyasının sədri seçilib.

MSK-nın yeni tərkibinə etimad göstərdiklərinə görə Milli Məclisin bütün üzvlərinə minnətdarlığını bildirən Məzahir Pənahov qeyd edib ki, Komissiyanın indiyə qədər olan tələbləri yerində qalır və bu tələblər bir az da ciddiləşəcək. MSK sədri bildirib ki, Komissiya Seçki Məcəlləsinin tələblərinə uyğun fəaliyyət göstərir.

"Azərbaycanda 30 mindən artıq aşağı seçki komissiyası üzvü var. Bütün seçki komissiyalarının binaları müasir cihazlarla, avadanlıqlarla təmin olunub. Bütün dairələrin iş şəraiti dünyaya nümunə ola biləcək səviyyədə qurulub. Azərbaycan şəffaflıq cəhətdən də dünyada analoqu olmayan bir nümunəni ortaya qoyub. Belə ki, 1000 məntəqədə veb-kameralar quraşdırılıb. Dünyanın istənilən nöqtəsindən birbaşa MSK-nın saytına girməklə seçki prosesini müşahidə etmək mümkündür. Bunun üçün heç bir əlavə qeydiyyat və ya icazə tələb olunmur. Bütün bu sadalananlar Prezident İlham Əliyevin siyasi iradəsinin və Birinci vitse-prezident Mehriban Əliyevanın MSK-ya diqqətinin məntiqi nəticəsidir", - deyə M.Pənahov vurğulayıb.

Sədr Məzahir Pənahov bütün bunlara görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya Mərkəzi Seçki Komissiyası adından bir daha minnətdarlığını bildirib.

Sonra səsvermə yolu ilə Rövzət Qasımov MSK sədrinin müavini, Arifə Muxtarova Milli Məclisdə heç bir siyasi partiya mənsubiyyəti olmayan müstəqil deputatları, Mikayıl Rəhimov isə Milli Məclisdə deputatları azlıq təşkil edən siyasi partiyaları təmsil edən MSK katibləri seçiliblər.

***XQ***

# Azərbaycan – Çexiya: strateji dialoq və çoxtərəfli tərəfdaşlıq



**Bakı və Praqa arasındakı münasibətlər son illər ardıcıl və sabit inkişaf yolu keçərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Bu əlaqələrin təməli 2015-ci ildə imzalanmış "Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə" ilə qoyulsa da, əslində, bu sənəd tərəflər arasında illərdir formalaşan qarşılıqlı etimadın hüquqi təsdiqi idi. Həmin bəyannamə siyasi dialoqla yanaşı, iqtisadiyyat, enerji, nəqliyyat və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün geniş imkanlar açıb. Onun ən mühüm aspektlərindən biri beynəlxalq hüququn təməl prinsiplərinə, xüsusən də dövlətlərin ərazi bütövlüyünə qarşılıqlı dəstək mövqeyinə əsaslanmasıdır. Bu, ikitərəfli münasibətlərin, sadəcə, maraqlar deyil, həm də fundamental dəyərlər üzərində qurulduğunu göstərir.**

İki ölkə rəhbərləri arasında təmaslar da artıb. Bunu statistik məlumatlar da təsdiqləyir: Azərbaycan Prezidenti indiyədək Çexiyaya dörd mühüm səfər etmiş, Çexiya prezidentləri Azərbaycana iki, Baş nazir isə bir dəfə rəsmi səfərdə olmuşdur. Bu səviyyədə təmaslar münasibətlərin ən yüksək səviyyədə saxlandığını göstərir. Eyni zamanda, 2011-ci ildən bəri fəaliyyət göstərən iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiya əlaqələrin praktiki müstəvidə icrası üçün əsas institusional mexanizm kimi çıxış edir. Xarici İşlər nazirlikləri səviyyəsində mütəmadi keçirilən siyasi məsləhətləşmələrdə ticarət dövriyyəsinin artırılması və yüksək texnologiyalar sahəsində əməkdaşlıqla yanaşı, Azərbaycanın təşəbbüskarı olduğu Orta Dəhliz kimi qlobal layihələr Çexiya tərəfindən strateji əhəmiyyətli təşəbbüs kimi qiymətləndirilir.

Möhkəm siyasi təməl üzərində qurulan müdafiə sahəsində əməkdaşlıq da son dövrlər xüsusi mərhələyə daxil olub. Müdafiə nazirlikləri səviyyəsində aparılan danışıqlar hərbi əməkdaşlığın cari vəziyyətini və beynəlxalq təhlükəsizlik mühitində qarşılıqlı fəaliyyət imkanlarını əhatə edir. Görüşlər zamanı hərbi təhsil, kadr hazırlığı və təcrübə mübadiləsi ilə yanaşı, NATO və Avropa təhlükəsizlik strukturları çərçivəsində tərəfdaşlıq məsələləri xüsusi diqqət mərkəzində saxlanılır. Tərəflərə hər iki ölkənin müdafiə sistemləri, modernləşmə prosesləri və regional təhlükəsizlik çağırışları barədə geniş məlumat əldə etmək imkanı verən brifinqlər gələcək fəaliyyətin daha praktik olmasına xidmət edir. Xüsusilə hibrid təhdidlər və hərbi-texniki tərəfdaşlıq üzrə aparılan fikir mübadiləsi 2026-cı il üçün ikitərəfli hərbi əməkdaşlıq planının razılaşdırılması ilə nəticələnib. Bu plan əməkdaşlığın yalnız ümumi niyyət bəyanatları ilə məhdudlaşmadığını, konkret icra mexanizmləri və hədəfləri olan institusional xarakter aldığını sübut edir.

Hərbi-texniki əməkdaşlıq sahəsindəki gələcək perspektivləri Azərbaycan Prezidenti İlham Əliyev Çexiyanın Baş naziri ilə görüşdən sonra mətbuat üçün verdiyi bəyanatında açıq şəkildə ifadə edilib. Dövlət başçısı qeyd edib ki, Azərbaycan Çexiyadan müxtəlif hərbi təyinatlı məhsullar almaqla yanaşı, artıq birgə istehsalla bağlı konkret layihələr üzərində müzakirələr aparır. Azərbaycanın öz müdafiə potensialını yerli istehsal hesabına təmin etmək strategiyası bu sahədə böyük təcrübəyə malik olan Çexiya ilə müştərək fəaliyyəti daha da əhəmiyyətli edir. Bu yanaşma gələcəkdə yalnız silah-sursat tədarükü deyil, həm də birgə sənaye müəssisələrinin qurulması və texnologiyaların transferi deməkdir.

Münasibətlərin tamamlayıcı və ən səmimi tərəfini humanitar sahədəki əlaqələr təşkil edir. Mədəniyyət və turizm sahəsində imzalanan sənədlər xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır, tələbə mübadiləsi və elmi əməkdaşlıq layihələri isə intellektual körpülər qurur. Xüsusilə Praqanın nüfuzlu Karlova Universiteti və Brno şəhərindəki Mendel Universiteti ilə Azərbaycan ali təhsil müəssisələri arasındakı "Erasmus+" əlaqələri gənc nəslin bir-birini tanımasına imkan yaradır. 2025-2026-cı tədris illərində 200-ə yaxın azərbaycanlı gəncin Çexiyada təhsil alması və mütəmadi keçirilən məzun görüşləri iki ölkə arasında güclü "ictimai diplomatiya" şəbəkəsinin nümunəsidir. Bu istiqamət sübut edir ki, Azərbaycan-Çexiya tərəfdaşlığı yalnız siyasi və iqtisadi deyil, həm də möhkəm ictimai əsaslar üzərində yüksəlir.

Təhsil sahəsindəki fəallıq göstərir ki, Azərbaycan–Çexiya münasibətləri akademik auditoriyalarda və ictimai platformalarda da möhkəmlənir. Bütün bu faktlar onu təsdiq edir ki, Azərbaycan regional deyil, daha geniş coğrafiyada etibarlı tərəfdaş kimi qəbul edilir və Çexiya ilə münasibətlərin dərinləşməsi hər iki tərəfin strateji maraqlarına tam cavab verir.

Azərbaycan və Çexiya arasında iqtisadi əməkdaşlıq böyük potensiala malikdir və son illər bu istiqamətdə ciddi keyfiyyət dəyişiklikləri müşahidə olunur. Çexiya Baş nazirini müşayiət edən geniş tərkibli biznes nümayəndə heyəti iqtisadi əlaqələrin inkişafının səfərin prioritet istiqamətlərindən biri olduğunu sübut edir. Qəbələdə keçirilən biznes-forum hər iki ölkənin işgüzar dairələrini vahid platformada birləşdirərək, yeni investisiya və ticarət imkanlarının reallaşdırılması üçün əlverişli zəmin yaradır. Bu amil ikitərəfli münasibətlərin artıq yalnız siyasi müstəvidə deyil, həm də genişmiqyaslı iqtisadi tərəfdaşlıq platformasında dərinləşdiyini nümayiş etdirir.

Hazırda sənaye, maşınqayırma, tikinti, maliyyə və yüksək texnologiyalar sektorlarında əməkdaşlıq imkanları sürətlə genişlənir. Xüsusilə Bakıda və işğaldan azad edilmiş regionlarda həyata keçirilən iri infrastruktur layihələri çex şirkətləri üçün perspektivli biznes meydanı formalaşdırır.

Şübhəsiz ki, Azərbaycan və Çexiya arasında münasibətlərin müasir mənzərəsi postsovet məkanındakı dövlətlərlə Avropa İttifaqı üzvləri arasında qurulan uğurlu strateji tərəfdaşlıq modellərindən biridir. Bu əlaqələrin diqqətçəkən tərəfi onun çoxşaxəliliyidir. Tərəflər artıq ənənəvi enerji resurslarının ticarəti ilə kifayətlənmir, eyni zamanda, müdafiə sənayesi və yüksək texnologiyalar kimi strateji əhəmiyyətli sahələrdə dərin inteqrasiyaya xüsusi üstünlük verirlər. Beynəlxalq platformada siyasi əməkdaşlığa önəm verirlər.

Xüsusilə 2026-cı il hərbi əməkdaşlıq planının razılaşdırılması və Prezident İlham Əliyevin vurğuladığı birgə istehsal perspektivləri göstərir ki, Azərbaycan artıq sadəcə texnologiya idxalçısı deyil, həm də Avropanın qabaqcıl hərbi sənaye təcrübəsini yerli istehsala transformasiya edən bərabərhüquqlu tərəfdaşdır.

Beləliklə, Azərbaycan–Çexiya münasibətləri sabit inkişaf edən, çoxşaxəli və strateji əməkdaşlıqdır. Siyasi etimadın güclənməsi, iqtisadi əlaqələrin genişlənməsi, institusional mexanizmlərin fəaliyyəti və müdafiə sahəsində yeni əməkdaşlıq istiqamətləri bu münasibətlərin gələcəkdə daha da möhkəmlənəcəyini göstərir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Vilayət Eyvazov Göyçayda vətəndaş qəbulu və sıra baxışı keçirib



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov aprelin 26-da Göyçay rayonunda növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə Göyçay rayonunda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib.

Daha sonra Polis Şöbəsinin inzibati binasında Göyçay, İsmayıllı, Şamaxı, Ağdaş, Ucar, Qəbələ, Qobustan və Ağsu rayonlarından, eləcə də digər bölgələrdən qəbula gələn 226 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Qəbula gələn vətəndaşların müraciətlərinin operativ və qanunvericiliyin tələblərinə uyğun həlli, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə müvafiq tapşırıqlar verilib. Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib. Sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 230 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

***XQ***



# "Yüksəliş" müsabiqəsinin qalibləri DİM-də



**Dövlət İmtahan Mərkəzi İdarə Heyətinin sədri Məleykə Abbaszadə "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüş keçirib. Görüşdə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, "Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin sədri Fərəh Əliyeva, həmçinin gənclər və idman nazirinin müavini, "Yüksəliş" müsabiqəsinin işçi qrupunun rəhbəri Fərhad Hacıyev iştirak ediblər.**

Görüşdə qaliblərin peşəkar inkişafı, idarəetmə bacarıqlarının gücləndirilməsi və onların dövlət və özəl sektorda daha effektiv fəaliyyət imkanlarının genişləndirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

Məleykə Abbaszadənin sözlərinə görə, müsabiqə çərçivəsində tətbiq olunan mərhələlər və qiymətləndirmə mexanizmləri iştirakçıların analitik düşünmə, qərarvermə və idarəetmə bacarıqlarını obyektiv şəkildə üzə çıxarmağa imkan verir. Eyni zamanda, bu cür görüşlər qaliblərin potensialının düzgün istiqamətləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Daha sonra müsabiqənin qiymətləndirmə yanaşmaları və tətbiq olunan metodologiyalar müzakirə olunub.

Sonda qaliblər öz təcrübələrini bölüşüb, qarşılaşdıqları çətinliklər və əldə etdikləri nailiyyətlər barədə məlumat veriblər.

Xatırladaq ki, "Yüksəliş" müsabiqəsi Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli Sərəncamına əsasən təsis olunub. Müsabiqə qalibləri mentorlar tərəfindən birillik fərdi inkişaf planı və özünüinkişaf üçün 20 min manat məbləğində pul mükafatı əldə edirlər. Altıncı "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı Azərbaycan Prezidenti tərəfindən 2025-ci il dekabrın 10-da müvafiq Sərəncam imzalanıb.

***XQ***

# Almaniya Bundestaqının heyəti Göygöldə



**Ölkəmizdə səfərdə olan Almaniya Bundestaqının Cənubi Qafqaz üzrə parlamentlərarası işçi qrupunun nümayəndə heyəti Göygöl rayonunda olub.**

Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov qonaqları qəbul edib. Görüşdə Milli Məclisin deputatı, Azərbaycan – Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Nurlan Həsənov, Almaniyanın Azərbaycandakı səfiri Ralf Horlemann, Almaniya Bundestaqının deputatı və işçi qrupunun rəhbəri Edis Mirze və heyət üzvləri iştirak ediblər.

Söhbət zamanı Göygöl rayonunun tarixi-mədəni irsi, bölgənin turizm potensialı və Azərbaycan–Almaniya əlaqələrinin inkişafı barədə fikir mübadiləsi aparılıb. Bildirilib ki, belə səfərlər iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə töhfə verir.

Qonaqlar səmimi qəbula və göstərilən mehribanlığa görə təşəkkürlərini bildiriblər.

Alman parlamentarilər Göygölün tarixi məkanları, eləcə də alman koloniyası irsi ilə də tanış olublar.

***Hamlet QASIMOV,***
***XQ-nin Gəncəbasar müxbiri***

# Dünyada hamı barışa can atır, lakin çoxu buna çatmır

## *Prezident İlham Əliyev isə ölkəsini sülhə qovuşduran azsaylı liderlərdəndir*

**“Sülh və Barışıq üçün Gernika mükafatı” yalnız artıq əldə olunmuş nailiyyətlərin tanınması deyil, həm də beynəlxalq birliyin ortaq rifahı, sülh naminə atılacaq gələcək addımlar baxımından mühüm ruhlandırıcı stimul və məsuliyyətdir.**

***Azərbaycan Prezidenti İlham Əliyevin “Sülh və Barışıq üçün Gernika mükafatı”nın təqdimolunma mərasiminin iştirakçılarına məktubundan***

*Bakı, 26 aprel 2026-cı il*



Anamız Yer kürəsi İkinci Dünya müharibəsindən bəri heç zaman bu qədər münaqişə və müharibələrin əlində əsir-yesir olmamışdır. İndi artıq planetimizin hər yerində – hətta Şimal və Cənub buzlaqlarında da böyük güclərin maraqları toqquşur və aysberqlər arasından belə siyasət alovları dilim-dilim ərşə doğru uzanır. Sanki hər yer od tutub yanır. Ona görə də hamı – hətta min bir bəhanə ilə açıq və ya gizli müharibə aparan dövlətlərin əhalisi də birmənalı şəkildə sülhü dəstəkləyir, bu istiqamətdə çağırışlar edir və nəticəsi oldu-olmadı, barışa can atırlar.

Bu cümlədəki “nəticəsi oldu-olmadı” ifadəsini ona görə xüsusilə qabardırıq ki, dünyanın əksər ölkələrindəki, böyük regionlardakı milyonlarla insanın sülh arzusu, təəssüf ki, gözündə qalır. Çünki öz ölkəsində və ya regionda sülhə nail ola biləcək liderlər azdır. Doğrudur, dərin siyasi təfəkkürə, mükəmməl idarəetməyə malik liderlər az deyil. Ancaq onların reallaşdırmaq istədikləri maraqlar sülhü ikinci, ya da üçüncü dərəcəli vəzifəyə çevirir.

Azərbaycan xalqı xoşbəxtdir ki, bizim liderimiz nəinki ölkəmizdə, hətta dünyanın əsas güc mərkəzlərinin diqqət mərkəzində olan Cənubi Qafqaz regionunda sülhə nail olmaqla “Ən yeni tarix”in ən mükəmməl səhifələrini yazıb. Məhz həmin fakta görə dövlət başçımız bu ilin əvvəlində “Zayed İnsan Qardaşlığı Mükafatı” na layiq görüldü. Xatırladaq ki, həmin mükafatın yaradılması tarixi bir hadisə ilə bağlıdır. 2019-cu il fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə Katolik Kilsəsinin rəhbəri Papa Fransisk və Əl-Əzhərin Böyük İmamı Əhməd əl-Təyyib görüşərək dünya sülhü və birgəyaşayış naminə “İnsan Qardaşlığı Sənədi”ni imzalamışlar. Məqsədi dünyada sülh, dözümlülük və insan qardaşlığı dəyərlərini təşviq edən şəxsləri və ya qurumları layiqincə qiymətləndirmək olan həmin mükafatla təltif olunanlardan biri məhz Cənubi Qafqaza sülhün gətirilməsinə nail olmuş Azərbaycan Prezidentidir. Yəni həmin mükafat İlham Əliyevin siyasi fəaliyyətinə Yaxın Şərqdə verilən qiymət idi.

Əbu-Dabidəki mükafatlandırmadan cəmi iki ay yarım sonra isə Azərbaycan Prezidentinin ünvanına daha bir mühüm regiondan – Avropadan təxminən eyni mahiyyət kəsb edən mükafat xəbəri gəldi. Maraqlıdır ki, bu mükafat da məhz tarixi bir fakta istinadən təsis edilmişdir və dünyanın konkret regionunda sülhə nail olmuş şəxslərə təqdim edilir.

Söhbət İspaniyadakı Gernika-Lumo və Pforshaym şəhər şuralarının, Gernika Sülh Muzeyinin, Mədəniyyət evinin və “Gernika Qoqoratuz” Sülh Araşdırmaları Mərkəzinin təsis etdiyi “Sülh və Barışıq üçün Gernika mükafatı”ndan gedir. “Gernika Qoqoratuz” mərkəzinin elektron resurslarında qeyd edilir ki, bu qurum 1987-ci ildə Gernikanın bombalanmasının 50-ci ildönümü ilə bağlı keçirilən tədbirlər çərçivəsində yaradılıb. Əsas fəaliyyəti sülh dəyərlərinin yaşadılması, barış mədəniyyəti sahəsində işlərin həyata keçirilməsidir.

Bildirilir ki, adıçəkilən mərkəz “Gernika Qoqoratuz” Fondu tərəfindən dəstəklənir. Fondun məqsədi “elmi düşüncə ilə yaradılan və ya dəstəklənən, şəhər və ya Gernika simvolu ilə əlaqəli töhfələrlə qlobal miqyasda və xüsusən də Bask ölkəsində azadlıq və ədalətli sülhün əldə edilməsinə töhfə verməkdir. Bu yolla da 1987-ci il aprelin 10-da Bask Parlamenti tərəfindən təsdiq edilmiş Gernikada Sülh Araşdırmaları Mərkəzinin yaradılması ilə bağlı Qeyri-Qanunvericilik Təklifi” yerinə yetirilir.

Bildirilir ki, mərkəzdə yüksək səviyyədə ixtisaslaşmış elmi kitabxana var. 7470-dən çox qeyddən ibarət sənədli kolleksiyaya və 6520 kitabdan ibarət fonda malik “Gernika Qoqoratuz” kitabxanasında onlayn xidmət və biblioqrafik axtarışlara çıxış təmin etmək üçün xüsusi veb formatı yaradılmışdır.

Bu zaman bir faktı, daha doğrusu, tarixi paraleli yada salmaq zərurəti var. Qeyd etdiyimiz kimi, adıçəkilən mükafat 1987-ci ildə təsis edilib. Ermənistanın separatçılarının Azərbaycan ərazilərini işğal etmək üçün həyata keçirməyə başladığı qanlı faciələrlə dolu ilk addımlar da məhz 1987-ci ildə atılıb. Prezident İlham Əliyev regionda sülhə nail olmaq üçün məhz həmin tarixdən – 1987-ci ildən 2020-ci ilin payızınadək davam etmiş separatçılığa, terror, soyqırımı, təxribat və nəhayət, ərazilərimizin 20 faizinin işğalına son qoymalı olmuşdur.

Dövlət başçımız həmin məqsədə məhz dünya ictimaiyyətinin gözlədiyi, arzuladığı şəkildə nail oldu. Bu gün İrəvan Bakının uzatdığı sülh əlini sıxmağın astanasındadır. Ancaq astanada olmayan – müəyyən edilmiş məqsədlərə çatan addımlar da az deyil. Məsələn, uzun onillər boyu “Biz mühasirədəyik!” – deyə bağıran, əslində, özünü bütün regional layihələrdən kənarlaşdıran Ermənistan rəhbərliyi bu gün Bakıdan gələn yük qatarlarını böyük məmnuniyyətlə qəbul edir və daha geniş əməkdaşlığa ümid etdiyini gizlətmir. Bu gün həmin ölkədə “İlham Əliyev Qafqaza sülh gətirdi” və ya “Azərbaycan Prezidenti Ermənistan Respublikasının gələcəyinə zəmin yaratdı” kimi tezislər məhz siyasətçilərin dilindən səsləndirilir.

Bütün bunları nəzərə alan dövlət başçımız “Sülh və Barışıq üçün Gernika mükafatı”nın təqdimolunma mərasiminin iştirakçılarına ünvanladığı məktubunda qeyd edir ki, Azərbaycan ilə Ermənistan arasında sülhün əldə olunması və dialoqun təşviqi istiqamətində göstərdiyim səylərə görə “Sülh və Barışıq üçün Gernika mükafatı”na layiq görülməyim ilə əlaqədar Gernika-Lumo və Pforshaym şəhər şuralarına, Gernika Sülh Muzeyinə, Mədəniyyət evinə və “Gernika Qoqoratuz” Sülh Araşdırmaları Mərkəzinə dərin minnətdarlığımı ifadə edirəm.

Cənab Prezident Ermənistanın xalqımıza və dövlətimizə qarşı törətdiyi müharibə cinayətləri ilə bağlı çıxışlarında deyir ki, biz həmin faciə və soyqırımlarını heç zaman unutmayacağıq. Dövlət başçımız həmin prinsipial mövqeyini Gernika faciəsi barədə danışarkən də nümayiş etdirir: “Bu mükafatın 26 aprel – Gernika qurbanlarının anım günündə təqdim olunması xüsusi rəmzi məna daşıyır. 89 il əvvəl Gernikada dinc əhaliyə qarşı törədilmiş amansız cinayət ötən əsrin ən dəhşətli və qanlı səhifələrdən biridir. Hesab edirəm ki, dinc insanlara qarşı istənilən cinayət bütövlükdə bəşəriyyətə və insanlığa qarşı yönəlir. Gernika şəhərinin bu ağrı-acısını bölüşür, qurbanların əziz xatirəsini dərin ehtiramla yad edirəm”.

Prezident xatırladır ki, Azərbaycan bu gün yeni reallığa və sülh mühitində yaşamağa uyğunlaşır. Ümumi müsbət atmosfer, sabitliyə və təhlükəsizliyə daha çox inam bizi irəliləməyə və inkişaf gündəliyimizə daha çox vaxt və resurs ayırmağa imkan verir: “Biz, eyni zamanda, sülhü möhkəmləndirmək və onu əməli fəaliyyətə çevirmək üçün addımlar atırıq və artıq hər iki cəmiyyətimiz sülhün iqtisadi, ticari və digər sahələrdə real faydalarının şahidi olur. Bu gün artıq Azərbaycanın neft məhsulları, üçüncü ölkələrdən taxıl və digər məhsullar ölkəmizin ərazisindən keçməklə Ermənistana ixrac edilir”.

Ekspertlərin fikrincə, “Sülh və Barışıq üçün Gernika mükafatı” Prezident İlham Əliyevin sülhə xidmətlərinin beynəlxalq səviyyədə qiymətləndirilməsidir.

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# Suverenlik diplomatiyasından vasitəçilik platformasına



**Aprelin 25-də Qəbələdə Azərbaycan Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Volodimir Zelenskinin mətbuata bəyanatları geniş geosiyasi kontekstdə formalaşan yeni diplomatik imkanları ortaya qoydu. Görüşün analitik çəkisi xüsusilə üç əsas istiqamətdə cəmlənir: ərazi bütövlüyü və suverenlik prinsipinin normativ baza kimi təsdiqi, qarşılıqlı siyasi dəstəyin institusionallaşması və Azərbaycanın potensial vasitəçi platforma kimi önə çıxması.**

Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan–Ukrayna münasibətlərinin əsasında dayanan əsas sütun 2008-ci ildə Kiyevdə və 2011-ci ildə Bakıda imzalanmış strateji tərəfdaşlıq sənədləridir. Bu sənədlərin əhəmiyyəti onların postsovet məkanında formalaşan yeni siyasi-hüquqi identikliyin institusionallaşmasından ibarətdir. Burada diqqətçəkən əsas məqam qarşılıqlı tanınmanın, sadəcə, deklarativ xarakter daşımamasıdır. Strateji tərəfdaşlıq sənədlərində ərazi bütövlüyü, suverenlik və sərhədlərin toxunulmazlığı prinsiplərinin açıq şəkildə qeyd olunması bu anlayışların ikitərəfli münasibətlərin “siyasi şərti”nə çevrildiyini göstərir. Yəni Bakı və Kiyev üçün əməkdaşlığın legitimlik bazası məhz beynəlxalq hüququn fundamental prinsiplərinə sadiqlik üzərində qurulur.

Eyni zamanda, bu sənədlər postsovet coğrafiyasında tez-tez müşahidə olunan “seçici legitimlik” yanaşmasına alternativ model təqdim edir. Başqa sözlə, bəzi hallarda dövlətlər beynəlxalq hüququn prinsiplərini situativ şəkildə şərh etdiyi halda, Azərbaycan və Ukrayna bu prinsipləri qarşılıqlı və universal şəkildə tətbiq etməyə çalışdıqlarını nümayiş etdirirlər.

Analitik baxımdan bu münasibətlər “normativ həmrəylik” modeli kimi qiymətləndirilə bilər. Belə yanaşma xüsusilə münaqişə və təhlükəsizlik risklərinin yüksək olduğu mühitdə əlavə strateji dəyər yaradır. Çünki prinsiplər üzərində qurulan əməkdaşlıq qısamüddətli siyasi dəyişikliklərdən daha az asılı olur və uzunmüddətli sabitlik üçün etibarlı zəmin yaradır.

***

Ukrayna Prezident Volodimir Zelenskinin bəyanatında bu xəttin davamı dərin siyasi məntiqin ifadəsi kimi ortaya çıxır. Onun Azərbaycanın ərazi bütövlüyünə göstərdiyi dəstəyi xüsusi vurğulaması və eyni yanaşmanın Ukraynaya münasibətdə də mövcud olduğunu qeyd etməsi, əslində, qarşılıqlı legitimlik mübadiləsinin sistemli xarakter aldığını göstərir. Beynəlxalq münasibətlərdə bu yanaşma “qarşılıqlı tanınma və dəstək” mexanizmi kimi xarakterizə olunur. Mexanizmin mahiyyəti ondan ibarətdir ki, dövlətlər öz suverenlik və ərazi bütövlüyü ilə bağlı mövqelərinin legitimliyini gücləndirmək üçün oxşar problemlərlə üzləşən tərəfdaşlarla koordinasiyalı şəkildə çıxış edirlər.

Digər tərəfdən, Zelenskinin bu mesajı daha geniş auditoriyaya ünvanlanmış siyasi siqnaldır. O, bir tərəfdən Azərbaycanın mövqeyinə verilən dəyəri nümayiş etdirir, digər tərəfdən beynəlxalq ictimaiyyətə Ukraynanın tək olmadığını, onun mövqeyinin digər suveren dövlətlər tərəfindən dəstəkləndiyini çatdırır.

***

Görüşün ən diqqətçəkən və geosiyasi baxımdan həssas elementi Zelenskinin Kiyev–Moskva danışıqlarının Bakıda keçirilməsi ilə bağlı istəyi oldu. Müasir münaqişələrdə danışıqların harada keçirildiyi, ən azı, onların məzmunu qədər əhəmiyyət daşıyır və məkan seçimi tərəflərin psixoloji, siyasi və strateji komfort zonasını müəyyən edir.

Təklifin arxasında dayanan birinci mühüm amil Azərbaycanın son illər həyata keçirdiyi balanslaşdırılmış və çoxtərəfli xarici siyasət kursudur. Bakı nə Qərb blokuna tam inteqrasiya olunmuş, nə də alternativ güc mərkəzlərinə birtərəfli şəkildə bağlanmış aktor kimi çıxış edir. Azərbaycan müxtəlif güc mərkəzləri arasında funksional əlaqələr qura bilən, praqmatik və çevik diplomatiya modeli formalaşdırıb. Bakı üçün əsas prioritet hansısa güc mərkəzinə normativ və ya ideoloji bağlılıq deyil, milli maraqların maksimum dərəcədə təmin olunmasıdır. Digər tərəfdən, çoxvektorlu siyasət kursu Azərbaycanın strateji muxtariyyətini də gücləndirir. İkinci amil Azərbaycanın 44 günlük müharibədən sonra irəli sürdüyü “sülh gündəliyi” ilə bağlıdır. Bakı postmünaqişə dövründə yalnız öz milli maraqlarını təmin etməklə kifayətlənməyərək regionda kommunikasiyaların açılması, iqtisadi inteqrasiya və uzunmüddətli sabitlik kimi daha geniş məqsədləri gündəmə gətirdi. Mövcud yanaşmanın praktik təzahürlərini konkret nümunələr üzərindən daha aydın görmək mümkündür. İlk növbədə, regionda nəqliyyat-kommunikasiya xətlərinin açılması təşəbbüsü xüsusi əhəmiyyət daşıyır. Orta Dəhlizin (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) inkişafı və Zəngəzur istiqamətində alternativ bağlantıların müzakirəsi regionun geoiqtisadi xəritəsini yenidən formalaşdırmaq potensialına malikdir. Həmin layihələr Şərq–Qərb ticarətinin intensivləşməsinə xidmət etməklə yanaşı, region ölkələrini bir-birinə daha sıx bağlayan qarşılıqlı asılılıq mühiti yaradır. Digər mühüm nümunə isə enerji sahəsində əməkdaşlıq formatlarının genişlənməsidir. Azərbaycan son illər aktiv şəkildə enerji təhlükəsizliyinin təminatçısı kimi çıxış edir. Xüsusilə Avropaya qaz nəqlinin artırılması və alternativ enerji layihələrinin inkişafı Azərbaycanın regional və qlobal enerji arxitekturasında rolunu gücləndirir.



Üçüncü vacib amil isə Bakının artıq formalaşmış diplomatik platforma təcrübəsidir. Azərbaycan müxtəlif beynəlxalq forumlara, çoxtərəfli görüşlərə və yüksək səviyyəli danışıqlara ev sahibliyi etməklə “təhlükəsiz və funksional dialoq məkanı” imici qazanıb. Məhz bu etimad kapitalı Zelenskinin Bakını potensial danışıqlar məkanı kimi irəli sürməsini izah edən əsas amillərdən biridir.

***

Bununla belə, burada bir reallığı nəzərdən qaçırmaq olmaz: belə bir təşəbbüsün reallaşması həm də tərəflərin – xüsusilə Rusiyanın – siyasi iradəsindən asılıdır. Yəni Bakı platforma təqdim edə bilər, lakin danışıqların baş tutub-tutmaması böyük ölçüdə münaqişə tərəflərinin strateji hesablamaları ilə müəyyən olunur. Mövcud transformasiyanı avtomatik və ya birtərəfli proses kimi təqdim etmək doğru olmaz. Vasitəçilik statusu tərəflərin həmin platformanı qəbul etməsi ilə legitimlik qazanır. Məhz bu baxımdan, Zelenskinin “əgər Rusiya tərəfi də bu diplomatiyanı seçərsə” ifadəsi məsələnin mahiyyətini dəqiq əks etdirir. Yəni burada əsas məsələ Moskvanın belə bir platformanı nə dərəcədə uyğun və ya məqsədəuyğun hesab etməsidir. Bunlar isə artıq geosiyasi hesablamalar, təhlükəsizlik narahatlıqları və danışıqların mümkün nəticələri ilə bağlı daha mürəkkəb qərarvermə prosesinə bağlıdır.

Analitik prizma ilə yanaşdıqda, bu vəziyyəti “neytral platforma diplomatiyası” çərçivəsində izah etmək daha məqsədəuyğundur. Müasir beynəlxalq münasibətlərdə bu tip platformalar xüsusilə yüksək gərginlik fonunda birbaşa təmas kanallarının məhdudlaşdığı hallarda aktuallaşır. Belə məkanlar tərəflərə həm simvolik, həm də praktiki üstünlüklər təqdim edir: simvolik olaraq neytrallıq və balans mesajı verir, praktiki olaraq isə, daha az siyasi təzyiq altında dialoq aparmaq imkanı yaradır.

Azərbaycanın bu kontekstdə önə çıxmasının səbəbi onun xarici siyasətində ideoloji qütbləşmədən uzaq durması, praqmatik, nəticəyönümlü xətti qorumasıdır. Eyni zamanda, nəzərə almaq lazımdır ki, neytral platforma statusu dinamik və həssas kateqoriyadır. Rəsmi Bakı bu statusu qorumaq üçün tərəflərin etimadını davamlı şəkildə təmin etməlidir. Azərbaycanın qarşısında duran əsas çağırış məhz bu etimadın qorunması və mümkün vasitəçilik rolunun geosiyasi risklərə çevrilməsinin qarşısının alınmasıdır.

Son olaraq qeyd edək ki, Qəbələ görüşü bir daha göstərdi ki, Azərbaycan–Ukrayna münasibətləri beynəlxalq hüququn əsas prinsiplərinin – suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı – müdafiəsi üzərində qurulan daha geniş siyasi platformaya çevrilməkdədir. Eyni zamanda, Bakının potensial vasitəçilik məkanı kimi irəli çıxması Azərbaycanın regional aktordan qlobal diplomatik oyunçuya doğru transformasiyasının mühüm indikatoru kimi qiymətləndirilə bilər.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Milli Məclis MSK-nın yeni tərkibini formalaşdırdı



**Dünən Milli Məclisin növbəti plenar iclası keçirildi. İlk olaraq çıxış edən sədr Sahibə Qafarova Mərkəzi Seçki Komissiyasının (MSK) yeni tərkibinin formalaşdırılması barədə qərar layihəsi barədə məlumat verdi. Spiker qeyd etdi ki, qurumun səlahiyyət müddəti başa çatdığı üçün Seçki Məcəlləsinə uyğun olaraq 18 üzv və 3 əvəzedici üzvdən ibarət yeni namizədlərin siyahısı müəyyən edilib.**

Qanunvericiliyə əsasən, MSK-nın 21 nəfərlik ümumi tərkibi üç bərabər hissəyə bölünərək hər qrup üzrə 6 üzv və 1 əvəzedici üzv olmaqla parlament çoxluğu (YAP), müstəqil deputatlar və azlıqda olan 10 siyasi partiya arasında bölüşdürülüb. Sahibə Qafarova xüsusi olaraq vurğuladı ki, müstəqil deputatların təqdim etdiyi namizədlərdən biri parlament çoxluğu, digəri isə azlıqdakı partiyalarla razılaşdırılıb və bununla da bütün hüquqi prosedurlar tam icra olunub. Milli Məclis Sədrinin çıxışından sonra qərar layihəsi səsverməyə qoyularaq qəbul edildi.

Spiker, həmçinin Prezident İlham Əliyevi Azərbaycanla Ermənistan arasında sülhün əldə olunması və dialoqun təşviqi istiqamətində göstərdiyi səylərə görə "Sülh və Barışıq üçün Gernika mükafatı"na layiq görülməsi münasibətilə təbrik etdi, dövlət başçısına sülh və qarşılıqlı anlaşma naminə yorulmaz fəaliyyətində davamlı uğurlar arzuladı.

Daha sonra gündəlikdəki digər məsələlərin müzakirəsinə keçildi. "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun on üçüncü sessiyası ilə əlaqədar təşkilati tədbirlər və maliyyə məsələləri barədə əlavə Saziş"in təsdiq edilməsi haqqında qanun layihəsi müzakirəyə çıxarıldı. Bildirildi ki, sazişin imzalanmasında məqsəd Ümumdünya Şəhərsalma Forumunun on üçüncü sessiyası (WUF13) ilə əlaqədar təşkilati tədbirləri və maliyyə məsələlərini nizama salmaqdır. Sazişdə tədbirin keçirilmə yeri kimi Bakı Olimpiya Stadionu, tarixi isə 17-22 may 2026-cı il olaraq müəyyənləşdirildi. Layihə bir oxunuşda qəbul edildi. Parlament, həmçinin Azərbaycanla İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Təmiz Enerji Mərkəzi arasında Ev Sahibi Ölkə və Azərbaycanla Efiopiya arasında müdafiə sahəsində əməkdaşlıq sazişlərini də ratifikasiya etdi. Hər iki qanun layihəsi səsverməyə qoyularaq birinci oxunuşdan keçdi.

***

Əmək Məcəlləsində və "Narkoloji xidmət və nəzarət haqqında" qanuna dəyişiklik edilməsi barədə yeni qanun layihəsinə əsasən, fəaliyyət məhdudiyyəti tətbiq edilən sahələrdə işə qəbul zamanı dövlət narkoloji tibb müəssisəsinin rəyi mütləq tələb olunacaq və bu sənəd olmadan işə qəbul qadağan ediləcək. Tibbi müayinə nəticəsində işçinin narkoloji xəstə olduğu və ya müvafiq icazəsi olmadan həmin vəzifələrdə çalışdığı aşkarlandıqda əmək müqaviləsinə xitam veriləcək. Həmçinin ağır, zərərli, təhlükəli iş şəraiti, eləcə də qida, səhiyyə və ticarət kimi sahələrdə tibbi arayışı olmayan şəxslərlə bağlanmış müqavilələrin ləğv edilməsi üçün hüquqi əsas yaradılıb. Qanun layihəsi parlamentdə üçüncü oxunuşda qəbul edildi.

Digər qanun layihəsinə əsasən, ölkədə terror təşkilatı yaradanlar 14 ilədək həbs ediləcək. Cinayət Məcəlləsində və "Terrorçuluğa qarşı mübarizə haqqında" Qanunda dəyişikliklər barədə layihəyə əlavə olunan 214-4-cü maddəyə əsasən, terror təşkilatı yaratma, yaxud həmin təşkilata və ya onun struktur bölməsinə rəhbərlik etmə 10 ildən 14 ilədək azadlıqdan məhrum etmə ilə, terror təşkilatına üzv olma və ya onun fəaliyyətində iştirak isə 7 ildən 12 ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılacaq. Qanun layihəsi səsvermədən sonra üçüncü oxunuşda qəbul edildi. Müvafiq oxunuşa təqdim edilən Vergi Məcəlləsində, "Təhsil haqqında" və "Minatəmizləmə fəaliyyəti haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi də qəbul edildi. Bu layihəyə əsasən, minatəmizləmə fəaliyyəti həyata keçirən zaman həlak olmuş minatəmizləyənlərin övladlarının təhsilhaqqı dövlət büdcəsinin vəsaiti hesabına ödəniləcək.

Daha sonra birinci oxunuş üçün "Maliyyə icarəsi haqqında" qanun layihəsi barədə məlumat verildi. Layihə ölkədə lizinq fəaliyyətinin hüquqi əsaslarını və bu sahədə tənzimləmə mexanizmlərini müəyyən edir. Dərc olunduğu gündən 6 ay sonra qüvvəyə minəcək qanun layihəsinə əsasən, lizinq fəaliyyəti ilə məşğul olan şəxslər 9 ay ərzində öz işlərini yeni tələblərə uyğunlaşdırmalı və Azərbaycan Mərkəzi Bankının reyestrinə daxil olmalıdırlar. Bu müddət ərzində qanunun tələblərinə əməl etməyənlərin yeni müqavilələr bağlaması və ya mövcud müqavilələrin müddətini uzatması qadağan ediləcək, həmçinin həmin şəxslər firma adlarından "lizinq" və "maliyyə icarəsi" kimi ifadələri çıxarmalı olacaqlar. Qanun layihəsində "vətəndaş qüsursuzluğu" və "mühüm iştirak payı" kimi mühüm anlayışlar da öz əksini tapıb və qaydaları pozanlar üçün məsuliyyət nəzərdə tutulub.

Layihə ilə bağlı çıxış edən **deputat Vüqar Bayramov** bildirdi ki, Azərbaycanda lizinq şərtləri o qədər də cəlbedici deyil. Onun sözlərinə görə, ölkədə lizinq üzrə faktiki illik faiz dərəcəsi 14 faizdən başlayır, halbuki nağd kreditlər üzrə bu göstərici təxminən 11 faizdir. Bundan əlavə, lizinq zamanı ilkin ödəniş tələbi də tətbiq olunur: "Üstəlik, burada ilkin ödəniş də var. O baxımdan güman olunur ki, yeni qanun bütövlükdə bu istiqamətdə təklif edilən faizlərə təsir göstərəcək ki, bu da lizinqə əlçatanlılığı yüksəldəcək". V.Bayramov, həmçinin beynəlxalq təcrübəyə istinad edərək diqqətə çatdırdı ki, Avropa İttifaqı ölkələrində lizinq faizləri (təqribən 2 faiz) biznes və istehlak kreditlərindən xeyli aşağıdır, Qazaxıstanda isə lizinq faizləri kredit faizlərinə nisbətən daha sərfəli şərtlərlə təklif edilir. Bu baxımdan, yeni qanunun Azərbaycanda lizinq faizlərini kredit faizlərinə nisbətən daha münasib səviyyəyə gətirəcəyi və həm kənd təsərrüfatı, həm də avtomobil bazarında bu mexanizmin iqtisadi səmərəliliyini yüksəldəcəyi gözlənilir".

**Deputat Vasif Qafarov** qanun layihəsinin müzakirəsi zamanı istehlakçıların hüquqi müdafiəsinin gücləndirilməsi və informasiya asimmetriyasına qarşı xüsusi normaların əlavə edilməsi zərurətini vurğuladı. O, məhkəmə yükünü azaltmaq və operativliyi təmin etmək üçün mediasiya və arbitraj kimi alternativ həll mexanizmlərinin qanunda ayrıca təsbit olunmasını, eləcə də fors-major və sığorta risklərinin daha konkret tənzimlənməsini təklif etdi: "Çünki bu, tərəflər arasında hüquqi qeyri-müəyyənliyi aradan qaldıraraq müqavilə münasibətlərinin sabitliyini təmin edəcək. Layihənin 13-cü maddəsi ümumi çərçivə təqdim etsə də, hesab edirəm ki, əlavə konkretləşdirməyə də ehtiyac var". Deputat, həmçinin kiçik və orta sahibkarlığın maliyyə resurslarına çıxışını asanlaşdırmaq üçün stimullaşdırıcı mexanizmlərin yaradılmasını, sektorun şəffaflığı üçün isə nəzarət və hesabatlılıq sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasını vacib hesab etdiyini dedi.

Aparılan müzakirələrdən sonra layihə səsverməyə qoyularaq birinci oxunuşda qəbul edildi. Daha bir neçə qanun layihəsinin müzakirəsindən sonra Milli Məclisin plenar iclası başa çatdı.

***Tacir SADIQOV***
***XQ***

# Transatlantik çatlar dərinləşir

## *NATO-nu daha hansı sınaqlar gözləyir?*



**Şimali Atlantika Alyansı (NATO) uzun illər Qərb təhlükəsizlik arxitekturasının dayağı, geosiyasi sabitliyin əsas sütunu və transatlantik həmrəyliyin institusional simvolu kimi fəaliyyət göstərirdi. 1949-cu ildə qurulan sistem soyuq müharibənin sərt şərtlərində kollektiv müdafiə mexanizmi kimi formalaşsa da, zamanla özünü daha geniş təhlükəsizlik spektrinə uyğunlaşdırmağı bacarmışdı. Balkanlardan Əfqanıstana, terrorizmlə mübarizədən kibertəhlükəsizliyə qədər müxtəlif sınaqlardan keçən alyans çevik adaptasiya modeli kimi təqdim olunurdu. Lakin bu gün alyans siyasi və strateji çatlarla üz-üzədir. Böhranın səbəbi isə etimad problemidir.**

ABŞ-ın NATO yanında keçmiş səfiri Ivo Daalder "Politico"da dərc olunan məqaləsində "NATO xilas edilə bilərmi?" sualını yenidən gündəmə gətirib. O, həmçinin qeyd edib: "Mənim fikrimcə, bəli. Amma son 77 ildə tanıdığımız eyni NATO yox. ABŞ-dan gələn tənqid dalğasından sağ çıxmaq üçün tamamilə fərqli bir alyans formalaşmalıdır və bu, gecikmədən baş verməlidir". Sözsüz ki, sualın yenidən aktuallaşması, ilk növbədə, Vaşinqtonun özündən qaynaqlanır. ABŞ Prezidenti Donald Trampın alyansa yönələn tənqidləri, müttəfiqləri "yük" kimi təqdim etməsi, kollektiv müdafiə prinsipini açıq və ya dolayı formada sorğulaması NATO-nun strateji gələcəyi barədə narahatlıqları artırıb. Problemlərin mərkəzində duran əsas məsələ məhz ABŞ-ın təhlükəsizlik təminatının əvvəlki kimi dəyişməz qəbul edilməməsidir. Alyansın bütün arxitekturası uzun illər Amerikanın hərbi gücü, nüvə çəkindirməsi, logistik üstünlüyü və siyasi liderliyi üzərində qurulub. Daha dəqiq desək, Avropa təhlükəsizliyi böyük ölçüdə Vaşinqtonun iradəsinə bağlanıb. Lakin son illər bu modelin davamlılığı şübhə altına düşüb. Problemi, sadəcə, Trampın ritorikası ilə əlaqələndirmək düzgün olmaz. ABŞ daxilində artan izolyasionist meyillər, siyasi qütbləşmə, resursların Hind-Sakit okean regionuna yönəlməsi və Çinin əsas strateji rəqib kimi önə çıxması Avropanın ABŞ üçün prioritet statusunu dəyişdirib.

Alyansın kollektiv müdafiə sistemi, sadəcə, hüquqi sənədlərdə qeyd olunduğu qədər siyasi inama söykənir. Əgər üzvlərdən biri hücum halında digərinin müdafiəsinə gəlib-gəlməyəcəyindən əmin deyilsə, 5-ci maddənin çəkindirici gücü zəifləyir. Zəiflik müttəfiqlərin özləri üçün də strateji qeyri-müəyyənlik yaradır. Alyans daxilində yük bölgüsü problemi də həllini tapmayıb. ABŞ uzun illər Avropa müttəfiqlərini kifayət qədər müdafiə xərcləri ayırmamaqda ittiham edib. Bundan sonra Avropa ölkələri hərbi büdcələri artırmağa başlayıb. Lakin struktur asılılıq hələ də müşahidə edilir. Çünki təkcə müdafiə xərclərinin artması ilə ordu avtomatik güclənmir. Komanda inteqrasiyası, sursat ehtiyatları, sənaye istehsalı, hərbi mobillik, hava hücumundan müdafiə sistemləri və operativ uyğunluq kimi məsələlərin həlli vacibdir. Fəqət biz görürük ki, bu gün NATO daxilində maliyyə artımı real hərbi transformasiya sürəti ilə eyni tempdə getmir.

Konsensus prinsipi də gündəmdədir. NATO-nun qərarları birgə razılıq tələb etdiyindən hər bir üzv faktiki veto imkanına malikdir. Bu mexanizm bərabərlik yaratsa da, böhran anlarında operativliyi azaldır. Xüsusilə müxtəlif siyasi gündəmlərə malik üzvlər olduqda alyansın qərar qəbul etməsi ləngiyir. Müasir təhlükəsizlik mühitində isə sürət ən az resurs qədər əhəmiyyətlidir. NATO-nun institusional problemləri sırasında texnoloji transformasiya ilə bağlı geriləmələr də var. Məlum olduğu kimi, artıq müharibələrin xarakteri dəyişir. Süni intellekt, pilotsuz sistemlər, elektron müharibə, kiberhücumlar, kosmik infrastrukturlar klassik tank-diviziya məntiqindən xeyli fərqlənir. Alyans dəyişiklikləri nəzərə almağa çalışsa da, innovasiyanın institusionallaşması ləng gedir. Xüsusilə müdafiə sənayesinin parçalanmış Avropa modeli və standartlaşdırma çatışmazlığı prosesi çətinləşdirir.

Bütün bunlarla yanaşı, NATO-nun siyasi yanaşması da yenilənməlidir. Soyuq müharibə sonrası dövrdə Alyansın legitimliyi çox vaxt təhlükələrlə izah olunurdu. İndi isə NATO nəyi qoruduğunu dəqiqləşdirməlidir. Demokratik təhlükəsizlik məkanı, strateji sabitlik, texnoloji və iqtisadi dayanıqlılıq bu narrativin yeni elementləri ola bilər. Hazırkı böhran transformasiya imkanı yaradır. NATO bir neçə dəfə "beyin ölümü", funksional köhnəlmə və strateji yorğunluq ittihamları ilə üzləşib, lakin vəziyyətə adaptasiya olub. İndiki sınaq fərqlidir, çünki bu dəfə təzyiq əsasən daxildən gəlir. Ona görə cavab da struktur səviyyəsində olmalıdır. Elə bu məqamda, deyə bilərik ki, Trampın ritorikası alyansın problemlərini daha görünən edib.

Məsələ ilə bağlı xarici ekspertlərin fikirləri də xüsusi əhəmiyyət kəsb edir. **Amerikalı beynəlxalq ekspert, strateji planlaşdırma və transatlantik təhlükəsizlik üzrə tanınmış tədqiqatçı Rebeka Lissner** NATO-nun böhranını sırf hərbi göstəricilərlə izah etməyin yanlış olduğunu vurğulayır. Onun fikrincə, alyansın qarşısındakı əsas sınaq strateji koordinasiya və müttəfiqlər arasında ortaq təhlükə qavrayışının qorunmasıdır: "Alyansın zəif nöqtəsi hərbi potensial çatışmazlığından çox, üzv ölkələrin təhdidləri fərqli qəbul etməsidir. ABŞ üçün prioritetin getdikcə Çin və Hind-Sakit okean məkanına yönəlməsi, Avropa üçün isə əsas təhlükənin hələ də Rusiya olaraq qalması strateji fokus fərqi yaradır. Məhz bu fərqlər uzunmüddətli perspektivdə alyans daxilində siyasi uyğunsuzluq doğurur. NATO-nun gələcəyi üzvlərin təhlükə qavrayışlarını da uyğunlaşdıra bilməsindən asılı olacaq. Nəzərə alınmalıdır ki, kollektiv müdafiə təkcə 5-ci maddənin hüquqi öhdəliyi ilə işləmir, onun əsas dayağı qarşılıqlı siyasi inamdır. Əgər müttəfiqlər bir-birinin öhdəliklərinə şübhə ilə yanaşmağa başlayırsa, çəkindirmə mexanizmi zəifləyir".

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

ABŞ və NATO arasında yaranan müəyyən çatlar və fərqli baxışlar, xüsusilə İran müharibəsi fonunda daha qabarıq şəkildə üzə çıxır. Əslində, Vaşinqton haqlı olaraq hesab edir ki, Avropa dövlətləri və NATO üzvləri Hörmüz boğazı ilə bağlı məsələlərdə ABŞ-a daha yaxından dəstək verməlidirlər. Çünki neft daşımalarının əsas istifadəçiləri məhz onlardır, ABŞ deyil. Eyni zamanda, mümkün blokadadan ən çox zərər çəkəcək tərəf də məhz həmin dövlətlər, yəni NATO üzvləridir.

Təbii ki, Trampın bu bəyanatları və yanaşması NATO daxilində müəyyən təzyiq formalaşdırır və alyansı öz hərbi-siyasi konsepsiyasına yenidən baxmağa sövq edir. Bu kontekstdə həm NATO-nun yenilənməsi, həm də ABŞ-NATO münasibətlərinin daha da möhkəmləndirilməsi məsələsi diqqət mərkəzində olmalıdır.

Əslində, NATO ABŞ olmadan güclü siyasi-hərbi blok kimi fəaliyyət göstərə bilməz. Çünki burada əsas oyunçu ABŞ-dır, onun hərbi gücü, siyasi çəkisi və strateji potensialı alyansın əsas dayağıdır. Yaxın Şərqdəki gərginlik fonunda tərəflər bu reallığı yenidən müzakirə etməli, ortaya çıxan çağırışlarla bağlı konkret qərarlar verməlidirlər. Əks halda, NATO hərbi-siyasi blok kimi tədricən zəifləyən bir quruma çevrilə bilər.



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

## "Amnesty International"da yeni qərəz mövsümü

**"Amnesty International" keçən həftə açıqladığı "Dünyada insan haqlarının vəziyyəti" adlı illik hesabatında Azərbaycana da yer ayırıb. Bu dəfə də "prinsipini" pozmayıb, ölkəmizə qarşı əsassız ittihamlar irəli sürüb. Təşkilatın hesabatında təkcə 2 istiqamətə nəzər salmaq kifayətdir ki, onların "İnsan haqları" adı altında hansı ideyalarla çıxış etdiklərini anlamaq mümkün olsun.**

Məsələn, sənəddə qeyd olunur ki, "hesabat ilində Azərbaycanda LGBT fəalları diskriminasiya, zorakılıq və dövlət təqibləri ilə üzləşməkdə davam ediblər". Beləliklə, "Amnesty International" təmsilçiləri "insan haqları" adı altında cinsi azlığın nümayəndələrinin hüquqlarını ön plana çəkiblər. Yaxud digər bir misal: hesabatın "Qarabağ münaqişəsi və hüquqlar" bölümündə bildirilir ki, "Qarabağ münaqişəsindən zərər çəkən şəxslərin hüquqlarının qorunması istiqamətində yetərli addımlar atılmayıb. Azərbaycan hökuməti 23 erməni məhbusun vəziyyəti və sağlamlığı barədə məlumat təqdim etməyib" və sair.

Paradoksal haldır ki, indi "23 erməni məhbusun vəziyyətindən dərin narahatlıq keçirən" "Amnesty International" Ermənistan əsirliyində uzun illər ərzində saxlanılan, işgəncələrə məruz qalan azərbaycanlılar haqqında bu cür aktivlik nümayiş etdirməyib. Məlumat üçün qeyd edək ki, Birinci Qarabağ müharibəsi dövründə (1988–1994) təxminən 3.890 azərbaycanlı itkin düşüb. Onlardan 3.171 nəfəri hərbçi, 719 nəfəri isə mülki şəxs olub. İtkin düşən şəxslərin taleyi ilə bağlı araşdırmalar hələ də davam edir.

Müxtəlif dövrlərdə aşkarlanan kütləvi məzarlıqlar və identifikasiya prosesi sübut edib ki, bu şəxslərin əksəriyyəti Ermənistan silahlı birləşmələri və separatçı qüvvələr tərəfindən işgəncələrə məruz qalaraq öldürülüb. Amma "Amnesty International" bu problemə göz yumub. Ötən 30 il müddətində bircə dəfə də olsun, fakta diqqət ayırmayıb. Baxmayaraq ki, təşkilat işgəncələrə qarşı mübarizəni özünün 3 əsas fəaliyyət istiqamətindən biri elan edib.

Bu yanaşma onu göstərir ki, "Amnesty International"ın niyətti insan haqlarının müdafiəsi qayğısına qalmaq deyil, bu ad altında erməni separatçılara dəstək verməkdir. Yada salaq ki, təşkilat cəmi 2 ay öncə – 2026-cı il fevralın 17-də yaydığı bəyanatda da Ruben Vardanyanın "məhkəmə hüquqnun pozuntusu" barədə tesizlər səsləndirmişdi. Həmin bəyanatda mandatından kənara çıxaraq, siyasi proseslərə baş vurmuş, iki ölkə və xalq arasında konflikti yenidən qızışdırmağa səy göstərmişdi. Məsələn, 17 fevral açıqlamasında Ruben Vardanyanı separatçı, terrorçu, qanun pozucusu deyil, "Bakı tərəfindən əsir götürülmüş Dağlıq Qarabağın erməni lideri" kimi qələmə vermişdi. Onun əsir götürülmüş mülki şəxs, siyasi lider obrazının yaradılmasına cəhd etmişdi. Həmçinin "Ruben Vardanyana 20 il həbs cəzasının verilməsini, digər separatçı liderlərdən 5 nəfərinin ömürlük həbs cəzasına məhkum edilməsini" "Ermənistan xalqına qarşı qəsd" kimi təqdim etmişdi.

Bu cür nüanslar "Amnesty International"ın hesabatını obyektiv sənəd kontekstindən çıxarır, siyasi münasibət prizmasına keçirir. O öz bəyanat və hesabatları ilə şüurlu şəkildə anti-Azərbaycan və antisülh kampaniyası aparır. Ruben Vardanyanın məhkumluğunu "faciə" kimi dəyərləndirməklə, erməni xalqına qızışdırıcı mesajlar ötürür, qarşı tərəfdə qisasçılıq hisslərini coşdurmağa, iki ölkə arasında münasibətləri alovlandırmağa çalışır.

17 fevral bəyanatı, yaxud 21 aprel hesabatı "Amnesty International"ın Azərbaycan–Ermənistan münasibətləri fonunda sərgilədiyi əcaib siyasətin yalnız bir epizoddur. O, 2021-ci ilin yanvar ayında verdiyi bəyanatda da faktları yanlış təqdim etmişdi. Azərbaycan Ordusunun Qarabağ torpaqlarını işğaldan azad etməsini, az qala, "Azərbaycanın Dağlıq Qarabağı işğal etməsi" kimi qələmə vermişdi. "Amnesty International" Qarabağ torpaqlarının Ermənistan tərəfindən işğal altında saxlanıldığı 30 il müddətində buna bənzər çoxsaylı çaşdırıcı bəyanatlar verməklə, Azərbaycan tərəfini haqsız, Ermənistan tərəfini isə haqlı çıxarmağa çalışıb. Təşkilat bu cür davranışla kimin maraqlarına xidmət edir, hansı niyyəti güdür?

Revanşist qüvvələr aprelin 23-24-də Ermənistanda qondarma "soyqırımının" 111-ci ildönümünü qeyd etdilər. 2024-cü ildən etibarən, sönən xətlə gedən, gündəmdən çıxan bu ideyanı yenidən qlobal prosesə çevirməyə çalışdılar. Revanşistlərlə həmrəylik nümayiş etdirən lobbi qrupları isə proses çərçivəsində aprelin 18-də Niderland və Belçika parlamentlərində Azərbaycan əleyhinə qətnamələrin qəbul edilməsini gündəmə gətirdilər. Separatizm və terrorizmdə təqsirli bilinərək Bakı tərəfindən həbs edilən "23 nəfər erməninin hüquqlarının bərpası, həmçinin qondarma erməni soyqırımının tanınması" haqqında sənədləri bu ölkələrin parlamentlərində müzakirəyə çıxardılar. Həmçinin Nyu-York meri Zohran Mamdaninin dilindən qondarma "erməni soyqırımı" ilə bağlı bəyanatın səsləndirilməsinə nail oldular. Təhlillər göstərir ki, "Amnesty International"ın 17 fevral açıqlaması ilə 21 aprel hesabatı bu sinxron ayaqlanmanın tərkib hissəsidir.

Məlumat üçün qeyd edək ki, "Amnesty International"ın fəaliyyət tarixində qərəzli şübhəli nümunələr kifayət qədər çoxdur. Təşkilatın bu cür əməllərindən əziyyət çəkənlər vikipediyada "Criticism of Amnesty International" başlığı ilə xüsusi səhifə yaradıblar. Həmin səhifədə "Amnesty International"ın neqativ əməlləri barədə kifayət qədər faktlar təqdim ediblər.

# 28 aprelin 28 may qətliamı...



*(əvvəli 1-ci səhifədə)*

Tarix kitablarında bizə yurdumuzun az qala daş dövrünü öyrətsələr də, 1920-ci il aprel işğalına qədərki maarifçilik, milli azadlıq hərəkatı və müstəqil dövlətçilik dövrünü yaddaşımızdan silməyə çalışdılar. Amma təməli saxta ideologiyadan ibarət rus-bolşevik rejimi o illərin həqiqətlərini, aprelin maydan sonra anormal gəlişini şərtləndirən amilləri nəsillərin hafizəsindən təmizləməyi bacarmadı.

Şərqdə ilk demokratik quruluşun – Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna səbəb olmuş hadisələrin inkişaf yoluna qısa nəzər yetirək. 1918-ci il sentyabrın 15-də Azərbaycana köməyə gəlmiş Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu Bakını bolşevik, eser-daşnak qoşunlarından azad etsə də, bu antimilli qüvvələr tamamilə məhv edilməmişdi. Separatçılar şimaldan aldıqları yardımların sayəsində tədricən gücləndilər, 1919-cu ilin ikinci yarısından isə xüsusilə fəallaşdılar. Silahlı çevriliş yolu ilə Azərbaycanda hakimiyyətin ələ keçirməyə hazırlıq görülürdü. Bu çərçivədə 1919-cu ilin yayında Rusiya Kommunist (bolşevik) Partiyasının Bakı komitəsi xüsusi hərbi-texniki komissiya yaratmışdı.

Rusiya Silahlı Qüvvələri baş komandanı S. Kamenevin 22 mart 1920-ci il tarixli direktivində deyilirdi ki, Qafqaz cəbhəsində Denikin ordusunun məğlub edilməsindən sonra Rusiya qoşunları Bakı istiqamətində hücumu davam etdirməli və keçmiş Bakı quberniyasının ərazisini bütünlüklə işğal etməlidir. Martın 28-də onun V.Leninə məruzəsində bildirilirdi: “Terek vilayətinin və Qroznının tutulması haqqında Rusiya hökumətinin direktivindən irəli gələn vəzifələr artıq yerinə yetirilib. Qarşıda Bakı istiqamətində hücumun davam etdirilməsi ilə bağlı hökumətin yeni direktivindən irəli gələn vəzifələrin həlli dayanıb”.

***

XI qırmızı ordunun 20-ci diviziyası hücumqabağı mövqeni Dərbənddə tutmuşdu. Bu diviziya hücuma aprelin 27-i gecə keçməli və elə səhəri gün Yalama stansiyasına çıxmalı idi. 1920-ci il aprel ayının 28-si, saat 00:05 dəqiqədə 70 minlik XI qırmızı ordu, öndə 3 zirehli qatar və 300 nəfərdən ibarət piyada desant olmaqla, Samur çayının üzərindəki körpünü keçir. İşğalçı ordu ilə Anastas Mikoyan, Qəzənfər Musabəyov bolşevik süngüləri üzərində Azərbaycanda şura hökuməti qurmağa gəlirdilər. Ruslar qəflətən hücum etmək istəyirdilər. Onların desantı stansiya ilə sərhəd məntəqələrini birləşdirən telefon xətlərini kəsir. Amma Azərbaycan Ordusunun Quba alayının zabiti Ağaəli Babazadənin rəhbərliyi altında bir neçə yüngül top və pulemyotla silahlanmış iki rota, 300 nəfərdən ibarət süvari eskadronu və kiçik jandarm dəstəsi Yalama stansiyası yaxınlığında düşməni gözləyirdi. Qarnizonu gözlənilən hücumdan süvari patrullar xəbərdar etmişdilər. Fəqət qüvvələr qeyri-bərabər idi. Həmdulla Əfəndinin könüllülər dəstəsindən savayı, köməyə yetişən olmadı. Yalama qarnizonu bolşeviklərin hücumuna iki saat davam gətirə bildi. 350 döyüşçü son nəfəsinədək vuruşdu, sağ qalanlar partizan dəstələrinə qoşulmaq üçün geri çəkildi. Bununla da rus bolşeviklərinin Bakıya yolu açıldı…

***

1920-ci il aprel ayının 28-də Sovet Rusiyası qoşunlarının hərbi müdaxiləsi nəticəsində Azərbaycanın dövlətçilik və müstəqillik tarixinin ən şərəfli mərhələsi sayılan Xalq Cümhuriyyəti süqut etdi. Cəmi 23 ay azadlığı dadan Azərbaycanda həyatın bütün sahələrində köklü dəyişikliklərin əsası qoyulmuşdu. Nə yazıq ki, Vətənimiz aldadıcı şüarlar altında bölgəyə soxulmuş Rusiyanın hegemonluğu altına düşdü və xalqın həyatında yeni əsarət dövrü başladı. Bolşevik-daşnak “çete”si Azərbaycanda milli hökuməti devirəndən sonra irticaya və “manqurtlaşdırmaya” start verildi. Milli fədailərin əksəriyyəti qırmızı işğalla barışmayıb yurdu tərk etdi, bir çoxu isə dərdə tablaşmayıb çərləyib öldü. Beləcə, cəmi 23 ay müstəqil olmuş Azərbaycanın yetmiş bir illik qara günləri başladı.

…Azərbaycan Cümhuriyyəti Azərbaycan türklərinin tarixdə özünüdərk, özünüifadə etdiyi nadir hadisələrdən biridir. İndi o şanlı tariximiz ay-ay, gün-gün öyrənilir, araşdırılır və tədris olunur. O dövrdə bolşevik Rusiyasının törətdiyi tarixi cinayəti isə bu gün ən yüksək tribunalardan, həm də çəkinmədən dilə gətirilir.

Azərbaycan Prezidenti İlham Əliyev keçən ilin avqustunda Səudiyyə Ərəbistanının “Əl-Ərəbiyyə” telekanalına müsahibəsində Rusiyanın Azərbaycanla bağlı işğalçılıq siyasətinin tarixi köklərinə toxunaraq bildirib: “1917-ci ildə Rusiya imperiyası süqut etdikdən sonra Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Bu, 1918-ci ilin mayında qurulan, müsəlman dünyasında ilk demokratik respublika idi. Biz öz dövlətimizi qurduq, amma bolşeviklər bu dövləti əlimizdən aldılar. 1920-ci ilin aprelində rus ordusu Azərbaycana daxil olub onu işğal etdi”.

Cümhuriyyətin süqutundan 70 il sonra məmləkətimzin səmasında azadlıq Günəşi yenidən doğdu. Onun gec-tez doğacağına, bir kərə yüksələn bayrağın heç vaxt enməyəcəyinə son nəfəsinə qədər inanan M.Ə.Rəsulzadə yüz üç il bundan əvvəl – 1923-cü ildə XX əsrin son imperiyasının diktatoru İosif Vissarionoviç Stalinə məktubunda yazırdı: “Moskvada olduğum iki il ərzində mən Şərq millətlərinin və xüsusilə türk ellərinin nicatının yalnız özlərində, özünü bir millət kimi tanımalarından ibarət olduğuna qəti surətdə inandım. Bunun üçün sisteminizdə millətin özünə bəslədiyi bu inamın kökündən yox edildiyini və milli anlamının milli inqilab anlamına təbdil edildiyinə soyuqqanlı baxa bilmirdim”.

Məktubda daha sonra deyilir: “Şərq millətləri kommunist həyatı ilə deyil, öz milli həyatları ilə yaşamaq istəyirlər. Bu məqsədlə də onlar özlərini əsir edən qüvvələrə qarşı mübarizə aparırlar və bu mübarizələrində onlara yardım edə biləcək müttəfiqlər axtarırlar. Bir zaman onlar Vilsonun prinsiplərinə inandılar; sizin şüarlarınız isə onlara daha cəlbedici göründü. Fəqət, heyhat, Vilson prinsipləri Versal, Trianon və Sevr müqavilələrinə müncər oldusa, sizin şüarlarınız da Ukrayna, Türküstan və Qafqazın yenidən istilası ilə nəticələndi. Buna görə də vətənim Azərbaycanın sizin işğal və əsarətinizə qarşı mübarizəyə qəhrəman Türkiyənin Antantaya qarşı yürütdüyü mücadilə qədər bir haqqı vardır”.

Məktub İstanbulda çıxan “Yeni Qafqazya” dərgisinin 23.01.1923-cü il tarixli 5-ci sayında dərc olunub. Sonradan bu məktub M.Ə.Rəsulzadənin “Stalinlə ixtilal xatirələri” adlı məşhur kitabında da yer alıb.

...Əslində biz 106 il bundan əvvəl tarixin təbii axarının tərsinə çevrildiyinin rəmzi sayılan bu təqvim gününü Şərqdə demokratik quruluşlu ilk dövləti – Azərbaycan Xalq Cümhuriyyətini yoxdan yaradan, sonra onun milli ideya kimi yaddaşlardan silinməməsi, yaşaması üçün Nargində güllələnən, Sibirdə donan, türmələrdə çürüyən, qəzetlərdə, ədəbiyyatda alçaldılan, qürbətdə çərləyən fədailərimizin Anım Günü kimi qeyd etməliyik. Bu, XX əsrin sonlarında S.M.Kirov adına “Qırmızı Əmək Bayrağı” ordenli Azərbaycan Dövlət Universitetinə qəbul olub, M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetini bitirən müəllifin heç də sadəlövh arzusu, romantik duyğusu deyil, tarixin məhvərini dialektik qanunauyğunluğa qarşı çevirmək istəyənlərə bəşəri və ümumxalq etirazın ifadəsi olardı.

***İmran BƏDİRXANLI***
***XQ***

# Qondarma “erməni soyqırımı” və regional sülhə maneə cəhdi

## *Erməni xalqı nəyə imkan verməməlidir?*



**Qondarma “erməni soyqırımı”. Ötən həftə Ermənistandakı başıpozuq kəsimin təmsilçiləri və onların xaricdəki havadarları bu saxta tarixin 111-ci ildönümünü qeyd etdilər. Nəinki qeyd etdilər, eyni zamanda, Azərbaycana və Türkiyəyə hiddət yağdırdılar. Hətta, “ənənə” halını almış hər iki ölkənin bayraqlarının yandırılması kimi sərsəm ritualın gerçəkləşdirildiyini də gördük.**

Önəmli məqam qondarma “erməni soyqırımı” məsələsinə hazırkı münasibətdir. Ötən yazımızda Ermənistan XİN-in bu münasibəti ifadə edən bəyanatındakı yalanlar barədə söz açdıq. Ancaq onu da bildirdik ki, rəsmi İrəvan yaydığı sənəddə daha çox gələcəyə fokuslanır, Cənubi Qafqazı sülh və əmin-amanlıq məkanı kimi təsəvvürə gətirir. Yəni düşünmək olar ki, erməni iqtidarı dolayısıyla kif atmış “soyqırımı” məntiqindən uzaq durmağın zəruriliyini vurğulayır...

Ermənistan XİN sözügedən bəyanatı ümumi ab-havada təmsilçilik baxımından yaymışdı. O ab-hava ki, yumşaq desək, bərbaddır və başlanğıcda bu barədə söz açdıq. Əlavə edək ki, “erməni soyqırımı” ilə bağlı durumun nifrət, kin və qəzəb dilinin işə salınmasının məkrli məqsədi var. Məqsəd regional sülhə maneçilik törətməkdir. Baxın, Rusiya Prezidenti Vladimir Putin “erməni soyqırımı”nın 111-ci ildönümü ilə bağlı Kremlin saytında yayımlanmış müraciətində bildirib ki, Rusiya hələ 1915-ci ildə Böyük Britaniya və Fransa ilə birgə deklorasiyada erməni xalqına zorakılığı qınayıb, onu insanlığa və sivilizasiyaya qarşı cinayət kimi qiymətləndirib. Putin müraciətində 1995-ci ildə Rusiya Dövlət Dumasının bəyanatını da yada salıb. Söhbət “erməni soyqırımı”nın tanındığı bəyanatdan gedir. Əlbəttə, Moskvanın qondarma iddiaya münasibəti həmişə bəlli olub. Putinin rəsmi müraciətini isə yenilik saymaq mümkündür. Yeniliyin nəyə hesablandığı da məlumdur və bu barədə bir qədər ətraflı söz açacağıq.

Bəli, “erməni soyqırımı” regiondakı “erməni hekayəsi” üçün uydurulmuş dramatizm və faciə yaşantısıdır. Yəni hekayə müəllifləri belə bir yaşantı aqibətinin “vacibliyini” dərk ediblər. Özü də dərhal – 1915-ci ildə. Axı hadisə və proseslər planlaşdırdıqları “ssenari” üzrə getmişdi. “Hekayə” də hayların imperialist qüvvələrin əlində alət olmaları reallığına söykənir. O qüvvələr ki, ermənilərdən Osmanlı dövlətini zəiflətmək naminə yararlanmış, hətta bunun üçün “Hnçak” və Daşnaksütyun partiyası kimi terrorçu qurumların formalaşmasına dəstək göstərmişdilər. O qurumlar ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində Osmanlı daxilində ən müxtəlif fitnə-fəsadlar törətmişdilər.

Birinci Dünya müharibəsi illərində erməni millətçilərinin azğınlığı əndazəni aşdı. Müharibə şəraitində kimin günahkar, kimin günahsız olduğunu müəyyənləşdirməyə vaxt yox idi və dövlətin kütləvi köçürmə qərarı bununla izah edilir. Başqa yanaşma mümkün deyil.

Bəli, kütləvi köç zamanı həyatını itirənlər oldu və durumun günahı erməni millətçilərini özlərinin və onları ortaya atanların vicdanına yazılmalıdır. Yəni Putinin haqqında söz açdığı deklarasiyaya imza atanların. Real tarix budur. Saxta tarix isə özündə insan taleləri üzərində oyun oynamaq məramını daşıyır. Yəni Rusiya Prezidentinin istinad etdiyi sənəd siyasi oyun mahiyyətindən qaynaqlanırdı. O oyun ki, “erməni soyqırımı” naminə dramatizm yükü formalaşdırmaqla yanaşı, regionda türk və müsəlman düşmənçiliyi üçün motiv, qisas zəmini formalaşdırmağa hesablanmışdı.

Düşmənçilik, böyük ölçüdə türk və müsəlman dünyasını erməni amili ilə parçalamaq, onu bir-birindən ayrı salmaq məqsədi daşımışdı. Yəni Fransa, Rusiya və Böyük Britaniya 1915-ci idə müştərək deklarasiya yaymaqla, belə bir məqsədin reallaşmasına yönəlmiş, həmçinin, perspektiv hədəfləri olan oyun başlatmışdılar. Yəni “erməni kartı” imperialist qüvvələri bir araya gətirmişdi. Onlar bu “kartı” XX əsrin sonlarına doğru işə saldılar. 1988-ci ildə hay millətçiləri Qarabağ avantürasına start verdilər. Nəticədə, qəzəb və hiddət, kin və küdurətin yeni səhifəsi açıldı.

Bəli, 1988-ci ildən sonra yaşananlar da Cənubi Qafqazın erməni varlığı üçün aqibət olaraq müəyyənləşdirildi. 1992-ci ildə Xocalı soyqırımını törətdilər. Amma baxın, nə Putin, nə də bir başqası bu insanlıq faciəsi ilə bağlı müraciət yaymır. Görəsən niyə? Sualımız ritorikdir. Çünki ermənilərə Xocalı vəhşətini törətməkdə dəstəyi Rusiyanın 366-cı motoatıcı diviziyası göstərmişdi...

Dünya Azərbaycan torpaqlarının 30 ilə yaxın işğalda qalmasına da, 1 milyona yaxın azərbaycanlının öz doğma yurd-yuvasından didərgin düşüb məcburi köçkün həyatı yaşamasına da, çarəsizlikdən çadır şəhərciklərində, soyuq vaqonlarda gecələməsinə də göz yumdu. Amma ötən müddətdə “erməni soyqırımı”nı xatırlayanlar oldu. Axı haqqında söz açdığımız “erməni kartı” gücünü, ümumən, türk və müsəlman düşmənçiliyi aktuallığını saxlamalı idi.

Azərbaycan 2020-ci ilin 44 günlük müharibəsindəki şanlı Zəfərlə, 2023-cü ildə lokal antiterror tədbirləri ilə öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə Qarabağ avantürasına son qoydu, həmçinin imperialist güclərin 200 illik erməni planını pozdu.

***

Bu gün Ermənistan iqtidarı Cənubi Qafqazda sülh və sabitliyin yaranmasına çalışır. Əlbəttə, demək olmaz ki, baş nazir Nikol Paşinyan və komandası, sözün əsl mənasında, səmimidir. Ancaq bu komanda Ermənistanın barış naminə meydana çıxmış ən optimal siyasi qruplaşmasıdır. O qruplaşma ki, “Qarabağ hərəkatı” məntiqindən uzaqlığını bəyan edir. O qruplaşma ki, xalqı sülhə, rifaha və mehriban qonşuluğa səsləyir. V.Putinin şəxsində Rusiya dövləti isə “erməni soyqırımı”nın 111-ci ildönümü ilə bağlı müraciəti məhz belə bir durumda yayır. Bu yerdə Putinin müraciətindəki bir məqama nəzər salaq: “O illərin təqibləri və repressiyaları ermənilərin bir çox nəsilləri üçün sağalmayan yaraya çevrildi. Lakin yaşanan faciə insanları birləşdirdi və onlar ənənələrə möhkəm bağlılıq, müdriklik və cəsarət nümayiş etdirdilər”.

Hesab edirik ki, ümumən, müraciətin sentimentallığa bürünmüş ovqat yalnız keçmişi yada salmaq mahiyyəti daşıyır. Halbuki, soyqırımı cinayətlərindən sığorta naminə tarixi səbəb-nəticə əlaqəsi vurğulanmalı və gerçəklər ön planda dayanmalıdır. Yeri gəlmişkən, məlum müraciətin ən sonunda bildirilir ki, “dost erməni xalqına rifah, tərəqqi və ən xoş arzularımı bildirirəm”. Gözəl səslənir, ancaq fərqinə varılmır ki, erməni xalqının rifahına da, tərəqqisinə də maneçilik törədən amillərdən biri həm də “soyqırımı” cəfəngiyyatının özüdür.

Putin haqlıdır, o anlamda ki, imperialist qüvvələr cəfəngiyyatı sonrakı dövrün erməni nəsillərinin yaddaşında möhkəmləndirdilər. Xocalı soyqırımından söz açdıq. Saxta “soyqırımı” klişesinin siyasi məram və məqsədlərə hesablanmış təzahürünün nəticəsi idi ki, 1918-ci ilin martında bolşevik-daşnaklarla əlbir olan erməni nəsillərinin təmsilçiləri Bakıda gerçək soyqırımı törətmiş, 1915-ci ilin qisasını aldıqları ilə öyünmüşdülər. Amma bu son olmamış, üzərindən illər keçdikdən sonra tarix təkrarlanmışdı.

Deməli, 1988-ci ildə Qarabağ avantürası vüsət alanda, hay varlığı həmin ilin fevralında Sumqayıtda keçmiş SSRİ Dövlət Təhlükəsizliyi Komitəsi tərəfindən “ssenariləşdirilmiş” erməni faciəsinin intiqamını almağa girişdi. Yəni 1992-ci ildə Xocalı dəhşətini törədənlər Sumqayıtın qisasını alırmış kimi davrandılar. Beləliklə, azərbaycanlılarda ermənilərə qarşı qəzəb və hiddət formalaşdı. Sonra yaşananlar isə bəllidir.

Sonda ümumiləşdirmə apararaq deyək ki, həm bu gün, həm də tarixdə yaşananlara soyuq başla yanaşmaq, olanlardan nəticə çıxarmaq zamanıdır. O cümlədən “erməni soyqırımı” məsələsinin mahiyyətinə obyektivlik prizmasından baxılmalıdır. Sadə ermənilər düşmənçilk ritorikasının körüklənməsinə hesablanmış müraciət və bəyanatlara əhəmiyyət verməməlidirlər.

Əlbəttə, “soyqırımı” kimi bəşəri cinayətlər unudulmamalıdır. Bu yerdə erməni hüquq müdafiəçisi Georgi Vanyan yada düşür. O Vanyan ki, baxışlarına görə Ermənistandan sürgün edilmiş, ömrünü Tbilisidə taksi sürməklə keçirmiş, koronavirus bəlasından dünyasını dəyişmişdi. O Vaynan ki, böyük üzgünlük hissi ilə ermənilərin Xocalı dəhşətinə görə azərbaycanlılardan üzr istəməli olduğunu demişdi.

Əslində, ermənilər üzrü təkcə Xocalıya görə yox, ümumən, bu coğrafiyada yaşayan xalqlara qarşı törətdikləri bütün bəd əməllərə görə istəməli, günahlarını etiraf etməlidirlər. İndi sıravi ermənilər üçün imkan və fürsət yaranıb. Erməni xalqı parlament seçkilərində sülh ritorikasına köklənmiş hakim komandaya səs verməli, keçmişin qalıqları olan və hazırda, eyni zamanda, “erməni soyqırımı” məsələsini siyasi alətə çevirməyə hazır dayanmış iblis xislətlilərə yerlərini göstərməlidir.

Erməni xalqı nəzərə almalıdır ki, şikarının həzmi zamanı gözü yaşaran timsahların müraciət və bəyanat adı altında yaydıqları fikirlər təxribat cəhdindən başqa bir şey deyil. Nəhayət, sıravi ermənilər həmin timsahların siyasi düşüncələrinin girovuna çevrilməməli, qövm yox, qonşularla normal keçinən xalqın təmsilçiləri olduqlarını göstərməlidirlər.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Makronun İrəvan səfərinin gözləntiləri

*(əvvəli 1-ci səhifədə)*

Makronun İrəvana səfərinin bir neçə məqsədi var və bu məqsədlər bir-birini tamamlayan istiqamətlər üzrə formalaşır. İlk növbədə, Fransa lideri ASB-nin sammitində iştirak edərək qitə miqyasında siyasi dialoqa töhfə vermək niyyətindədir. Bu sammit Avropanın müxtəlif regionlarında davam edən münaqişələr, təhlükəsizlik çağırışları və iqtisadi əməkdaşlıq məsələləri baxımından fikir mübadiləsi üçün vacib platformadır. İkinci mühüm məqam isə sammitdən dərhal sonra, mayın 4-5-də İrəvanda keçiriləcək ilk ikitərəfli Avropa İttifaqı–Ermənistan sammitidir. Bu tədbir münasibətlərin yeni mərhələyə keçdiyini göstərən önəmli siyasi ismarışdır.

Yeri gəlmişkən, qeyd edək ki, Aİ Şurasının mətbuat xidmətindən verilən məlumata görə, sammitdə Avropa İttifaqını Aİ Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen təmsil edəcəklər. Ermənistan tərəfdən isə sammitə Baş nazir Nikol Paşinyanın rəhbərliyi ilə nümayəndə heyəti qatılacaq. Nümayəndə heyətlərinin təmsilçiliyinin səviyyəsi göstərir ki, görüş təkcə formal xarakter daşımır, əksinə, tərəflər arasında konkret məsələlərin müzakirəsi və gələcək planların müəyyənləşdirilməsi üçün ciddi platformadır. Müzakirələrdə Ukrayna və İrandakı hərbi münaqişələr, qlobal nəqliyyat dəhlizlərinin yaradılması, həmçinin Cənubi Qafqazda rifah və iqtisadi inkişaf kimi mövzular əsas yer tutacaq.



E.Makronun səfərinin vaxtı da diqqət çəkir. Bu səfər müəyyən mənada Fransanın regiondakı mövqeyini möhkəmləndirmək və Ermənistanla münasibətləri daha da yaxınlaşdırmaq niyyəti ilə üst-üstə düşür. Eyni zamanda, yaxınlaşan siyasi proseslər, 7 iyun parlament seçkiləri fonunda Ermənistan hakimiyyətinə dəstək mesajı kimi də qiymətləndirilir. Avropa ölkələri Ermənistanın yenidən Rusiyanın təsir dairəsinə qayıtmasına qəti şəkildə qarşıdırlar və bu səbəbdən İrəvanla əlaqələri gücləndirməyə çalışırlar. Bu yanaşma həm siyasi, həm iqtisadi, həm də təhlükəsizlik sahələrində özünü göstərir.

Güman etmək olar ki, Fransa Prezidentinin səfərindən sonra 2 ölkə arasında əməkdaşlıq bütün sahələrdə daha da genişlənəcək. Xüsusilə hərbi və hərbi-texniki sahələrdə əməkdaşlıq imkanlarının artması diqqət mərkəzindədir. Bununla yanaşı, siyasi dialoq daha intensiv xarakter ala, humanitar və mədəni əlaqələr də yeni layihələrlə zənginləşə bilər. Fransa uzun illərdir Ermənistan üçün Avropaya açılan əsas qapılardan biri kimi çıxış edir və bu rolun daha da güclənəcəyi ehtimal olunur. Bütün bu məqamlar göstərir ki, Makronun İrəvana dövlət səfəri təkcə protokol xarakterli bir hadisə deyil. Bu səfər daha geniş mənada regionda gedən proseslərin, Avropanın prioritetlərinin və böyük güclərin maraqlarının kəsişdiyi bir nöqtədə baş verir. Ona görə də səfərin nəticələri yalnız Fransa və Ermənistan münasibətlərinə deyil, bütövlükdə, Cənubi Qafqazdakı siyasi dinamikanın gələcək istiqamətinə də təsir göstərə bilər.

***

Bu arada Ermənistan xarici işlər naziri Ararat Mirzoyanın Fransaya səfər etdiyi məlum olub. Aprelin 27-28-də baş tutan səfər çərçivəsində Mirzoyanın Fransanın Avropa və xarici işlər naziri Jan-Noel Barro ilə ikitərəfli görüşü keçirilib. Rəsmi dialoqdan əlavə, Ermənistan XİN-in mətbuat xidmətinin “əhəmiyyətli diplomatik tədbir” adlandırdığı hadisə də baş verib: Parisdə Ermənistanın səfirliyinin yeni inzibati binasının təntənəli açılış mərasimi keçirilib. Bundan əlavə, səfər çərçivəsində Avropa ölkələrində akkreditə olunmuş Ermənistan səfirlərinin iştirakı ilə müşavirə planlaşdırılır ki, bu da Xarici İşlər Nazirliyinin regionda atacağı gələcək addımların əlaqələndirilməsinə imkan verəcək.

A.Mirzoyanın Fransaya səfəri Makronun İrəvana planlaşdırılan səfəri və ASB-nin sammiti fonunda təsadüfi görünmür. Əksinə, bu addımlar bir-birini tamamlayan diplomatik xəttin tərkib hissəsi kimi ortaya çıxır. Mirzoyanın Jan-Noel Barro ilə görüşü tərəflər arasında koordinasiyanın artıq yüksək səviyyədə qurulduğunu göstərir. Bu dialoq yalnız cari məsələlərin müzakirəsi ilə məhdudlaşmır, həm də yaxın həftələrdə baş tutacaq siyasi tədbirlərin məzmununa hazırlıq xarakteri daşıyır.

Parisdə Ermənistan səfirliyinin yeni inzibati binasının açılışı da sıradan bir mərasim deyil. Bu addım İrəvanın Fransadakı mövcudluğunu daha da gücləndirmək niyyətini açıq şəkildə göstərir. Ermənistan XİN-in bunu əhəmiyyətli diplomatik tədbir kimi təqdim etməsi təsadüfi deyil. Bu, həm simvolik, həm də praktik baxımdan rəsmi İrəvanın Avropada, xüsusilə Fransada dayaq nöqtələrini genişləndirməyə çalışdığını göstərir. Hələ 2025-ci il oktyabrın 18-də A.Mirzoyan ölkəsinin ya 2025-ci ilin noyabrında, ya da 2026-cı il ərzində Aİ-yə üzvlük üçün müraciət edəcəyini açıqlamışdı. Bu fonda Makronun İrəvana səfəri artıq daha geniş siyasi kontekstdə dəyərləndirilir. Səfər çərçivəsində Avropa ölkələrində akkreditə olunmuş Ermənistan səfirlərinin iştirakı ilə planlaşdırılan müşavirə də diqqət çəkir. Bu, Ermənistanın Avropa istiqamətində fəaliyyətini daha sistemli şəkildə qurmağa çalışdığını göstərir. Belə toplantılar adətən konkret mesajların formalaşdırılması və vahid mövqenin müəyyən edilməsi üçün keçirilir. Bu isə o deməkdir ki, İrəvan qarşıdakı dövrdə Avropa platformalarında daha aktiv və koordinasiyalı çıxış etməyə hazırlaşır.

Bütün bu proseslər Makronun mayın əvvəlində İrəvana səfəri və ASB-nin sammiti ilə birbaşa bağlıdır. ASB təşəbbüsü məhz Makron tərəfindən 2022-ci ilin may ayında təklif edilmiş və Avropanın gələcəyi ilə bağlı siyasi və strateji müzakirələr üçün yaradılmış hökumətlərarası bir təşkilatdır. “Beşinci Respublika” bu platformada həm təşkilati, həm də siyasi baxımdan fəal rol oynayır və Ermənistanı bu proseslərə daha sıx cəlb etməyə çalışır. Mirzoyanın Paris səfəri bu baxımdan bir növ hazırlıq mərhələsi kimi görünür. Burada həm veriləcək ismarışlar razılaşdırılır, həm də tərəflərin gözləntiləri dəqiqləşdirilir. Nəticə etibarilə, baş verənlər ayrı-ayrı hadisələr deyil, vahid siyasi xəttin elementləridir. Ermənistan Avropa ilə əlaqələrini dərinləşdirməyə çalışır, Fransa isə bu prosesdə əsas tərəfdaş rolunu gücləndirir. Makronun İrəvana səfəri bu xəttin zirvəsi kimi çıxış edəcək və əvvəlki diplomatik addımların məntiqi davamı olacaq.

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycan Avropanın enerji xəritəsini yenidən çəkir

*Xəzər qazının növbəti ünvanı Çexiya olacaq*



**Avropanın enerji xəritəsində çəkilən yeni cizgilərin müəllifi Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycandır. Bəli, Çex Respublikasının Baş naziri Andrey Babişin ölkəmizə səfəri, Prezident İlham Əliyev ilə keçirdiyi görüş və mətbuata birgə bəyanatlar fonunda ortaya çıxan fikirlər konkret strateji niyyətin ifadəsi kimi yadda qaldı. Çexiya hökumət başçısının Azərbaycanla qaz təminatı sahəsində uzunmüddətli müqaviləyə maraq göstərməsi Avropanın enerji təhlükəsizliyi gündəmində Bakıya olan ehtiyacın açıq etirafı oldu.**

Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan artıq öz enerji resurslarını geniş coğrafiyaya ixrac edən və etibarlılığı ilə seçilən tərəfdaş kimi qəbul olunur. Bu gün Azərbaycan qazının 16 ölkəyə çatdırılması, onların 10-nun Avropa İttifaqı məkanında yerləşməsi ölkənin enerji diplomatiyasının miqyasını və gücünü nümayiş etdirir. Daha diqqətçəkən məqam isə odur ki, Çexiyanın qonşu dövlətləri artıq Azərbaycan qazından faydalanır və bu, rəsmi Praqa üçün yeni alternativlərin qapısını aralayır.

Səfər çərçivəsində keçirilən Azərbaycan–Çexiya biznes forumu isə iqtisadi münasibətlərin yeni mərhələsinin yeni müstəviyə keçidinin rəmzi oldu. Forumda səslənən fikirlər, aparılan müzakirələr göstərdi ki, enerji sahəsində əməkdaşlıqla yanaşı, sənaye, investisiya və texnologiya mübadiləsi üçün də müxtəlif imkanlar var. Azərbaycanın Çexiyaya artıq xam neft ixrac etməsi və bu ölkənin əsas tərəfdaşlardan birinə çevrilməsi iqtisadi münasibətlərin möhkəm təməl üzərində qurulduğunu göstərir.

Ümumiyyətlə, Çexiya ilə Azərbaycan arasında münasibətlərin formalaşmasında iqtisadi münasibətlərin xüsusi rolu var. 2011-ci ildən fəaliyyət göstərən iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiya bu əlaqələrin əsas dayaqlarından biri kimi çıxış edir. Belə ki, 2024-cü ildə 814,73 milyon ABŞ dollarına çatan ticarət dövriyyəsi tərəfdaşlığın real nəticələrini ortaya qoyur. Çexiya Azərbaycanın əsas ixrac istiqamətləri arasında 6-cı yeri tutur, Avropa İttifaqı daxilində isə 4-cü pillədə qərarlaşıb.

Hazırda gündəlikdə ön planda duran məsələlərdən biri kimi energetika sektoru isə deyə bilərik ki, Azərbaycan uzun illərdir Çexiyaya xam neft ixrac edir və 2025-ci ildə bu ölkə İtaliyadan sonra ikinci ən böyük alıcı mövqeyinə yüksəlib. Paralel olaraq, Çexiya tərəfi bərpaolunan enerji, enerji effektivliyi və hidrogen texnologiyaları sahəsində əməkdaşlığa maraq göstərir. Bu tendensiya əlaqələrin yalnız ənənəvi enerji resursları ilə məhdudlaşmadığını, daha innovativ və gələcəyə hesablanmış istiqamətlərə yönəldiyini göstərir.

Praktik müstəvidə də bu əməkdaşlıq konkret layihələrlə müşayiət olunur. Çex şirkətlərinin Azərbaycanda, xüsusilə də "yaşıl enerji" sahəsində artan iştirakı diqqət çəkir. Naxçıvanda 500 meqavat gücündə günəş enerjisi stansiyası layihəsində iştirak və hidroenergetika avadanlıqlarının təchizatı üzrə imkanların araşdırılması bu tərəfdaşlığın real nəticələrini əks etdirən nümunələrdəndir.

### Ekspert rəyi



**Pərviz HEYDƏROV,**
**enerji məsələləri üzrə mütəxəssis**

Çexiya kimi Avropa ölkələrinin Azərbaycana ardıcıl və mütəmadi səfərləri təsadüfi xarakter daşımır. Bu marağın arxasında dayanan əsas amil enerji məsələsi, daha dəqiq desək, həmin dövlətlərin enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycana duyulan ehtiyacdır. Məlumdur ki, Rusiya-Ukrayna müharibəsi başlayandan sonra Avropa ciddi enerji çağırışları ilə üz-üzə qaldı. Bu vəziyyət Avropa ölkələrini Rusiyadan enerji asılılığını azaltmaq və alternativ mənbələr axtarmaq istiqamətində daha qətiyyətli addımlar atmağa vadar etdi.

Xatırlatmaq yerinə düşər ki, Azərbaycan Cənub Qaz Dəhlizi kimi iri enerji layihələrinin strateji əhəmiyyətini vurğuladıqda, bəzi dairələr bu təşəbbüslərə yetərincə dəstək vermirdi, hətta ölkəmizin kifayət qədər qaz ehtiyatına malik olmadığını iddia edənlər də az deyildi. Lakin zaman bu yanaşmanın yanlış olduğunu göstərdi. Hazırda Azərbaycan artıq 16 ölkəyə təbii qaz ixrac edir və onların 10-u Avropa İttifaqı üzvüdür. Bu coğrafiya ildən-ilə genişlənir. Çexiyanın qonşuluğunda yerləşən ölkələr artıq Azərbaycan qazından faydalanır. Belə bir şəraitdə Çexiyanın da bu resursa maraq göstərməsi və bunu ən yüksək siyasi səviyyədə ifadə etməsi tam məntiqidir.

Əslində, Çexiyanın Azərbaycan qazı ilə təmin olunması texniki baxımdan mürəkkəb proses sayılmır. Çünki qaz artıq region ölkələrinə çatdırılır və mövcud infrastruktur üzərindən onun Mərkəzi Avropaya yönləndirilməsi mümkündür. Burada əsas məsələ tədarükün həcmi və uzunmüddətli müqavilələrin təmin olunması ilə bağlıdır.

Bütün bu proseslər Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunu daha da gücləndirir. Eyni zamanda, ölkəmizin həm siyasi, həm də iqtisadi nüfuzu artmaqda davam edir. Bu gün Azərbaycan Avropa üçün sadəcə enerji təchizatçısı deyil, strateji əhəmiyyət daşıyan tərəfdaş kimi qəbul olunur və bu mövqe gələcəkdə daha da möhkəmlənəcək.

### Ekspert rəyi



**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri, ekspert**

Əvvəla, Avropa İttifaqının üzvü olan Çexiyanın Azərbaycanla uzunmüddətli qaz müqavilələri əsasında "mavi yanacağ"ın idxalına maraq göstərməsi təqdirəlayiqdir. Çünki rəsmi Brüsselin, Avropa Komissiyasının üzv ölkələrə tövsiyəsi ondan ibarətdir ki, enerji daşıyıcılarının idxalı uzunmüddətli müqavilələr deyil, daha çox çevik və qısamüddətli kontraktlar əsasında həyata keçirilsin. Bununla belə, ötən il Almaniya Federativ Respublikası ilə Azərbaycan arasında 2035-ci ilin sonuna qədər qüvvədə olacaq 10 illik qaz alqı-satqı müqaviləsinin imzalanması da bu baxımdan mühüm nümunə kimi çıxış edir. Çexiyanın da oxşar maraq göstərməsi bu kontekstdə başa düşüləndir.

Xüsusilə nəzərə alsaq ki, Azərbaycan Şahdəniz yatağından sonra Abşeron layihəsinin növbəti mərhələsi çərçivəsində hasil olunacaq təxminən 4,5 milyard kubmetr qazı ixraca yönəltməyi planlaşdırır. Bunun yarısının Türkiyə bazarında satılması nəzərdə tutulsa da, qalan həcmlər Avropa bazarında satış üçün əlavə imkanlar yaradır. Məhz bu perspektiv fonunda ötən ildən etibarən Azərbaycan qazının Çexiyaya ixracı ilə bağlı danışıqlar aparılır. Lakin nə 2025-ci ilin rəsmi açıqlanan statistik göstəricilərində, nə də 2026-cı ilin yanvar–fevral aylarına dair məlumatlarda Azərbaycanın Çexiyaya qaz ixracı qeydə alınmayıb.

Bu da onu göstərir ki, tərəflər hələlik kommersiya razılaşmaları üzərində işləyirlər və hər iki tərəf prosesdə öz maraqlarından çıxış edir. Ümid etmək olar ki, yaxın perspektivdə ortaq məxrəcə gəlinəcək və Çexiyanın Azərbaycandan uzunmüddətli qaz tədarükü reallığa çevriləcək. Digər tərəfdən, Azərbaycanla Çexiya arasında ticarət dövriyyəsinin mühüm hissəsi Azərbaycanın enerji resurslarının ixracı hesabına formalaşır. Nəticə etibarilə, Çexiya öz xam neft tələbatının təxminən 42 faizini Azərbaycandan idxal etdiyi enerji resursları hesabına təmin edir və Azərbaycan bu ölkənin neft təchizatçıları arasında birinci yerdə qərarlaşıb. Bu da iki ölkə arasında enerji sahəsində formalaşan strateji əməkdaşlığın mühüm göstəricisidir.

***Nurlan ABDALOV***
***XQ***

# TAP-ın Albaniyada qaztoplama məntəqəsi yaradılır

**Bu il Azərbaycan qazının Avropa alıcıları siyahısına daha bir ölkə əlavə olunacaq. Bu, Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) keçdiyi Albaniyadır. Artıq TAP Konsorsiumu bu ölkənin Fiyeri şəhərində qaztoplama məntəqəsi layihəsinin icra mərhələsinə başlayıb.**




TAP AG-nin bu barədə yaydığı açıqlamada bildirilib ki, layihə boru kəmərinin tikintisi dövründə Fiyeri şəhəri yaxınlığında yerləşən ACS03 qaz-kompressor stansiyasında quraşdırılmış mövcud götürmə məntəqəsindən istifadə edilməklə həyata keçirilir. Layihə çərçivəsində, həmçinin qazın ölçülməsi və təzyiqin azaldılması qurğusunun tikintisi nəzərdə tutulur. Bu qurğu ACS03 yaxınlığında yerləşəcək və gələcək paylayıcı qaz kəmərinə "mavi yanacağ"ın ötürülməsi üçün nəzərdə tutulub.

"Bu layihə ölkənin qazlaşdırılması prosesinin əsas elementi kimi qiymətləndirilir, qaz infrastrukturunun mərhələli inkişafını və təbii qaza çıxışın genişlənməsini təmin edir. Eyni zamanda, Albaniyanın regional qaz axınlarına qoşulmasına və Cənub-Şərqi Avropada enerji əlaqəliliyinin gücləndirilməsinə imkan verəcək. TAP Albaniyada qazlaşdırma prosesinə və ölkənin iqtisadi artımına dəstəyini, dayanıqlı və etibarlı enerji sisteminə keçidi təşviq etməklə bir daha təsdiqləyib", – deyə məlumatda vurğulanıb.

Layihələndirmə, satınalma və tikinti üzrə müqavilə isə 2025-ci ildə podratçı təşkilata verilib. Konsorsiumun məlumatına görə, hazırda mühəndislik və satınalma işləri davam edir, sahədə tikinti işlərinə başlanmasının 2026-cı ilin ortalarında, layihənin tam başa çatması isə gələn ilin dördüncü rübünə planlaşdırılıb. Qurumdan o da bildirilib ki, Fiyeri qaztoplama məntəqəsi TAP-ın çoxmilyonlu investisiyasıdır və layihə başa çatdıqdan sonra Albaniya hökumətinə təhvil veriləcək.

Qeyd edək ki, TAP Cənub Qaz Dəhlizinin Avropa seqmentidir və Xəzər dənizində yerləşən Azərbaycanın "Şahdəniz" yatağından hasil olunan təbii qazı Avropa bazarlarına nəql edir. Uzunluğu, təqribən, 878 kilometr olan boru kəməri Yunanıstan–Türkiyə sərhədində TANAP-la birləşir, Yunanıstan və Albaniya ərazisindən ötərək Adriatik dənizini keçir və İtaliyanın cənubunda quruya çıxır. TAP-ın 210 kilometrlik hissəsi isə Albaniya ərazisindən keçir. Boru kəmərinin ilkin ötürücülük qabiliyyəti ildə, təxminən, 10 milyard kubmetr təşkil edir. Bazar tələbi və tənzimləyici razılaşmalar olduğu halda, bu həcmi 20 milyard kubmetrə qədər artırmaq mümkündür.

Trans-Adriatik Qaz Boru Kəmərinin buraxılış gücünün 1,2 milyard kubmetr artırılması və qazlaşdırma layihələrinin həyata keçirilməsi nəticəsində Albaniya tranzit rolundan əlavə Azərbaycan qazı ilə təchiz edilən növbəti ölkə olacaq. Bu qaz tədarükü Trans-Adriatik kəməri vasitəsilə həyata keçiriləcək və Albaniyanın qazlaşdırılması layihəsi çərçivəsində reallaşdırılacaq.

Azərbaycan qazının Albaniyaya illik tədarükü isə, təxminən 200 milyon kubmetr həcmində nəzərdə tutulur. Bu, Trans-Adriatik Qaz Boru Kəmərinin ötürücülük qabiliyyətinin 1,2 milyard kubmetrə qədər genişləndirilməsinin birinci mərhələsinin dövrünə təsadüf edəcək ki, bunun da 1 milyard kubmetri İtaliya üçün nəzərdə tutulub.

Xatırladaq ki, Azərbaycan Avropaya təbii qaz ixracına 2020-ci il dekabrın 31-də başlayıb. Prosesin ilk günündə kəmərlə 10,7 milyon kubmetr qazın Avropaya ixracı qeydə alınıb. Bununla da ölkəmiz tarixdə ilk dəfə öz təbii qazını boru kəmərləri ilə Avropa bazarına çıxarmaq imkanı qazanıb. 2021-ci ildə ölkəmizdən "köhnə qitə"yə 8 milyard 150 milyon kubmetr təbii qaz ixrac olunub.

Avropada Azərbaycan qazına tələbatın getdikcə çoxalması ilə əlaqədar həm alıcı ölkələrin, həm də "mavi yanacağ"ın həcmi ildən-ilə artıb. Təkcə onu qeyd etmək kifayətdir ki, hazırda Azərbaycan dünyanın 16 ölkəsinə təbii qaz ixrac edir ki, bunun da 12-si Avropa dövlətləridir. 2025-ci ildə həmin ölkələrə 12,2 milyard kubmetr qaz ixrac olunub. Ümumilikdə, ötən müddətdə TAP Avropaya 60 milyard kubmetrdən artıq Azərbaycan qazı nəql edib.

Yeri gəlmişkən, Avropa İttifaqı ilə imzalanmış memoranduma əsasən, Azərbaycan 2027-ci ilə qədər Avropaya təbii qaz tədarükünü 20 milyard kubmetrə çatdırmalıdır. Bunun üçün isə ölkəmizin potensialı kifayət qədərdir. Belə ki, Azərbaycanın təsdiq edilmiş təbii qaz ehtiyatları 2,6 trilyon kubmetr qiymətləndirilsə də, mütəxəssislər hesab edirlər ki, bu ehtiyatlar nəzərdə tutulduğunda daha çoxdur.

Hazırda fəal işlənmə mərhələsində olan "Şahdəniz", "Ümid" və "Abşeron" yataqları ilə yanaşı, yaxın vaxtlarda "Azəri-Çıraq-Günəşli"nin dərinlikdə yerləşən hissəsinin sərbəst təbii qaz ehtiyatlarının, eləcə də gələcəkdə "Babək" və digər yataqların istismara daxil edilməsi ilə ölkəmizin ixrac potensialı bir qədər də artacaq.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# WUF13-ün media təlimi

**Azərbaycanın Medianın İnkişafı Agentliyi (MEDİA), ADA Universiteti və Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) Əməliyyat Şirkəti ilə birgə Bakıda WUF13 çərçivəsində media nümayəndələri üçün növbəti məlumatlandırma sessiyası keçirilib.**




Bu çərçivədə jurnalistlərə "WUF13-ün əsas istiqamətləri və dialoqları", "Bakı şəhərinin Baş planı", "WUF13 çərçivəsində əlçatanlıq və inklüzivlik", eləcə də "Yaşıl nəqliyyat və mikromobillik" mövzuları ətrafında məlumat verilib. Məlumatlandırmada Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli, BMT-nin Məskunlaşma Proqramının (UN - Habitat) Kommunikasiya direktoru Katerina Bezqaçina, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin yanında Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsinin Şəhərsalma və memarlıq şöbəsinin rəhbəri Çağrı Kərimzadə və digər məsul qurumların təmsilçiləri iştirak ediblər, media nümayəndələrinin suallarını cavablandırıblar.



Məlumatlandırma sessiyası çərçivəsində **BMT-nin Məskunlaşma Proqramının (UN - Habitat) kommunikasiya direktoru Katerina Bezqaçina** XQ-yə xüsusi açıqlamasında bildirdi ki, bu BMT forumu Azərbaycanın öz təcrübəsini bölüşmək üçün nadir imkandır:

– "Dünyanı mənzillə təmin etmək: təhlükəsiz və dayanıqlı şəhərlər və icmalar" - mövzu təsadüfən seçilməyib. Bu gün dünya məskunlaşma və mənzil təminatı sahəsində ciddi böhranla üz-üzədir. 3 milyarddan çox insan müxtəlif mənzil problemləri ilə üzləşməkdədir. Bir milyarddan artıq insan gecəqondu və ya qeyri-rəsmi yaşayış məntəqələrində yaşayır, 300 milyondan çox insan isə layiqli mənzilə çıxış imkanından məhrumdur.

Gözlənti bundan ibarətdir ki, Ümumdünya Şəhərsalma Forumunun sonunda "Bakı Fəaliyyətə Çağırış" sənədi qəbul ediləcək. Bu sənəd müxtəlif müzakirələrin yekun nəticələrini özündə əks etdirən əsas çıxış sənədi olacaq. Bizim vəzifəmiz isə insanların bu sənəd haqqında məlumatlı olmasını təmin etmək, onun nəticələrini izah etmək və həmin nəticələri BMT çərçivəsində çoxtərəfli proseslərə, eləcə də digər qlobal platformalara ötürməkdir.

Bu məqsədlə biz sənədi geniş şəkildə paylaşacağıq, sosial mediada fəal şəkildə yayacağıq, "Baku Call to Action" (Bakı Fəaliyyətə Çağırış) xülasələrini hazırlayacağıq və onu Nyu-Yorkda, Cenevrədə və BMT-nin digər ofislərində çalışan həmkarlarımıza təqdim edəcəyik.

Əsasən bu sənəd vasitəsilə irəliləyəcəyik və ümid edirik ki, "Bakı Fəaliyyətə Çağırış" noyabr ayında keçiriləcək "Un - Habitat"ın İcraiyyə Şurasında da qəbul edilərək nəzərdən keçiriləcək. Sənəd üzv dövlətlərə təqdim olunacaq və onlar bu çağırış çərçivəsində konkret addımlar atmağa təşviq ediləcəklər".

Xanım Bezqaçina onu da bildirdi ki, WUF13 çərçivəsində praktik təcrübələrin paylaşılması və nümayişi üçün yaradılmış interaktiv platformalar təqdim ediləcək. Yəni real layihələrin, uğurlu nümunələrin və tətbiq edilmiş həllərin təqdimatı keçiriləcək: "Bu platformalar öz ölkə və şəhərlərində həyata keçirilən proqramları təmsil edən iştirakçılar arasında təcrübə mübadiləsi üçün nəzərdə tutulub. Belə format həm də praktiki təcrübəni nümayiş etdirmək üçün mühüm imkan yaradır.



**WUF13 Azərbaycan Əməliyyat Şirkətinin Məzmun və Media Əlaqələri üzrə baş meneceri Eldar Rəsulov** da XQ-yə bildirdi ki, Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının başlamasına artıq 20 gündən az bir vaxt qalıb:

– Hazırda tədbirin geniş miqyasına uyğun infrastruktur–hazırlıq işləri yekunlaşmaq üzrədir. Keçirilən tədbirin məqsəd odur ki, tədbirə qalan bu müddətdə media nümayəndələri hazırlayacaqları kontent və materiallar üçün daha geniş məlumat əldə etsinlər, şəhərsalma mövzuları, WUF13-ün əsas istiqamətləri və dialoqları ilə yaxından tanış olsunlar və nəticədə daha səmərəli işıqlandırma apara bilsinlər.

Əlavə edək ki, WUF13 ilə əlaqədar Azərbaycanın müxtəlif şəhərlərində WUF13 Festivalı keçiriləcək. Proqramı iki hissədən ibarət olacaq. Günün birinci yarısında tədbirin keçirildiyi şəhərlərdə WUF13 ilə bağlı məlumatlandırma sessiyaları təşkil ediləcək. Axşam saat 18:00-da isə festival açıq havada keçiriləcək ictimai proqramlarla davam edəcək.

Festival 29 aprel tarixində Sumqayıt şəhərinin Göyərçin parkında, 30 aprel tarixində Quba şəhərinin Nizami parkında, 2 may tarixində Lənkəran şəhərinin Qala Xiyabanı parkında, 4 may tarixində Qəbələ şəhərinin Heydər Əliyev parkında, 5 may tarixində Şəki şəhərinin Bəxtiyar Vahabzadə parkında, 6 may tarixində Mingəçevir şəhərinin Heydər Əliyev meydanında, 8 may tarixində Gəncə şəhərinin Heydər Əliyev adına meydanında, 10 may tarixində Xankəndi şəhərinin Zəfər meydanında, 12 mayda Sumqayıtda və 13 may tarixində Bakıda keçiriləcək.

Qeyd edək ki, bu günə olan məlumata görə, Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasında iştirak üçün 800-dən çox media nümayəndəsi akkreditasiyadan keçib. WUF13-ə akkreditasiya olunmuş kütləvi informasiya vasitələri nümayəndələrinin 70 faizdən çoxunu yerli media təşkil edir. Forum üçün qeydiyyatdan keçmiş iştirakçıların ümumi sayı 21 min nəfəri ötüb ki, bu da forumun beynəlxalq miqyasda böyük maraq doğurduğunu göstərir.

***N.ETİBAROĞLU***
***XQ***

# BTC 250 min ton "Kaşaqan" nefti nəql edəcək

**2026-cı ildə Qazaxıstanın "Kaşaqan" yatağından hasil edilən neftin müəyyən hissəsi Bakı-Tbilisi-Ceyhan əsas ixrac kəməri (BTC) vasitəsilə nəql olunacaq. Bu barədə Qazaxıstanın "KazMunayQaz" Milli Şirkətinin törəmə müəssisəsi olan "KMG Kashagan B.V." şirkətinin baş direktorunun müavini Kuanış Keskinbayev məlumat verib.**



"Kaşaqan" layihəsi çərçivəsində məhsulun bölüşdürülməsi haqqında sazişin mövcudluğunu xatırladan baş direktor müavini deyib ki, "KazMunayGaz"ı təmsil edən səhmdarlar bu il, təxminən, 250 min ton neftin BTC ilə nəqlini planlaşdırırlar. Şirkət rəsmisinin sözlərinə görə, BTC neft kəməri Aralıq dənizinə çıxdığı üçün Qazaxıstan tərəfi üçün daha əlverişlidir, Bakı-Supsa kəməri ilə müqayisədə isə bu üstünlük daha aydın görünür, çünki həmin kəmər Qara dəniz sahillərinə çıxış təmin edir. "Bakı-Supsa neft kəməri Qara dənizə çıxır. Bizim artıq digər marşrutlar vasitəsilə Qara dənizə çıxışımız var. Və yenidən yüksək tariflə Qara dənizə çıxış əldə etməyin mənası yoxdur. BTC isə Aralıq dənizinə çıxır, buna görə əlverişlidir", – deyə o vurğulayıb.

Xatırladaq ki, 2022-ci ildə "KazMunayGaz" və SOCAR arasında Qazaxıstan neftinin tranziti haqqında saziş imzalanıb. "Kaşaqan" yatağında ötən il 18,2 milyon ton neft hasil edilib. Bununla belə, Kuanış Keskinbayevin sözlərinə görə, 2026-cı ildə yataqda hasilatın müvəqqəti azalması gözlənilir ki, bu da iyun ayında, təxminən, ayyarım davam edəcək əsaslı təmirin planlaşdırılması ilə bağlıdır.

***XQ***

*BMT-nin dəstək çağırışı*

# Qlobal aclıq dünyanın çağdaş bəlası və utancıdır

## *Hərbi xərclərin trilyonları aşdığı dövrdə 266 milyon insan ölümlə üz-üzədir*

**Müasir dünyada ərzaq təhlükəsizliyi problemi getdikcə daha çox geosiyasi və iqtisadi gündəliyin əsas mövzusuna çevrilir. BMT-nin ixtisaslaşmış qurumları – Ərzaq və Kənd Təsərrüfatı və Ümumdünya Meteorologiya təşkilatlarının aprelin 22-də yaydığı "Qida böhranları üzrə qlobal hesabat"da münaqişələrdən əziyyət çəkən bir sıra dövlətlərdə hazırda qlobal aclıq probleminin ciddi narahatlıq doğurduğu bildirilir. Sənəddə, ümumiyyətlə, ötən il 47 ölkədə 266 milyon insanın kəskin qida təhlükəsizliyi ilə üzləşdiyi qeyd edilir.**



Sənəddə deyilir ki, artıq aclıq müəyyən bir ərazini əhatə edən və ya qısa zaman ərzində özünü göstərən müvəqqəti problem deyil, bu, qlobal sistemin struktur çatışmazlıqlarının, eləcə də silahlı münaqişələrin nəticəsi kimi sürətlə dərinləşən bir böhrandır. BMT-nin Baş katibi Antoniu Quterreş adıçəkilən hesabatda bu vəziyyəti "hərəkətə keçmək üçün çağırış" kimi qiymətləndirərək siyasi iradənin gücləndirilməsinin vacibliyini önə çəkir.

Hazırda Əfqanıstan, Sudan, Yəmən və Suriya kimi dövlətlərdə ərzaq çatışmazlığı ən təhlükəli həddə çatıb. Bu ölkələrdə kənd təsərrüfatı infrastrukturu dağıdılıb, istehsal zəncirləri pozulub və əhali kütləvi şəkildə humanitar yardımdan asılı vəziyyətə düşüb. Münaqişə yalnız mövcud resursları məhv etməyib, həm də gələcək istehsal imkanlarını məhdudlaşdıraraq aclığın davamlılığını gerçəkləşdirib.

### Ərzaq qıtlığının səbəbləri

**Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli** qlobal aclığın dərinləşməsində əsas amillər sırasında iqlim dəyişikliyinin mənfi təsirlərinin, məsələn, quraqlıq, sel və ciddi narahatlıq doğuran digər təbiət hadisələri kimi halların kənd təsərrüfatına ağır zərbə vurduğunu deyir. Onun sözlərinə görə, iqlim dəyişikliyi ekoloji hadisə olmaqla bərabər, həm də iqtisadi və sosial təhlükə mənbəyi kimi ərzaq təhlükəsizliyinə mənfi təsir göstərir. Başqa sözlə, enerji qiymətlərinin artması, ticarət məhdudiyyətləri və logistika zəncirlərindəki çətinliklər ərzaq qiymətlərinin bahalaşmasına gətirib çıxarır. Akif Nəsirlinin qeyd etdiyi kimi, 2026-cı ildə qlobal iqtisadi artımın 2,7 faizə enməsi gözlənilir ki, bu da iqtisadi fəallığın zəifləyəcəyindən xəbər verir.

İqlim dəyişiklikləri, silahlı münaqişələr və iqtisadi qeyri-sabitlik səbəbindən dünyada milyonlarla insanın kəskin ərzaq çatışmazlığı ilə üz-üzə qaldığını və bu vəziyyətin xüsusilə Afrika, eləcə də Yaxın Şərq regionlarında daha da ağırlaşdığını bildirən Liberal İqtisadçılar Mərkəzinin sədri açıqlamasında BMT-nin 2026-cı il üçün proqnozunun, həqiqətən, ərzaq sistemində ciddi narahatlıq doğurduğunu, amma bunun hələ birbaşa "böhran qapıdadır" demək olmadığını xatırladır. O, sözügedən hesabata əsaslanaraq, qlobal iqtisadi artımın 2026-cı ildə 2,7 faiz təşkil edəcəyini, bu göstəricinin 2025-ci ildəki 2,8 faizdən bir az aşağı düşəcəyini və pandemiyadan əvvəlki orta 3,2 faizdən xeyli zəiflədiyini deyir.

Ekspert, eyni zamanda, beynəlxalq reytinq təşkilatları tərəfindən Asiya – Sakit okean regionunda isə artımın 4,6 faizdən 4 faizə düşəcəyinin proqnozlaşdırıldığını, bunun əsas səbəblərinin isə Yaxın Şərqdə gərginliyin hökm sürməsi, enerji və ərzaq qiymətlərinin davamlı artması və ABŞ-ın 2025-ci ildə yüksək rüsumlar tətbiq etməsi ilə bağlı olacağını bildirir. A.Nəsirli 2026-cı ildə qlobal ticarət artımının 2,2 faizə enəcəyinin gözlənildiyini də diqqətə çatdıraraq bunun tam çökmə yox, sürətin zəifləməsi anlamına gəldiyini söyləyir.

Qlobal ərzaq böhranının dərinləşməsinə inkişaf etməkdə olan ölkələrin borcunun getdikcə çoxalması, faizlərin yüksəlməsi, dollar bahalaşması və kasıb ölkələrin ərzaq idxal edə bilməməsi kimi amillər də təsir göstərir. Bütün bunlar isə BMT-nin məlum mesajının heç də, necə deyərlər, bəşəriyyətin məhvi ilə nəticələnən qiyamət gününün yaxınlaşması anlamına gəlmir. Bu, daha çox yavaşlama və kövrəkliyi göstərir. Çünki iqtisadi artım müsbət, amma zəif nəzərə çarpır. Ticarət çökmür, sadəcə ləngiyir. Buna görə də ərzaq sistemləri əsasən istidən ciddi zərbə alır. Böhrann olub-olmaması isə növbəti bir ildə havadan, müharibələrdən və dövlətlərin birgə işləyib-işləməməsindən asılı olacaq.

### Uşaqlar çörək istəyirlər...

Aclıq böhranının ən ağır nəticələri uşaqlar üzərində müşahidə olunur. BMT-nin Uşaq Fondunun (UNICEF) məlumatına görə, hazırda 35 milyondan çox uşaq kəskin qidalanma çatışmazlığından əziyyət çəkir. Bu, yalnız sağlamlıq problemi ilə bağlı deyil, həm də gələcək nəsillərin fiziki və zehni inkişafına ciddi zərbədir. Məcburi köçkünlük də vəziyyəti daha da ağırlaşdırır. Münaqişə və iqlim səbəbindən evlərini tərk edən milyonlarla insan ərzaq resurslarına çıxış imkanlarını itirir. Belə bir ağır durum isə aclıq və yoxsulluq problemini daha da dərinləşdirir.

Beynəlxalq təşkilatların hesabatlarında artıq yanaşmanın dəyişilməsi zəruriliyi də vurğulanır. Başqa sözlə, bu zaman ənənəvi humanitar yardım modelindən daha çox dayanıqlı kənd təsərrüfatı sistemlərinin qurulmasına keçidin əhəmiyyəti önə çəkilir. Dünya dövlətlərində bu istiqamətdə bir neçə əsas layihə və təşəbbüsə üstünlük verilir. Məsələn, Afrika və Asiya ölkələrində kiçik fermerlərin dəstəklənməsi, suvarma sistemlərinin inkişafı və toxum banklarının yaradılması kimi prioritetlər diqqətdə saxlanılır.

Artıq iqtisadi qeyri-sabitlik hökm sürən dövlətlərdə qida böhranının aradan qaldırılması məqsədilə rəqəmsal kənd təsərrüfatı modelinin tətbiqinə böyük əhəmiyyət verilir. Mütəxəssislər bildirirlər ki, aqrar sektorda peyk monitorinqi, süni intellekt və aqrar məlumat sistemlərinin işə salınması məhsuldarlığın artırılması, son nəticədə isə ərzaq təhlükəsizliyinə mühüm töhfə verilməsi ilə nəticələnir.

### Azərbaycan dövlətinin ərzaq siyasəti

Yuxarıda sadalananlarla yanaşı, qida böhranı ilə mübarizədə quraqlığa davamlı bitki sortları, suya qənaət edən texnologiyalar və karbon emissiyasını azaldan üsullardan da geniş istifadə edilir. Qlobal ərzaq ehtiyatlarının idarə olunması da önəmli prioritet hesab olunur. Başqa sözlə, bəzi ölkələrdə strateji ərzaq ehtiyatları artıraraq bazar şoklarına qarşı dayanıqlılıq gücləndirilir.

Azərbaycanda da qlobal çağırışlar nəzərə alınaraq ərzaq təhlükəsizliyi strateji prioritet kimi müəyyənləşdirilib. Son illərdə bu istiqamətdə bir sıra mühüm layihələrin həyata keçirilməsinə başlanılıb. Məsələn, aqrar islahatlar və subsidiya mexanizmlərinə diqqət artırılıb. Başqa sözlə, fermerlərə dövlət dəstəyi genişləndirilib, subsidiya sistemi rəqəmsallaşdırılıb və kənd təsərrüfatında məhsuldarlıq artırılıb.

Müasir texnologiyalar əsasında qurulan aqroparklar isə irihəcmli və səmərəli istehsala imkan yaradır. İşğaldan azad olunmuş ərazilərdə "ağıllı kənd" layihələri kənd təsərrüfatında innovativ yanaşmaların tətbiqini şərtləndirir və uzunmüddətli ərzaq təhlükəsizliyinə xidmət edir. Bundan savayı, yeni su anbarlarının tikintisi və suvarma sistemlərinin yenilənməsi iqlim risklərinin azaldılmasına əsaslı təsir göstərir.

**Ərzaq təhlükəsizliyi eksperti Eldar Hacıyevin** sözlərinə görə, respublikada meliorasiya və suvarma layihələrinin həyata keçirilməsinin diqqətdə saxlanılması kənd təsərrüfatının inkişafını sürətləndirib. Ölkədə yeni su ehtiyatlarının idarə olunması strategiyası qəbul edilib, çox sayda su kanalı yenilənib və alternativ suvarma üsullarının (damcı suvarma və s.) təşviqinə önəm verilib. Su resurslarının səmərəli istifadəsi də məhsuldarlığın artmasına səbəb olub.

Yerli toxumçuluğun inkişafı da yeni mərhələyə yüksəlib. Bu mərhələdə strateji əhəmiyyətli toxum sortlarının yerli istehsalı çoxalıb. Bununla da həm xarici asılılıq azalıb, həm də məhsulun adaptasiya qabiliyyəti güclənib. Sənaye heyvandarlıq və quşçuluq təsərrüfatları genişləndirilib. Protein tələbatını yerli istehsal hesabına gerçəkləşdirmək üçün yeni iri komplekslərin yaradılmasına başlanıb. Bu sahənin dirçəldilməsi ilə idxaldan asılılıq minimuma endirilib.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən aqrar islahatlar bu gün kənd təsərrüfatının inkişafını daha da sürətləndirir və bu məqsədlə dövlət tərəfindən çox böyük dəstək layihələri gerçəkləşdirilir. Bunun nəticəsində fermerlərin həyat səviyyəsi getdikcə yüksəlir, aqrar sahənin dayanıqlı inkişafı təmin edilir.

Eldar Hacıyev qeyd edir ki, 30 il işğal altında qalmış Azərbaycan torpaqları minalanıb, su mənbələri çirkləndirilib, ətraf mühitə böyük ziyan vurulub. Azərbaycan torpaqlarını işğaldan azad etdikdən sonra həmin ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinin həyata keçirilməsinə başlanılıb. Məqsəd isə bu ərazilərin aqrar potensialından səmərəli istifadə etmək, dağıdılmış kənd təsərrüfatı infrastrukturunu yenidən qurmaq və bu torpaqlara yeni həyat bəxş etmək olub. Bu prosesdə ən müasir aqrar innovasiyaların tətbiqi diqqətdə saxlanılıb.

Beləliklə, BMT-nin son hesabatı bir daha göstərir ki, aclıq artıq humanitar yardım çərçivəsində həll edilə biləcək problem deyil. Bu, qlobal iqtisadi, siyasi və ekoloji sistemlərin qarşılıqlı təsirindən yaranan kompleks böhrandır. Dünya ölkələri, o cümlədən Azərbaycan da bu çağırışa cavab olaraq daha dayanıqlı, innovativ və inklüziv ərzaq sistemlərinin qurulmasına yönəlmiş siyasət həyata keçirməlidir. Əks halda, aclıq və qıtlıq sosial problem olmaqla yanaşı, həm də qlobal sabitliyi təhdid edən əsas amillərdən biri kimi qalmaqda davam edəcək.

### *Ekspert rəyi*



**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**

BMT-nin İqtisadi və Sosial Məsələlər üzrə Baş katibinin müavini Li Cunhuana mediaya müsahibəsində 2026-cı ildə qlobal iqtisadi artımın pandemiyadan əvvəlki səviyyədən də aşağı düşəcəyinin gözlənildiyini bildirir. Onun sözlərinə görə, qlobal ÜDM-in 2026-cı ildə 2,7 faiz, 2027-ci ildə isə 2,9 faiz artacağı proqnozlaşdırılır ki, bu da 2010-2019-cu illər üçün orta hesabla qeydə alınmış 3,2 faizdən aşağıdır. Li Cunhuana vurğulayıb ki, bu aşağı artım templəri iqtisadi zəiflikdən daha çox "dərin köklü struktur məhdudiyyətlərini" əks etdirir.

Artımı ləngidən əsas amillər daha çox inkişaf etməkdə olan ölkələrdə xarici birbaşa investisiyaların aşağı səviyyədə qalması və dövlət borc yükünün yüksək olaraq qalması ilə bağlıdır. Bundan əlavə, faiz ödənişləri milli büdcələrdə getdikcə daha çox pay tutur. Bu isə infrastruktura, insan kapitalına və iqlim dəyişikliyinə uyğunlaşma tədbirlərinə investisiya qoyuluşu imkanlarını məhdudlaşdırır.

BMT Baş katibinin müavini, həmçinin qeyd edib ki, süni intellektin tətbiqi məhsuldarlığın artmasına töhfə verir, lakin onun faydaları məhdud sayda böyük iqtisadiyyatlarda cəmləşib ki, bu da qlobal struktur problemlərini kompensasiya etmir.

Azərbaycana gəldikdə isə respublikamız qlobal ərzaq bazarlarındakı dəyişikliklərə daha həssas reaksiya verir. Bu həssaslığın bir neçə səbəbi var. Əvvəla, bu gün Azərbaycanın bəzi strateji ərzaq məhsullarında idxaldan asılılığı 30-60 faiz arasında dəyişir. Xüsusilə taxıl, şəkər, bitki yağları və bəzi növ tərəvəzlər üzrə ixrac həlledici rol oynayır. Beynəlxalq qiymətlər yüksəldikcə, idxal xərcləri də artır və bu, tədricən daxili pərakəndə bazara ötürülür.

Bu məsələdə daşınma və logistik xərclərin artması da, necə deyərlər, öz sözünü deyir. Belə ki, ölkəmizin coğrafi yerləşməsi əlverişli olsa da, idxal məhsullarının böyük hissəsi uzaq regionlardan gətirilir. Nəqliyyat xərcləri artdıqca, məhsulun son qiymətinə ciddi təsir göstərir.

Dünya bazarında dolların möhkəmlənməsi də ərzaq idxalını bahalaşdıran amillərdən biridir. Hər hansı kiçik valyuta dəyişməsi belə ərzaq qiymətlərində hiss olunan dalğalanmalara səbəb olur. Bu məsələdə yerli istehsalın struktur məhdudiyyətləri də təsirsiz ötüşmür. Son illərdə kənd təsərrüfatında mühüm irəliləyişlər əldə olunsa da, aqrar sektorun bəzi sahələrində məhsuldarlıq hələ də beynəlxalq standartlardan aşağıdır. Suvarma, gübrə, toxum və texnika təminatındakı müəyyən problemlər yerli istehsalın maya dəyərini yüksəldir və xarici məhsullarla rəqabəti çətinləşdirir.

Onu da qeyd edək ki, idxaldan asılılıq yalnız qiymət artımları baxımından deyil, həm də milli təhlükəsizlik kontekstində risk yaradır. Bu səbəbdən son illərdə Azərbaycan hökuməti aqrar sektorda struktur dəyişikliklər həyata keçirməyə başlayıb. Aqroparkların genişləndirilməsi ərzaq istehsalının sənaye üsulu ilə aparılmasına və məhsuldarlığın artırılmasına müsbət təsir göstərib.

***Vaqif BAYRAMOV***
***XQ***

*28 Aprel Ümumdünya Əməyin Mühafizəsi Günüdür*

# Təhlükəsiz əmək cəmiyyətə rifah və xoşbəxtlik gətirir

**Hər il aprelin 28-də qeyd edilən Ümumdünya Əməyin Mühafizəsi Günü iş yerlərində təhlükəsizliyin təmin edilməsinin vacibliyini bir daha gündəmə gətirir. Beynəlxalq Əmək Təşkilatı tərəfindən təsis edilən bu gün yalnız simvolik xarakter daşımır, eyni zamanda, əmək münasibətlərinin keyfiyyətini müəyyən edən əsas indikatorlardan biri kimi çıxış edir. Müasir dövrdə iqtisadi inkişafın sürətlənməsi, texnoloji yeniliklərin geniş tətbiqi və əmək bazarının transformasiyası əməyin mühafizəsi sahəsində yeni riskləri və çağırışları da aktuallaşdırır.**



Sosial dövlət modelinin əsas prioritetlərindən biri layiqli əməyin, təhlükəsiz və sağlam iş şəraitinin təmin olunmasıdır. Bu istiqamətdə həyata keçirilən ardıcıl islahatlar əmək münasibətlərinin müasir tələblərə uyğun inkişafına, işçi hüquqlarının daha etibarlı müdafiəsinə və əməyin mühafizəsi mədəniyyətinin formalaşdırılmasına xidmət edir.

"Əsas hədəfimiz əməyin mühafizəsi sahəsində preventiv yanaşmanın gücləndirilməsidir. Rəqəmsal həllər, qanunvericilikdə aparılan yeniliklər və genişmiqyaslı maarifləndirmə tədbirləri ölkədə təhlükəsiz və sağlam əmək mühitinin formalaşmasına xidmət edir". Bu fikirləri XQ-yə **Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi Vəli Quliyev** bildirdi:



– Azərbaycan Respublikasında sosial dövlət modelinin əsas prioritetlərindən biri layiqli əməyin, təhlükəsiz və sağlam iş şəraitinin təmin olunmasıdır. Bu istiqamətdə həyata keçirilən ardıcıl islahatlar əmək münasibətlərinin müasir tələblərə uyğun inkişafına, işçi hüquqlarının daha etibarlı müdafiəsinə və əməyin mühafizəsi mədəniyyətinin formalaşdırılmasına xidmət edir.

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi sosial siyasət kursu əsasında ölkəmizdə əmək hüquqlarının qorunması üzrə möhkəm hüquqi baza yaradılıb, Prezident İlham Əliyevin rəhbərliyi ilə bu sahədə islahatlar yeni mərhələyə qədəm qoyub. Bu gün əməyin mühafizəsi yalnız qanunvericilik tələbi deyil, həm də insan kapitalının qorunması, istehsalatda dayanıqlılığın təmin edilməsi və sosial rifahın yüksəldilməsi baxımından strateji əhəmiyyət daşıyır.

Məlumdur ki, əməyin mühafizəsi yalnız fiziki təhlükəsizlik tədbirləri ilə məhdudlaşmır. İş yükü, iş və istirahət vaxtının təşkili, iş yerində münasibətlər və ümumi psixoloji mühit işçinin sağlamlığına, təhlükəsizliyinə və əmək məhsuldarlığına birbaşa təsir göstərir. Ona görə də həmin amillərin sistemli şəkildə qiymətləndirilməsi və aradan qaldırılması zəruridir.

Dövlət Əmək Müfəttişliyi Xidməti ardıcıl şəkildə əməyin mühafizəsi sahəsində nəzarət mexanizmləri ilə yanaşı, maarifləndirmə və preventiv tədbirlər də həyata keçirir.

"Əmək və məşğulluq" (ƏMAS) e-platforması üzərindən istehsalatda baş verən bədbəxt hadisələr üzrə elektron reyestrin formalaşdırılması, zərərli və təhlükəli iş yerlərinin attestasiyası, elektron audit və digər rəqəmsal modullar əməyin mühafizəsi sahəsində risklərin çevik təhlili və proaktiv yanaşmanın əsas komponentlərindən biridir.

2023-cü ildən xidmətin tabeliyində fəaliyyət göstərən Əməyin Mühafizəsi Mərkəzində təlim maarifləndirmə tədbirləri təşkil olunur, iş yerlərinin attestasiyası və əməyin mühafizəsi üzrə tədbirlər həyata keçirilir. Təkcə 2025-ci ildə ümumilikdə 5 minə yaxın işçi və mütəxəssis müxtəlif təlim proqramlarında iştirak edib. 130-dan çox təlim və tədbirdə istehsalatda baş verən bədbəxt hadisələrin araşdırılması və uçota alınması, əməyin mühafizəsi xidmətinin təşkili, müvafiq norma və qaydalar, icbari sığorta, iş yerlərinin attestasiyası, ilk tibbi yardım və yanğın təhlükəsizliyi kimi mövzulara toxunulub. ANAMA və digər sosial tərəfdaşlarla birgə maarifləndirmə tədbirləri təşkil olunub. 2023–2025-ci illərdə keçirilən 115 təlimdə 9 min 700, bu ilin I rübündə isə 76 maarifləndirmədə əməyin mühafizəsi mövzusu üzrə 4 min 500 nəfər iştirak edib. Əməyin mühafizəsi mədəniyyətinin formalaşdırılması məqsədilə təhsil müəssisələrində də təlimlər keçirilib.

**Müsahibimiz əməyin mühafizəsi sahəsində dövlət standartlarının hazırlanması istiqamətində də mühüm addımlar atıldığını qeyd edərək söylədi ki, ötən il əmək sahəsində 110 yeni dövlət standartı qəbul edilib:**

– Bununla da ümumi standartların sayı 167-yə çatdırılaraq normativ baza daha da təkmilləşdirilib. İş yerlərinin attestasiyası istiqamətində ardıcıl fəaliyyət davam etdirilib, müəssisələrdə təhlükəli və zərərli istehsalat amilləri qiymətləndirilib. 16 yanvar 2026-cı il tarixində ölkə Prezidenti əmək münasibətləri ilə bağlı qanunvericilikdə dəyişiklikləri təsdiq edərək müvafiq qanunun tətbiqi və bəzi fərmanlara dəyişiklik edilməsi barədə müvafiq fərman imzalayıb. Aparılan islahatlar çərçivəsində bir sıra normativ hüquqi aktlara ümumilikdə 400-dən çox dəyişiklik edilib. Bu dəyişikliklər Beynəlxalq Əmək Təşkilatının konvensiyaları və beynəlxalq təcrübəyə uyğun olaraq əmək qanunvericiliyinin təkmilləşdirilməsi, işçi hüquqlarının daha etibarlı müdafiə mexanizminin, əmək münasibətlərində çevik və sosialyönlü hüquqi tənzimləmələrin tətbiqi, müasir tələblərə uyğun yeni anlayışların qanunvericiliyə gətirilməsi məqsədi daşıyır.

Əməyin mühafizəsi sahəsində tələblərin tətbiq dairəsi genişləndirilib, fiziki şəxs olan işəgötürənlər ayrıca subyekt kimi müəyyən edilib, təlim və təlimatlandırma mexanizmləri konkretləşdirilib və təlimatlandırılmanın elektron uçot imkanları əlavə olunub. Həmçinin əməyin mühafizəsi tədbirlərinin maliyyələşdirilməsi üzrə minimum hədlər müəyyən edilib və əməyin mühafizəsi xidmətlərinin təşkili ilə bağlı qaydalar genişləndirilib.

Ölkəmiz BƏT-in 60 konvensiyasını və 1 protokolunu ratifikasiya etməklə MDB məkanında ən çox BƏT sənədlərini qəbul edən dövlətlərdən birinə çevrilib. BƏT-in 4 əsas və 10 fundamental Konvensiyasını qəbul edən ölkə statusu təmin olunub. Hazırda bu konvensiyalara uyğunluğun təmin olunması məqsədilə əməyin mühafizəsi sahəsində bir sıra normativ aktlara dəyişiklik layihələri hazırlanır.

Əməyin mühafizəsi mədəniyyətinin formalaşdırılması istiqamətində həyata keçirilən layihələr arasında xidmətin Milli Observatoriya ilə birgə layihəsi olan "DOST Müfəttiş"ini xüsusi qeyd etmək istərdim. Layihədə könüllü iştirak üçün müraciət edən işəgötürənlərdə əməyin mühafizəsi və elektron altsistemlərdən istifadə, əmək qanunvericiliyinin tətbiqi və insan resurslarının idarə edilməsi üzrə ekspertlər tərəfindən diaqnostik qiymətləndirmələr aparılır, mövcud boşluqlar aşkar edilir, onların həlli üçün tövsiyələr verilir, təlimlər təşkil olunur. Layihə beynəlxalq təcrübədə istifadə edilən özünü qiymətləndirmə və özünü təftiş ("self-inspection") modeli əsasında risklərin erkən müəyyənləşdirilməsinə imkan yaradır və bu vaxta kimi 28 müəssisədə uğurla tətbiq edilib. Onu da qeyd edim ki, layihə ödənişsiz əsaslarla həyata keçirilir.

Xidmət rəisi onu da bildirdi ki, əməyin Mühafizəsi Mərkəzi tərəfindən icra olunan "Nümunəvi müəssisə" layihəsi mövcuddur. Bu layihə seçilmiş müəssisədə əməyin mühafizəsi standartlarına uyğun olaraq təhlükəsiz iş şəraitinin yaradılmasının təmini və digər müəssisələr üçün nümunəvi müəssisənin təcrübəsinin öyrənilməsinin təşkilini nəzərdə tutur. Layihənin əsas məqsədi preventiv həllərin təqdim olunmasıdır. Belə ki, mütəmadi təlimlər vasitəsilə işçilərdə təhlükəsiz davranış vərdişlərinin formalaşdırılması, qəzasız iş mühitinin təmin edilməsi və müasir texnologiyaların tətbiqi ilə insan xətası ehtimalının minimuma endirilməsi nəzərdə tutulur.

Eyni zamanda, layihə nümunəvi iş şəraiti yaradaraq digər müəssisələr arasında müsbət rəqabətin formalaşdırılmasını hədəfləyir. Belə ki, bu layihə çərçivəsində müəssisələrdə əməyin mühafizəsi norma, standart və qaydalarının tətbiqi, işçilərin bu sahədə təlimatlandırılması, eləcə də risklərin idarə olunması üzrə birgə tədbirlər təşkil olunur. Artıq Abşeron-Xızı iqtisadi rayonunda, Qarabağda və Naxçıvan Muxtar Respublikasında nümunəvi müəssisələr yaradılıb. Bu müəssisələrdə yaradılmış təhlükəsiz iş şəraiti mütəmadi olaraq təşkil olunan mediatur və infoturlar vasitəsilə yerində nümayiş etdirilir.

Hazırda əsas hədəfimiz fəaliyyətimizi daha çox preventiv və proaktiv yanaşma əsasında qurmaqdır. Əmək hüquqlarının pozulmasının qarşısının alınması, risklərin erkən mərhələdə müəyyən edilməsi və problemlərin operativ həlli diqqət mərkəzində saxlanılır. Eyni zamanda, istehsalat qəzalarının və peşə xəstəliklərinin azaldılması prioritet olaraq qalır. Bu baxımdan "Vision Zero" yanaşması xüsusi əhəmiyyət daşıyır. Yanaşmanın əsas fəlsəfəsi ondan ibarətdir ki, heç bir bədbəxt hadisə qaçılmaz deyil və düzgün idarəetmə, risklərin vaxtında müəyyən edilməsi və təhlükəsizlik mədəniyyətinin gücləndirilməsi ilə onların qarşısını almaq mümkündür.

"Vision Zero" yanaşmasının 7 qızıl qaydası bu istiqamətdə mühüm əhəmiyyət daşıyır. Bu qaydalara liderlik və prinsiplərə sadiqliyin artırılması, təhlükələrin müəyyən edilməsi və risklərin idarə olunması, məqsədlərin müəyyənləşdirilməsi və proqramların hazırlanması, təhlükəsizlik və əməyin gigiyenası sisteminin qurulması, iş yerlərində təhlükəsizlik və gigiyenanın təmin edilməsi, ixtisas səviyyəsinin artırılması və peşəkar bacarıqların inkişaf etdirilməsi, həmçinin kadr potensialına investisiya qoyuluşu və iştirakçılığın təşviqi daxildir.

Beynəlxalq Əmək Təşkilatı və Beynəlxalq Sosial Təminat Assosiasiyasının (ISSA) təşəbbüsü olan bu qaydalar iş yerlərində təhlükəsiz və sağlam mühitin yaradılmasına, risklərin minimuma endirilməsinə və davamlı təhlükəsizlik mədəniyyətinin formalaşdırılmasına xidmət edir.

***Mustafa KAMAL***
***XQ***

# Şəfqətli ömrün kamillik dünyası

**Müstəqil Azərbaycan Respublikası son illərdə öz tarixinin ən möhtəşəm dövrlərindən birini yaşamaqdadır. Ölkəmiz Cənubi Qafqaza sülh və əmin-amanlıq gətirərək, regional güc və lider dövlət statusunu əldə etmişdir. Xalqımızın maraqlarını yüksək səviyyədə qoruyan dövlət başçımızın, Silahlı Qüvvələrimizin və diplomatiyamızın gücündən artıq bütün dünya xəbərdardır.**

Respublikamızın tarixində silinməz iz buraxan böyük uğurların əldə olunmasında, ilk növbədə, müstəqil Azərbaycan dövlətinin banisi, ömrünü xalqının rifahına, müstəqilliyinin və milli dövlətçiliyinin möhkəmlənməsinə həsr etmiş ümummilli lider Heydər Əliyevin və onun layiqli davamçısı, müasir Azərbaycanın siyasi və mənəvi simasının formalaşmasında baş rolu oynamış, ölkənin ərazi bütövlüyünü və suverenliyini tam təmin edərək tarixə Müzəffər Ali Baş Komandan kimi düşmüş Prezident İlham Əliyevin xidmətləri danılmazdır.

Azərbaycanın bugünkü səviyyəyə gəlməsində ulu öndərin ömür-gün və əqidə yoldaşı, sədaqətli silahdaşı olmuş, İlham Əliyevin bir şəxsiyyət kimi yetişməsində təsiri hiss olunan qayğıkeş ANA, şəfqətli həkim, böyük alim, gözəl insan, Əməkdar elm xadimi, Azərbaycan Elmlər Akademiyasının (EA) həqiqi üzvü, tibb elmləri doktoru, professor Zərifə xanım Əliyevanın da böyük payı vardır.

Zərifə xanım Əliyeva Azərbaycanda oftalmologiya elmi məktəbinin əsasını qoymuş, öz elmi nailiyyətləri ilə insanların dünyanı görmə biçiminə də işıq salan bir irs əmanət etmişdir. Həyatının hər bir səhifəsi mənəvi kamillik və müdriklik məktəbi olan bu böyük insanın həyat yolu və fəaliyyəti elmin, vətəndaşlıq mövqeyinin və insani dəyərlərin vəhdətinin parlaq nümunəsidir. Alimin oftalmologiya sahəsindəki tədqiqatları sanki qaranlıqla işıq arasında körpü salaraq, insan gözünə sadəcə görmə deyil, dərketmə imkanı da bəxş etmişdir. Zərifə Əliyevanın elmi fəaliyyəti nəticəsində minlərlə şəxs yenidən rəngləri seçə, günəşin doğuşunu izləyə, təbiətin incə çalarlarını hiss edə bilmişdir. Görmə qabiliyyəti bərpa olunan insan üçün dünya sanki yenidən yaradılır: hər yarpaq, hər işıq kölgəsi yeni bir möcüzəyə çevrilir.

Yaşıl dünya anlayışı da burada xüsusi yer tutur. Təbiətin yaşıllığı, landşaftın harmoniyası, dağların əzəməti və çayların sakit axını yalnız sağlam gözlərlə tam mənada qavranıla bilər.

Güclü genetik istedada, mərhəmətli, kövrək qəlbə, ən saf milli dəyərlərə və ruha sahib olması ilə fərqlənən Zərifə xanım Əliyeva 28 aprel 1923-cü ildə qədim Naxçıvanın Şahtaxtı kəndində böyük alim, həkim və ictimai-siyasi xadim Əziz Əliyevin ailəsində dünyaya göz açmış, intellektual ab-havanın, zəhmətkeşlik və məsuliyyət kimi dəyərlərin hökm sürdüyü bir ailə atmosferində böyümüş və kamilləşmişdir.

Gənc Zərifənin orta məktəbi bitirdiyi 1942-ci ildə ön cəbhədə gedən amansız döyüşlər, çoxalan itkilər və çətinliklər ölkədə ixtisaslı tibbi kadrlara olan ehtiyacı getdikcə daha da artırırdı. Belə bir tarixi məqamda Zərifə Əliyeva atasının yolunu davam etdirməyi seçərək, həyatını insanların sağlamlığının qorunmasına həsr etmək qərarına gəlmişdir.

1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirən gənc həkim peşəkarlıq hazırlığını daha da dərinləşdirmək məqsədilə Moskvada Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya ixtisası üzrə təhsilini davam etdirmişdir.

Zərifə Əliyeva elmi fəaliyyətə 1949-cu ildə Azərbaycan SSR Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda başlamış, tədqiqatlarını həmin dövrdə respublikada geniş yayılmış traxoma xəstəliyi ilə mübarizəyə həsr etmişdir. Onun 1959-cu ildə müdafiə etdiyi namizədlik dissertasiyasında irəli sürülən müalicəvi yanaşmaları sonradan praktiki səhiyyədə tətbiq olunaraq, xəstəliyin yayılmasının qarşısının alınmasında və onun sosial təhlükə mənbəyi kimi aradan qaldırılmasında mühüm rol oynamışdır.

Alimin elmi-pedaqoji fəaliyyəti 1967-ci ildən Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu ilə sıx şəkildə bağlı olmuşdur. Burada 1969-cu ildə onun təşəbbüsü ilə Görmə orqanının peşə patologiyası laboratoriyasının yaradılması Azərbaycan oftalmologiyasında yeni istiqamətin əsasını qoymuşdur. Sonrakı illərdə professor və kafedra müdiri kimi fəaliyyət göstərən Zərifə Əliyeva müasir metodoloji yanaşmaların tətbiqi və yüksəkixtisaslı mütəxəssislərin hazırlanması sahəsində əhəmiyyətli nailiyyətlər əldə etmişdir.

Zərifə Əliyeva 1968-ci ildən etibarən elmi fəaliyyətinin prioritet istiqamətini sənaye mühitində çalışan işçilərdə görmə orqanının peşə patologiyalarının sistemli tədqiqinə yönəltmişdir. Aparılan fundamental və tətbiqi araşdırmaların ümumiləşdirilmiş nəticələri 1976-cı ildə Moskvada, M.Helmholts adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etdiyi doktorluq dissertasiyasında öz əksini tapmış, alim 1977-ci ildə tibb elmləri doktoru elmi dərəcəsi, 1979-cu ildə isə professor elmi adını almışdır. Onun elmi nailiyyətləri və yüksəkixtisaslı kadrların hazırlanmasına verdiyi töhfələr, məntiqi olaraq, 1983-cü ildə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi ilə nəticələnmişdir.

Zərifə Əliyeva dünya tibb elminə təxminən 200 elmi əsər, 14 fundamental monoqrafiya və 12 səmərələşdirici təklif bəxş etmiş, bununla yanaşı, ətrafında güclü və davamlı elmi mühit formalaşdırmışdır.

Akademik Zərifə Əliyevanın elmi-tibbi irsi oftalmologiyanın, demək olar ki, bütün aparıcı istiqamətlərini əhatə edən sistemli və fundamental bir platforma təşkil edir. Alimin infeksion və virus oftalmologiyası sahəsində apardığı tədqiqatlar xüsusilə diqqətəlayiqdir. "Herpetik göz xəstəliyi" və "Kəskin virus konyunktivitləri" əsərləri də infeksion mənşəli göz patologiyalarının diferensial diaqnostikası və effektiv müalicə prinsiplərinin işlənib hazırlanmasına mühüm elmi töhfə vermişdir. Göz yaşı yollarının cərrahiyyəsi sahəsində Zərifə Əliyeva fundamental yanaşmalar irəli sürmüş, "Göz yaşı drenajının fiziologiyası" və "Göz yaşı axmasının cərrahi müalicəsinin müasir üsulları" kimi monoqrafiyalarında həmin sahənin nəzəri və praktiki əsaslarını dərindən işləyib hazırlamışdır.

Alimin elmi yaradıcılığında xüsusi yer tutan istiqamətlərdən biri də iridodiaqnostikadır. "İridodiaqnostikanın əsasları" adlı monoqrafiya bu sahədə ilk sistemli elmi əsərlərdən biri kimi diqqəti cəlb edir. Alim qeyd olunan əsərində iridodiaqnostikanı orqanizmin patoloji proseslərini erkən mərhələdə aşkarlamağa imkan verən sistemli bir diaqnostik vasitə kimi təqdim etmişdir.

Zərifə Əliyevanın klinik oftalmologiya və mikrocərrahiyyə sahəsindəki çoxşaxəli tədqiqatları onun elmi irsinin ən geniş və praktik əhəmiyyət kəsb edən hissəsini təşkil edir. "Oftalmologiyanın aktual problemləri", "Terapevtik oftalmologiya", "Görmə orqanının vərəmi", "Qlaukoma və gözün hipertenziyası", "Görmə orqanının zədələnməsi", "Göz yaşı axmasının fiziologiya və histologiyası", "Şəkərli diabetdə göz xəstəlikləri", "Gözün mikrocərrahiyyəsi" və "Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası" kimi əsərlərində oftalmologiyanın, demək olar ki, bütün əsas problemləri kompleks şəkildə təhlil edilmişdir.

Bu fundamental tədqiqatlar gözün bədxassəli şişlərinin, o cümlədən melanomanın klinik xüsusiyyətlərinin öyrənilməsindən başlayaraq, şəkərli diabet fonunda yaranan oftalmoloji ağırlaşmaların mexanizmlərinin izahına qədər bir çox mürəkkəb məsələlərə elmi aydınlıq gətirmişdir.

Zərifə Əliyevanın düşüncəsində həkim peşəsinin həqiqi dəyəri onun xəstəyə münasibətində, daxili saflığında və mənəvi bütövlüyündə təzahür edir. Bu baxışların sistemli ifadəsi alimin "Yüksək əqidə: (həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı)" əsərində öz əksini tapır. Zərifə xanım ən sadə insanların qayğılarına həssaslıqla yanaşmağı, hər bir xəstəyə fərdi və diqqətli münasibət göstərməyi həkimliyin ayrılmaz tələbi kimi qəbul edir və bu prinsiplərə sadiqliyini öz əməli fəaliyyəti ilə daim nümayiş etdirirdi.

Tibb elmində "peşə oftalmologiyası" istiqamətinin banisi kimi tanınan akademik Zərifə Əliyeva görmə orqanının peşə patologiyalarının öyrənilməsi və profilaktikası sahəsində keçmiş SSRİ məkanında fundamental elmi məktəb yaratmışdır. Alimin 1960-1970-ci illərdə apardığı sistemli və genişmiqyaslı tədqiqatlar aşağı intensivlikli zərərli istehsalat amillərinin uzunmüddətli təsiri nəticəsində formalaşan qeyri-spesifik patologiyaların, habelə orqanizmin adaptiv-kompensator reaksiyalarının elmi əsaslarla izahına yönəlmişdir.

Akademik Zərifə Əliyevanın elmi dünyagörüşü görmə sağlamlığını ekoloji, sosial və cəmiyyət kontekstində dəyərləndirirdi. O, xüsusilə, şəhər mühitində yaşıl landşaft memarlığının rolunu mühüm amil kimi önə çəkirdi. Alimin möqeyi belə idi ki, yaşıllıq sistemləri – parklar, meşə zolaqları, bulvarlar və funksional "yaşıl dəhlizlər" şəhər strukturunun estetik komponenti olmaqdan daha çox, insan sağlamlığını qoruyan mühüm bioloji və sanitar infrastrukturdur.

Zərifə Əliyeva elmi əsaslarla göstərirdi ki, intensiv yaşıllaşdırılmış mühit görmə orqanına təsir edən zərərli amillərin, o cümlədən toz, aerozol hissəcikləri, kimyəvi buxarlar və həddindən artıq işıq yükü kimi amillərin təsirini əhəmiyyətli dərəcədə zəiflədir. Bitki örtüyü həm filtrasiya, həm də biofiziki tənzimləmə funksiyalarını yerinə yetirərək havanın keyfiyyətini yaxşılaşdırır, oksigen balansını optimallaşdırır və şəhər mühitində vizual komfort yaradır.

Alim sənaye müəssisələrinin ətrafında sanitar-mühafizə zonalarının təşkilini və bu zonaların intensiv yaşıllaşdırılmasını zəruri hesab edərək, şəhərsalma planlaşdırılmasında ekoloji-kompensator mexanizmlərin tətbiqini elmi arqumentlərlə əsaslandırırdı. Onun konsepsiyasında yaşıl landşaft memarlığı təkcə rekreasiya və estetik funksiyalar daşımır, eyni zamanda, profilaktik təbabətin, xüsusilə oftalmoloji sağlamlığın qorunmasının ayrılmaz komponenti kimi çıxış edir. Zərifə xanım ekoloji mədəniyyətin formalaşdırılması və yaşıllaşdırma ideyalarının ictimai şüurda möhkəmlənməsi üçün şəxsi nümunələr göstərmiş, ağacəkmə təşəbbüslərində fəal iştirak etmişdir.

Alimin 1977-ci ildə Bakı Məişət Kondisionerləri zavodunda ilk ixtisaslaşmış elmi-tədqiqat laboratoriyasını yaratması sənaye şəraitində çalışan işçilərin görmə orqanının patologiyalarının kompleks və məqsədyönlü şəkildə öyrənilməsi üçün fundamental institusional baza formalaşdırmışdır.

Zərifə Əliyevanın tədqiqat yanaşması gözün morfofunksional xüsusiyyətlərinin biotibbi elmlərin (xüsusilə fiziologiyanın) nəzəri çərçivəsində öyrənilməsini zəruri edirdi. Bu elmi məntiqin davamı olaraq, 1979-cu ildə Azərbaycan EA-nın Akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunda SSRİ məkanında ilk dəfə Görmə orqanının fiziologiyası və peşə patologiyası laboratoriyasının yaradılması təmin edilmişdir.

Aparılan bu çoxşaxəli və metodoloji baxımdan dərin tədqiqatların nəticələri Ümumittifaq və beynəlxalq elmi ictimaiyyət tərəfindən də yüksək qiymətləndirilmişdir. Belə ki, akademik Zərifə Əliyeva 1981-ci ildə oftalmologiya sahəsində SSRİ Tibb Elmləri Akademiyasının ən nüfuzlu elmi mükafatlarından biri olan M.İ.Averbax adına mükafata layiq görülmüşdür. Bu fakt xüsusi qeyd olunmalıdır ki, o, sözügedən mükafatı alan ilk qadın alim olmuşdur.

Zərifə Əliyevanın elmi maraq dairəsində görmə orqanının, görmə analizatorunun yaşla bağlı dəyişikliklərinin tədqiqi də xüsusi yer tuturdu. O, "Gözün və görmə siniri yolunun yaşla əlaqədar dəyişiklikləri: morfohistokimyəvi tədqiqatlar" kitabı ilə oftalmoloji herontologiyanın əsasını qoymuşdur.

2025-ci ildə akademik Zərifə Əliyevanın akademik Larisa Moşetova və professor Nina Şulpina ilə 1983-cü ildə rus dilində nəşr etdirdikləri "Oftalmologiyanın aktual problemləri" monoqrafiyasının ilk dəfə olaraq ingilis dilinə tərcümə edilərək nəfis şəkildə çapdan çıxması böyük alimin əziz xatirəsinə dəyərli hədiyyə hesab edilə bilər. Monoqrafiyaya AMEA-nın prezidenti akademik İsa Həbibbəyli və müəlliflərdən biri – Rusiya Fasiləsiz Peşəkarlıq Təhsili Tibb Akademiyasının prezidenti, akademik Larisa Moşetova ön söz yazmışlar. Bu qiymətli əsər həkimin mənəvi tərbiyəsi, deontologiya məsələləri, tibbi etika və əxlaq, göz biomikroskopiyasının müasir aspektləri, göz virologiyasının əsasları, görmə orqanının zədələnmələri və göz mikrocərrahiyyəsinin propedevtikası kimi oftalmologiyanın aktual məsələlərini əhatə edir.

Akademik Zərifə Əliyeva elmi-ictimai fəaliyyətində sülh, humanizm və sosial rifah prinsiplərini ön plana çəkməklə cəmiyyətdə müstəsna bir nüfuz qazanmışdı. O, SSRİ Sülhü Müdafiə



Komitəsinin üzvü və Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini kimi fəaliyyətləri ilə regionda və dünyada əmin-amanlığın təmin olunmasına öz töhfəsini vermişdir. Eyni zamanda, "Bilik" Cəmiyyətinin İdarə Heyəti, Elmi Tədqiqatlar Komitəsinin Rəyasət Heyəti, SSRİ Oftalmoloqlar Cəmiyyətinin Rəyasət Heyəti və nüfuzlu "Vestnık oftalmoloqii" jurnalının redaksiya heyətindəki təmsilçiliyi alim-təbibin dövlət və xalq qarşısındakı xidmətlərinin geniş spektrini nümayiş etdirir.

Akademik Zərifə Əliyevanın insan amilinə, sağlam ətraf mühitə və maarifçiliyə verdiyi prioritet əhəmiyyət müasir dövrdə sistemli dövlət siyasətinin mühüm komponentlərindən biri kimi öz əksini tapır. Bu ideya xətti Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətində konseptual əsas kimi çıxış edir.

Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən təşəbbüslər, xüsusilə ölkənin sosial-iqtisadi inkişaf strategiyasında mühüm yer tutan "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" prioriteti Zərifə xanım Əliyevanın ekoloji mühit və insan sağlamlığı arasında qarşılıqlı əlaqəyə dair baxışlarının müasir interpretasiyası kimi dəyərləndirilə bilər. Bu yanaşma çərçivəsində reallaşdırılan irimiqyaslı yaşıllaşdırma proqramları, park və rekreasiya zonalarının genişləndirilməsi, yeni landşaft həllərinin tətbiqi bütün ölkə üzrə, o cümlədən urban mühitdə ekoloji tarazlığın bərpasına, atmosfer keyfiyyətinin yaxşılaşdırılmasına və nəticə etibarilə əhalinin sağlamlığının qorunmasına yönəldilmiş kompleks tədbirlər sistemi kimi çıxış edir.

Alimin öz dövrü üçün səciyyəvi olan elmi əsaslandırılmış yanaşmaları və yüksək humanizm prinsipləri bu gün dövlət səviyyəsində həyata keçirilən genişmiqyaslı layihələrdə yeni məzmun və forma qazanaraq davam etdirilir. Nəticə etibarilə, bir əsrə yaxın formalaşan elmi və mənəvi irs müasir quruculuq prosesləri ilə sintez olunaraq, Azərbaycanın dayanıqlı inkişafına və cəmiyyətin ümumi rifahına mühüm töhfə verməkdədir.

Akademik Zərifə Əliyeva milli-mənəvi dəyərləri həyat fəlsəfəsinə çevirən, insan sevgisini elmi düşüncə ilə vəhdətdə yaşadan nadir şəxsiyyət kimi tariximizdə əbədi iz qoymuşdur. Onun ömür yolu elmə sədaqətin, insana xidmətin və Vətənə bağlılığın harmonik təcəssümü idi.

Cənab Prezidentin uzaqgörən və qətiyyətli siyasəti ilə reallaşan genişmiqyaslı və dinamik quruculuq prosesləri həm Ümummilli lider Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, həm də Zərifə xanımın humanizmə söykənən elmi-irsi baxışlarının məntiqi vəhdətini təşkil edir. Bu gün salınan hər bir yaşıllıq zolağı, formalaşan hər bir sağlam sosial mühit böyük alimin ideallarına göstərilən ən yüksək ehtiramın canlı ifadəsidir.

Zaman dəyişir, nəsillər yenilənir, lakin Zərifə xanım Əliyevanın işıq saçan xatirəsi öz mənəvi qüdrətini itirmədən yaşayır. Alimin adı elmə xidmətin, saf insanlığın və ali mənəviyyatın rəmzi kimi yaddaşlarda əbədiləşmişdir. Bu nurlu xatirə gələcək nəsillərə yol göstərən sönməz məşəl, tükənməz ilham mənbəyi olaraq qalacaq, onun Vətənə, elmə və insanlığa bəxş etdiyi dəyərlər Azərbaycanın sabaha doğru inamla irəliləyən yolunu daim işıqlandıracaqdır.

***İradə HÜSEYNOVA,***
***AMEA-nın vitse-prezidenti, akademik***

# Akademik Zərifə Əliyevanın tibb təhsilinə etik baxışı

**Ümummilli lider Heydər Əliyev həkimin cəmiyyətdəki statusunu onun mənəvi ucalığı ilə əlaqələndirərək, həyatlarını insanların sağlamlığının qorunması kimi qədim, nəcib və xeyirxah bir işə həsr edən həkim üçün ən ali dəyərin mənəviyyat, daxili saflıq, əxlaqi bütövlük və vicdani məsuliyyət olduğunu vurğulayır, həkimin xeyirxah missiyasını onun müqəddəs borcu kimi xarakterizə edirdi. Bu müdrik kəlamın daşıdığı mənəvi və əxlaqi dəyəri Zərifə Əliyeva elmi və fəlsəfi baxımdan inkişaf etdirərək, gələcəyin tibbi kadrlarının peşəkar hazırlığının əsas meyarı kimi tətqiq edib.**

Unudulmaz təbibin 1983-cü ildə nəşr olunan "Yüksək əqidə: həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı" adlı fundamental monoqrafiyası tibbi etikanın nəzəri və praktik əsaslarını sistemli şəkildə təqdim edir. Zərifə xanım tibbi etikaya dair mühüm prinsiplər irəli sürüb, həkim və xəstənin qarşılıqlı münasibətlərinin başlıca qaydalarını tərtib edib, həkimin diaqnostika və müalicə prosesində aparıcı rolunu göstərib, bütün tibb işçilərinin təkcə təhsilinin deyil, həm də tərbiyəsinin vacibliyini ön plana çəkib. Onun üçün humanist həkim insanların sağlamlığı, milli səhiyyəmizin inkişafı üçün hər cür fədakarlığa qatlaşan həkim idi. Zərifə xanım həkimliyi belə insanların nümunəvi simasında təsəvvür edir və həkimlik etikasını uca tuturdu. İnsan sağlamlığını ictimai sərvət hesab edən Zərifə xanım bunu gənc həkimlərə təlqin edərək, onların mənəvi tərbiyəsi, peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsi və həlli üçün əməyini əsirgəmirdi.

Akademik Zərifə Əliyeva həkimin etik dəyərlərinin fundamental əhəmiyyətini bu fikirlərlə əsaslandırırdı: "Müalicə və diaqnostikanın texniki təminatı nə qədər mükəmməlləşsə də, insan sağlamlığının keşiyində həmişə canlı həkim dayanır. Təbabət daim inkişaf edir, dəyişir və yenilənir. Lakin həkimin qarşısında duran yüksək mənəvi-etik və peşəkar tələblər dəyişməz olaraq qalır".

Bu ideyaların davamlılığı və inkişafı tam qanunauyğundur. Elmi-etik düşüncənin məntiqi davamı olaraq Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva tərəfindən evtanaziya problemlərinə həsr olunmuş tədqiqat xüsusi əhəmiyyət kəsb edir.

Ötən əsrlərdə tibb işçisinin mənəvi xarakteri və peşə vəzifəsi haqqında təsəvvürlər sosial-iqtisadi və sinif münasibətlərindən, siyasi sistemdən, milli mədəniyyətin inkişaf səviyyəsindən, müəyyən dini ənənələrin mövcudluğundan və digər amillərdən asılı olaraq dəyişib.

Mehriban xanım tədqiqat əsərində qeyd edir: "Evtanaziya çoxüzlü bir sahədir və onun öyrənilməsi fəlsəfə, teologiya, tibb və etika kimi müxtəlif elmlərin kəsişməsində mümkündür. Hər birimizin müəyyən həyat təcrübəsi var, lakin heç kəsin ölüm təcrübəsi yoxdur. Evtanaziya haqqında düşüncələr mövcudluq və qeyri-mövcudluq arasındakı sərhədə yaxınlaşmaq cəhdidir. Müasir texnologiyalar ölümü hadisədən prosesə çevirib. Həkimin xoş niyyətini praqmatik maraqdan necə ayırmaq olar? Bu sahədə cavablardan daha çox suallar mövcuddur".

Müasir tibbdə süni intellektin səhiyyə ekosisteminə inteqrasiyası prosesi sürətləndikcə, rəqəmsal texnologiyalarla insani dəyərlər arasındakı etik ziddiyyətlərin həlli də günümüzün ən aktual çağırışına çevrilir. Bu proses süni intellekt əsaslı sistemlərin xəstə rifahına xidmət edən etik prinsiplərə əsaslanması zərurəti yaratsa da, süni intellektin insan mənəviyyatına xas olan bu ali dəyərləri rəqəmsal çərçivədə nə dərəcədə mənimsəyə biləcəyi ciddi müzakirə və şübhə doğuran məsələdir.

Rəqəmsallaşan tibbdə etik prinsiplərin qorunması amilində boşluqları nəzərə alsaq, tibbin fundamental etik dəyərlərinə əsaslanmaq zərurəti bir daha öz təsdiqini tapır. Bu baxımdan, akademik Zərifə Əliyevanın "Yüksək əqidə: həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı" monoqrafiyasının uzun illər öncə akademik Adilə Namazova tərəfindən Azərbaycan dilinə tərcümə edilməsi xüsusi əhəmiyyət kəsb edir. Məhz bu ideoloji və elmi baza əsasında ölkədə tibbi təhsilin etik-humanist komponentlərini özündə birləşdirən kompleks dövlət proqramı formalaşdırılıb.

Akademik Zərifə Əliyevanın irəli sürdüyü prinsiplər və görkəmli alimin müasir yanaşmalarla zənginləşdirilən bioetik baxışları günümüzdə də aktuallığını qoruyur.

Müasir dünya təcrübəsində tətbiqi bioetika əsasən klinik kafedralarda tədris olunur. Bu isə onunla bağlıdır ki, həkim - pasiyent münasibətləri, klinik tədqiqatlar və tibbi qərarların qəbulu yalnız tibbi biliklərin deyil, həm də etik və hüquqi yanaşmaların inteqrasiyasını tələb edir.

Qeyd edək ki, 1999-cu ildə UNESCO-nun rəsmi müraciəti əsasında Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində Bioetika Komitəsi təsis edildikdən sonra bu istiqamətdə fəaliyyətlərin davamı olaraq, Azərbaycan Pediatrlar Assosiasiyası (APA) tibbi bioetikanı tədris prosesinə inteqrasiya etmək məqsədilə təhsil proqramı hazırlayıb. Proqram AMEA, Səhiyə və Təhsil nazirlikləri tərəfindən tədris üçün tövsiyə olunub.

2000-ci ildən ölkəmizdə tibbi bioetikanın elmi istiqamət olaraq tibb təhsilinə inteqrasiyasına nail olunub və dünya təcrübəsindən, beynəlxalq əməkdaşlıqdan faydalanaraq tibbi bioetikanın tədrisinin müvəffəqiyyətlə həyata keçirmək istiqamətində mühüm addımlar atılıb.

Tibbi bioetika Azərbaycan Pediatrlar Assosiasiyasının üzvü olan həkimlər tərəfindən öncə problem və mühazirələr kimi, 2020-ci ildən isə seçim fənni kimi tədris olunur. Tibbi etika və deontologiyanı tələbələrin yaxşı mənimsəmələri, təhlil etmələri üçün çoxsaylı məsələ, situasiya sualları, işgüzar oyunlar tərtib edilir. 26 ildən çoxdur ki Azərbaycan Tibb Universitetində "Tibbi bioetikanın əsasları" fənni uğurla tədris edilir.

Ötən müddət ərzində tibbi etika üzrə tədris proqramı təkmilləşdirilib, bu sahəyə dair elmi əsərlər nəşr edilib. Bu gün tələbələrə tədris prosesində tibbi etikanın həkim-xəstə münasibətlərinin xüsusiyyətləri, həkimin peşə etikası, məlumatlı razılıq, məxfilik, həkim və xəstə insanın hüquqları, evtanaziya kimi bir çox mövzular öyrədilir. Diqqətəlayiq haldır ki, bioetikaya dair tədris materialları tələbələr tərəfindən böyük maraqla qarşılanır. Hətta tələbələrin həmin problemlərə dair apardıqları elmi araşdırmaların nəticələri Azərbaycan Tibb Universitetinin və başqa universitetlərin tələbə elmi-cəmiyyətlərində Azərbaycan və ingilis dillərində məruzələrlə təqdim olunur, tələbələr sertifikatlara layiq görülür.

APA-nın üzvü olan ATU-nun əməkdaşları Azərbaycan Milli Bioetika Komitəsinin tövsiyəsini nəzərə alaraq mühazirələrin, aparılan təcrübi məşğələlərin daha da yaxşılaşdırılması üçün elmin son nailiyyətlərinə əsaslanan tədris vəsaitləri, kitabçalar, monoqrafiyalar tərtib edirlər.

Qeyd edim ki, Azərbaycanda bioetika sahəsində aparılan elmi-tədqiqatlar beynəlxalq elmi bazalarda, o cümlədən Cons Hopkins Universitetinin platformasında yer alan, nüfuzlu "Asian Bioethics Review" jurnalında dərc edilən "Bioethics in Azerbaijan: History and Development of Bioethics in Azerbaijan" adlı məqalədə əksini tapıb.

Akademik Zərifə Əliyevanın elmi fəaliyyəti bu gün müasir tibb təhsilinin məzmununu zənginləşdirməklə, bioetikanın tədrisində nəzəri biliklərin mənəvi-humanist prinsiplərlə vəhdətini təmin edən fundamental baza rolunu oynayır. Bu zəngin irs, gələcəyin həkimlərinin peşəkar hazırlığında təkcə elmi bilikləri deyil, həm də təbabətin ali etik dəyərlərini əsas tutan istiqamətverici rola malikdir. Bu ənənələrin davam etdirilməsi və praktik tibbi fəaliyyətlə uzlaşdırılması, həkim peşəsinə göstərilən yüksək etimadın doğruldulması baxımından mühüm əhəmiyyət kəsb edir.

Texnoloji tərəqqinin zirvəsi hesab olunan süni intellekt nə qədər mükəmməlləşsə də, insanın xəstəyə qarşı duyduğu saf mərhəməti, qəlbdən gələn şəfqəti və fədakar yanaşmanı heç vaxt əvəz edə bilməyəcək. Bu mənəvi bağ nə bu günün, nə də gələcəyin texnologiyaları ilə ölçülə bilməz. Biz bu şərəfli və məsuliyyətli missiyanı akademik Zərifə xanım Əliyevanın bizə miras qoyduğu yüksək etik dəyərlər və peşə standartları çərçivəsində, onun tövsiyələrinə sadiq qalaraq ən yüksək səviyyədə davam etdirməyi özümüzə mənəvi borc bilirik.

***Təranə TAĞIZADƏ,***
***Azərbaycan Pediatrlar Assosiasiyasının sədri, fəlsəfə doktoru, dosent***

# Azərbaycan oftalmologiyasına dünya şöhrəti gətirmiş akademik

**Bu gün XX əsr Azərbaycan tarixinin görkəmli simalarından sayılan Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 103-cü ildönümü tamam olur. Dünya şöhrətli təbabət alimi, milli oftalmologiyada öz məktəbini yaratmış Zərifə xanımın mənəvi dünyası, ölkə səhiyyəsinin inkişafındakı xidmətləri və geniş ictimai fəaliyyəti zənginliyi və çoxcəhətliyi ilə tarixi dəyər qazanmışdır.**



Zərifə xanım 1923-cü il aprelin 28-də qədim Naxçıvanın Şahtaxtı kəndində görkəmli dövlət xadimi, Azərbaycan səhiyyəsinin və Tibb İnstitunun qurucusu, xalqımızın böyük oğlu Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində dünyaya göz açmışdır. Atasının ömür yolu onun üçün əsl həyat məktəbinə çevrilmişdir. Zərifə xanım Əliyeva müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin – ulu öndər Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olmuşdur.

Akademik Zərifə Əliyeva zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir.

Oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxşaxəli tədqiqatlar aparmış, şəfalı həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əmək sərf etmiş, xəstəliyin müxtəlif mərhələlərinin öyrənilməsi və müalicə metodlarının axtarılması yollarında dəyərli elmi-tədqiqatlar aparmışdır.

Müxtəlif göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olan Zərifə xanım özünün tədqiqat işlərini traxomanın müalicəsi ilə bağlı məsələlərə, habelə traxomanın və onun ağır nəticələrinin müalicəsi zamanı o dövrdə yeni olan antibiotiklərin imkanlarından səmərəli istifadə etməyin öyrənilməsinə həsr etmişdir.

Bu tədqiqatların nəticələri Zərifə xanım Əliyevanın 1960-cı ildə "Sintomisin terapiya metodlarının başqa birləşmələri traxomanın müalicəsi" mövzusunda müvəffəqiyyətlə müdafiə etdiyi namizədlik dissertasiyasının əsasını təşkil etmişdir. 1968-ci ildən başlayaraq Zərifə xanım Əliyeva oftalmologiyanın problemləri ilə ciddi məşğul olmuşdur. Bu sahənin əhatə dairəsinin çox geniş olmasına baxmayaraq, gözün peşə xəstəlikləri problemi ilə ömrünün sonunadək məşğul olmuşdur.

Alimin elmi fəaliyyətinin istiqamətlərindən biri gözün oftalmoloji, histomikroskopik və histokimyəvi tədqiqinə həsr edilmişdir. Bu istiqamətdə apardığı elmi-tədqiqat işlərinin nəticələri onun "Yaşla əlaqədar gözün və görmə siniri yollarının dəyişməsi", "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası" adlı monoqrafiyalarında geniş və ətraflı şəkildə öz əksini tapmışdır. Oftalmoloq-alimin elmi fəaliyyətinin digər sahələrindən biri klinik diaqnostik istiqamətdə apardığı tədqiqatlardır ki, onların da nəticələri həkimlər üçün yazılmış dərs vəsaiti və monoqrafiyalarda cəmləşmişdir.

Bu əsərlər arasında "Kəskin virus konyunktivitləri", "Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, kataraktalar", "Qlaukoma və gözün hipertenziyası", "Görmə orqanının zədələnməsi", "Göz yaşı axmasının fiziologiya və histologiyası", "Şəkərli diabetdə göz xəstəlikləri", "Gözün mikrocərrahiyyəsi", "Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası" kimi əsərləri elmi-ictimaiyyət və praktik həkimlər tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Alim göz yaşı aparatının xəstəliklərinin öyrənilməsinə xüsusi diqqət yetirmiş, bu sahəyə həsr etdiyi "Yaşaparıcı yolların fiziologiyası", "Yaşaparıcı yolların cərrahi müalicəsi", "Göz yaşı yollarının qoruyucu cərrahiyyə üsulları" kimi əsərləri ilə Azərbaycan lakrimologiyasının əsasını qoymuşdur.

Bununla yanaşı, Zərifə Əliyeva nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə ciddi məşğul olmuş, bu sahəyə dair iki monoqrafiya hazırlamışdır. Bu monoqrafiyalardan "İridodiaqnostikanın əsasları" rəngli illüstrasiyalarla "Azərnəşr" tərəfindən, digər monoqrafiya isə "İridodiaqnostika" adı ilə 1988-ci ildə Moskvada nəşr edilmişdir. Xüsusi qeyd etmək lazımdır ki, dünya miqyasında iridodiaqnostikaya aid kitabları ilk dəfə Zərifə xanım Əliyeva yazmışdır.

Zərifə xanım dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktik olaraq elm aləmində yeni bir istiqamətin – peşə oftalmologiyasının əsasını qoymuşdur. Oftalmologiyada peşə xəstəlikləri problemi Zərifə xanımın adı ilə bağlıdır. Bu sahədə fundamental tədqiqatları alimə böyük şöhrət gətirmiş və onu dünya oftalmologiyası məkanında məşhurlaşdırmışdır.

Dünya şöhrətli soydaşımız elmdə ilk dəfə olaraq yod və şin sənayesi işçilərinin görmə orqanında yaranan peşə xəstəliklərini öyrənmiş və bu xəstəliklərin profilaktikası tədbirlərini işləyib hazırlamışdır. Onun bu istiqamətdə apardığı elmi-tədqiqat işləri dünya ədəbiyyatında analoqu olmayan nadir tədqiqatlar sırasındadır.

Görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə görə akademik Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafat olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Məşhur oftalmoloq akademik M.Krasnov Zərifə xanımın görmə orqanının peşə patologiyasının öyrənilməsinə həsr etdiyi tədqiqatları yüksək qiymətləndirərək qeyd etmişdir: "Əcəl Zərifə Əziz qızına bir neçə il də möhlət versəydi, o, oftalmologiya elmi sahəsində yeni kamil bir məktəbin rəhbəri ola bilərdi".

Elmi fəaliyyətində etika və tibbi deontologiya məsələlərinə də xüsusi yer verən akademik Zərifə Əliyeva bu mövzuya dair baxışlarını oftalmoloji ictimaiyyət və praktik həkimlər tərəfindən böyük rəğbətlə qarşılanan "Həkimin yüksək vəzifəsi" və "Oftalmologiyanın aktual problemləri" monoqrafiyalarında ətraflı işıqlandırmışdır. Zərifə xanımın mənəvi zənginliyi, vəzifə borcuna, tibbi etika və deontologiyaya dair baxışları onun "Həkimin əxlaqi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri" əsərində daha ətraflı şəkildə əks olunmuşdur.

Zərifə xanım dönə-dönə deyirdi ki, həkimlə xəstənin birbaşa əlaqəsi müalicənin əhəmiyyətini yüksəldir, xəstəyə ümid verir, orqanizmin xəstəliyə qarşı müqavimətini artırır və bəzən dava-dərmandan da güclü təsir göstərir. O, həkim və xəstənin qarşılıqlı münasibətlərinin əsas qaydalarını tərtib etmiş, müalicə həkiminin diaqnostika və müalicə prosesində aparıcı rolunu göstərmiş, bütün tibb işçilərinin təkcə təhsilinin yox, həm də tərbiyəsinin vacibliyini ön plana çəkmişdir.

Akademik Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir. Onun elmi fəaliyyəti çox zəngin və əhatəli olmuşdur. İstedadlı alim kimi oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxşaxəli tədqiqatlar aparmış və dəyərli elmi-tədqiqat işləri yazmışdır.

Alim dünyada ilk dəfə olaraq qeyd etdiyimiz kimi peşə patalogiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktiki olaraq elm aləmində yeni bir istiqamətin - peşə oftalmologiyasının əsasını qoymuşdur. Apardığı tədqiqatların gedişində "Göz yaşının axmasının fiziologiyası", "Gözün və görmə sinir yolunun yaşla əlaqədar dəyişiklikləri", "Gözün hidrodinamik sisteminin anatomik fizioloji təbiəti" kimi onlarla elmi məqalələr və monoqrafiyalar çap etdirmişdir.

Uzunmüddətli müşahidələrin və tədqiqatların nəticələri görkəmli həkimin "Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrinin işçilərinin görmə üzvünün vəziyyəti" mövzusunda doktorluq dissertasiyasının əsasına çevrilmişdir. 1976-cı ildə Q. Helmqolts adına Moskva Göz Xəstəlikləri İnstitutunda həmin dissertasiyanın müdafiəsi zamanı Sovet İttifaqının aparıcı alimləri Zərifə xanımın elmi əsərlərini yüksək qiymətləndirmişlər. Onların rəyi əsasında Zərifə xanım Əliyevaya 1977-ci ildə tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir.

Görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqat işlərinin uğurlu nəticələrinə görə akademik Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüş, keçmiş SSRİ-də bu mükafatı alan ilk qadın alim kimi onun adı oftalmologiya elminin tarixinə düşmüşdür.

Zərifə xanım haqlı olaraq belə hesab edirdi ki, həkimin peşə mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir: "Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir".

Özünün zəngin tibb təcrübəsinə və həyat müdrikliyinə əsaslanan Zərifə xanım Əliyeva həkimin xəstə ilə necə davranmağına dair tövsiyələr verirdi. Bu münasibətlərdə həkimin "sözlə" müalicə edə bilmək bacarığını ön plana çəkirdi. Onun fikrincə, səhiyyə işçisinin əxlaqının əsaslarını səmimiyyət, xəstəni başa düşmək bacarığı, xeyirxahlıq, təvazökarlıq, təmənnasızlıq təşkil edir.

Akademik Zərifə Əliyeva həm də görkəmli ictimai xadim, fitri istedad sahibi idi. O, Ümumittifaq "Bilik" Cəmiyyəti İdarə Heyətinin, Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü olmuş, Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. Zərifə xanımın fəxri adları, elmi titulları, mükafatları çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Ancaq bu adlar sırasında ən şərəflisi Ana adıdır. Zərifə xanım ümummilli lider Heydər Əliyevin layiqli davamçısı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin anasıdır.

Professor Nina Şulpina Zərifə xanım Əliyevanı belə xarakterizə edib: "Biz onu sevmişik, sevirik və ömrümüzün sonuna qədər sevəcəyik. Zərifə xanımın bədii duyumu, bədii istedadı bənzərsiz idi. Zərifə xanım necə böyük məharətlə ifa edir, nəğmələr oxuyurdu. Onun incə barmaqları sürətlə pianonun dilləri üstündə gəzir, toplaşdığımız otağı bəzən gur, bəzən də həzin musiqi sədaları bürüyürdü".

Gözəl ana, vəfalı ömür-gün yoldaşı, nadir zəka sahibi kimi ali keyfiyyətləri özündə birləşdirən ziyalı, dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş böyük oftalmoloq-alim Zərifə xanım Əliyevanın həyatı, elmi və yaradıcılıq fəaliyyəti ilə daha yaxından tanış olduqca, haqqında xatirələri oxuduqca yaddaşımızda Ulu Tanrının bu ən yüksək mənəvi xüsusiyyətləri bəxş etdiyi böyük insanın obrazı canlanır, gözlərimiz önündə onun portreti yaranır.

***Şərəf CƏLİLLİ,***
***tədqiqatçı-publisist***

# "Nurlu irs – sağlam gələcək – güclü cəmiyyət"

## *Akademik Zərifə Əliyevanın anadan olmasının 103-cü ildönümünə həsr edilmiş elmi konfrans*



**Aprelin 27-də AMEA-nın Mərkəzi Elmi Kitabxanasında görkəmli alim və ictimai-siyasi xadim, akademik Zərifə Əliyevanın anadan olmasının 103 illiyinə həsr edilmiş "Nurlu irs – sağlam gələcək – güclü cəmiyyət" mövzusunda elmi konfrans keçirilib.**

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri, AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin, AMEA-nın Qadınlar Şurasının və Akademiyanın Qadınlar şuralarının nümayəndələri və aidiyyəti şəxslər iştirak ediblər.

Əvvəlcə görkəmli oftalmoloq-alim akademik Zərifə xanım Əliyevanın zəngin həyat və elmi fəaliyyətini əks etdirən sərgiyə baxış olub.

Konfransı giriş nitqi ilə açan akademik İsa Həbibbəyli bildirib ki, hər il Zərifə xanımın ildönümünün qeyd olunması onun adı ilə bağlı olan, onun tibbə gətirdiyi yenilikləri elmi, ictimai mühitin diqqət mərkəzinə çəkmək və bu ideyalar əsasında tibb və biologiya elmləri inkişaf etdirmək məqsədi daşıyır.

Akademik qeyd edib ki, Zərifə xanım Əliyevanın tibb elminə gətirdiyi yeniliklər təkcə Azərbaycan təbabətində deyil, keçmiş SSRİ məkanında və onun hüdudlarından kənarda da böyük diqqətə səbəb olmuş və böyük bir istiqamətin əsası qoyulmuşdur. Akademik Zərifə xanım Əliyeva dünya təbabət elmində peşə xəstəlikləri ilə bağlı elmi tədqiqatların ilk müəlliflərindən və onu yüksək səviyyədə təqdim edən görkəmli alimlərdəndir.

Akademik İsa Həbibbəyli bildirib: "Müxtəlif peşə sahiblərinin, xüsusilə kimya kimi gözə həssas olan peşə sahiblərinin müalicəsi məsələsi, istehsal proseslərində göz xəstəliklərinin baş vermə səbəbləri, gedişatı və müalicəsi keçmiş SSRİ-də elmi problem kimi qoyulmuş və belə bir böyük problem akademik Zərifə xanım Əliyevanın təşəbbüs və tədqiqatlarının nəticəsi ilə həll olunmuşdur. Zərifə Əliyeva istehsal proseslərində və kimya müəssisələrində peşə xəstəliklərinin müalicəsini klinikalarda yox, məhz istehsalat müəssisələrində yaratdığı laboratoriyalarda müayinə etmiş, diaqnostik cəhətdən qiymətləndirilmiş xassələrini öyrənmiş, müalicə üsullarını müəyyənləşdirmişdir. Bu, Azərbaycan elminə, cəmiyyətinə, xalqına, onun sağlamlığına ən böyük və yüksək xidmətin əməli ifadəsidir. Bununla da Zərifə xanım Əliyeva tibb elminə böyük yeniliklər gətirmiş, yeni istiqamət açmışdır".

AMEA rəhbəri diqqətə çatdırıb ki, Zərifə xanım Əliyeva oftalmologiya elminə gətirdiyi inqilabi yeniliklə, istehsal müəssisələrində çalışan insanların göz xəstəliklərinin müalicəsini yerindəcə yüksək səviyyədə təmin etməklə həmin dövrdə Ulu öndərin Azərbaycanda apardığı sənayeləşmə siyasətinə, iqtisadiyyatın inkişaf etdirilməsi sahəsindəki hərəkatına bir həkim və ana, qadın kimi misilsiz töhfə vermişdir. Zərifə xanım Əliyevanın təşəbbüsü ilə traxoma xəstəliklərinin Azərbaycanda kütləvi yayılmasının qarşısının alınması, həkim ekspert briqadalarına rəhbərlik etməsi onun vətənpərvərliyindən, zəka və bacarığından, həkimlik missiyasını yüksək səviyyədə yerinə yetirməsindən irəli gəlir.

1979-cu ildə AMEA-nın Fiziologiya İnstitutunda Zərifə xanımın təşəbbüsü və rəhbərliyi ilə Görmə orqanının fiziologiyası və peşə patologiyası laboratoriyasının yaradıldığını deyən akademik alim tərəfindən peşə xəstəliklərinin tədqiqinin, istehsalatyönümlü diaqnostika və müalicə işinin öyrənilməsinin akademik elm səviyyəsinə qaldırıldığını söyləyib.

Zərifə xanım Əliyevanın ictimai fəaliyyətinə də toxunan İsa Həbibbəyli bildirib ki, onun ən böyük şərəfli missiyalarından biri də dünya miqyaslı görkəmli dövlət xadimi Heydər Əliyevə sədaqətli ömür-gün yoldaşı olmasıdır. Ulu öndər Heydər Əliyev hər zaman Zərifə xanım Əliyevanın ömür-gün yoldaşı kimi zəhmətini, etibarını, sədaqətini, dəyanətini yüksək qiymətləndirmişdir: "Məncə, Zərifə xanım Əliyevanın və ulu öndər Heydər Əliyevin Azərbaycan cəmiyyətinə, ölkəmizə cənab Prezident, Müzəffər Ali Baş Komandanımız İlham Əliyev kimi dünya liderini bəxş etməsi parlaq şəxsiyyətlərin Azərbaycan xalqına, dövlətçiliyinə ən böyük töhfəsi və misilsiz xidmətidir".

AMEA rəhbəri diqqətə çatdırıb ki, Zərifə xanımın oftalmologiyanın inkişafına verdiyi töhfələrə SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülən ilk qadın alim olması onun Azərbaycan tibb elminə qazandırdığı nailiyyətdir.

AMEA prezidenti daha sonra deyib: "2025-ci ildə ildə Zərifə xanım Əliyevanın biblioqrafiyasını yenidən çap etmişik. Həmçinin alimin həmmüəllifi olduğu "Oftalmologiyanın aktual problemləri" adlı elmi əsəri AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsi tərəfindən əlavələrlə birgə ilk dəfə ingilis dilinə tərcümə olunaraq, yeni tərtibatda Akademiyanın "Elm" nəşriyyatında yüksək səviyyədə işıq üzü görüb. Onun elm sahəsindəki xidmətlərini yenidən Azərbaycan cəmiyyətinə tanıtmağa, o ideyaların inkişaf etdirilməsinə bu gün də böyük ehtiyac vardır. Bu gün Zərifə xanım Əliyeva haqqında tədbirlər keçirməklə, bu nəşrləri çap etməklə onun tarixi xidmətləri və xatirəsi qarşısında alimlərimiz öz mənəvi borclarını yerinə yetirirlər. Bu gün də Zərifə Əliyevanın ideyaları yaşayır və xatirəsi hər bir azərbaycanlı üçün əzizdir. Zərifə xanım Əliyeva əbədiyyət qazanmış, nurlu, işıqlı insanlara işıq bəxş edən, özü isə əbədi işıq saçan bir qadın, ana, ziyalı kimi daim qəlblərdə yaşayır".

AMEA-nın vitse-prezidenti, akademik Gövhər Baxşəliyeva qeyd edib ki, universal dəyərlərə malik şəxsiyyət olan Zərifə xanım Əliyeva həm ulu öndər Heydər Əliyevin sədaqətli ömür-gün yoldaşı kimi, həm yetişdirdiyi kamil övladlara, həm də elmi, ictimai fəaliyyətinə görə Azərbaycan xalqının qəlbində zirvələri fəth edib.

Mərasimdə, o cümlədən akademik Zərifə Əliyevaya həsr olunmuş film nümayiş etdirilib.

Daha sonra məruzələr dinlənilib. AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova "Elmi və ictimai sahədə qadın liderliyi: tarix və müasir baxış" adlı məruzəsində bildirib ki, konfransın "Nurlu irs – sağlam gələcək – güclü cəmiyyət" adlandırılması heç də təsadüfi deyil və bu ad Zərifə xanım Əliyevanın zəngin elmi irsinin Azərbaycan cəmiyyətinin sağlam inkişafı və dayanıqlı gələcəyinin formalaşmasında mühüm ideoloji baza rolunu oynadığını ifadə edir: "Konfransımızın əsas ideyası ondan ibarətdir ki, güclü cəmiyyət modeli yalnız elmin, humanizmin və ictimai məsuliyyətin vəhdəti əsasında formalaşa bilər. Həmçinin hər üç ideya 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi və Bakıda 17-22 may tarixlərində keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının məqsədləri ilə səsləşir. Hesab edirəm ki, konfransda ediləcək çıxışlar tarixin sınağından keçmiş bir həqiqəti – qadın liderliyinin cəmiyyətin tərəqqisindəki həlledici rolunu yenidən dərk etməyə imkan verəcək. Elmdə və ümumən cəmiyyətdə qadınların liderliyi məsələsinə nəzər saldıqda aydın olur ki, tarixdə bu yol heç bir zaman hamar olmamışdır. Çoxsaylı faktlar göstərmək olar ki, qadınların intellekti və mənəvi gücü ailə və sosial mühitlə məhdudlaşmayaraq, özünü bütöv sivilizasiyaların inkişafını, cəmiyyətlərin transformasiyasını müəyyənləşdirən əsas amillərdən biri kimi göstərmişdir".

Qadınların dünyanın elmi, mədəni inkişafındakı bir sıra tarixi faktları diqqətə çatdıran vitse-prezident qeyd edib ki, akademik Zərifə xanım Əliyevanın oftalmologiya sahəsində apardığı fundamental tədqiqatlar, xüsusilə peşə patologiyası, görmə və yaşla bağlı məsələlər, traxoma ilə mübarizə istiqamətlərində əldə etdiyi mühüm nəticələr həm keçmiş Sovetlər Birliyində, həm də beynəlxalq elmi mühitdə yüksək qiymətləndirilib. Alimin tədqiqatları sanki qaranlıqla işıq arasında körpü salaraq, insan gözünə sadəcə görmə deyil, dərketmə imkanı da bəxş etmişdir. Zərifə Əliyevanın fəaliyyəti nəticəsində minlərlə insan yenidən rəngləri seçə, günəşin doğuşunu izləyə, təbiətin incə çalarlarını hiss edə bilmişdir. Zərifə xanım mühüm elmi nailiyyətlərə imza atmaq və böyük elmi məktəb yaratmaqla yanaşı, həkim etikası, insan sağlamlığına humanist yanaşma və sosial məsuliyyət anlayışlarını da sistemləşdirərək gələcək nəsillər üçün əxlaqi-etik çərçivə formalaşdırmışdır.

Ümummilli lider Heydər Əliyevin ən yaxın silahdaşlarından biri, müasir Azərbaycanın siyasi və mənəvi simasının formalaşmasını, ölkənin ərazi bütövlüyünü və suverenliyini tam təmin edərək tarixə Müzəffər Ali Baş Komandan kimi düşmüş Prezident İlham Əliyevin anası kimi Zərifə xanım Əliyeva bütün həyatı, elmi, elmi-təşkilati və ictimai-siyasi fəaliyyəti ilə dövlətimizin mənəvi dayaqlarından birinə çevrilmişdir. Müasir dövrümüzdə Zərifə Əliyeva nümunəsi yeni məzmun və miqyas qazanaraq Birinci vitse-prezident Mehriban xanım Əliyevanın timsalında davam etdirilir: "Biz akademik Zərifə Əliyevanın 103-cü ildönümünü qeyd edərkən anlayırıq ki, onun nurlu irsi xalqımızın və dövlətimizin gələcəyinin strateji resursudur. Bu irs elmin humanist mahiyyətini, cəmiyyətin sağlam inkişaf modelini və liderliyin etik əsaslarını özündə birləşdirir. Bütün dünyada belədir: sağlam gələcək və güclü cəmiyyət anlayışları məhz belə şəxsiyyətlərin əsasını qoyduğu fundamental dəyərlər üzərində formalaşır".

AMEA Qadınlar Şurasının sədri, fəlsəfə elmləri doktoru, professor Rəna Mirzəzadə "Elmi məktəb və ictimai təsir: davamçılıq fenomeni", akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin elmi işlər üzrə direktor müavini tibb elmləri doktoru, dosent Hicran Namazova "Zərifə Əliyevanın elmi irsi və müasir oftalmologiyanın inkişafı", YAP Veteranlar Şurasının üzvü, AMEA-nın Qadınlar Şurası İdarə Heyətinin üzvü, həkim-ictimaiyyətçi Zərifə Quliyeva "Zərifə xanımı anarkən", akademik Zərifə Əliyeva adına liseyin direktoru Fərqanə İsayevə "Zərifə Əliyeva irsinin təbliği: təhsil və maarifləndirmə strategiyaları", AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Qadınlar Şurası İdarə heyətinin sədri filologiya üzrə fəlsəfə doktoru, dosent Xanımnaz Kərimova "Zərifə Əliyevanın ədəbiyyat və incəsənətdə bədii obrazı", AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Qadınlar Şurası İdarə Heyətinin üzvü filologiya elmləri doktoru Qətibə Quliyeva "Zərifə Əliyevanın elmi əsərlərinin dili" və AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Qadınlar Şurası İdarə heyətinin üzvü, elmi işçi Xanımbacı Məlikzadə "Alim obrazının simvolik kodları: Zərifə Əliyeva kontekstində" mövzusunda məruzələrlə çıxış ediblər.

Sonda çıxış edən akademik İsa Həbibbəyli tədbir zamanı yeni elmi əhəmiyyətli məruzələrin təqdim edildiyini diqqətə çatdıraraq konfrans materiallarının çap olunacağını bildirib.

***XQ***

# Qlobal ticarət “quru yollar inqilabı”na ümid bəsləyir

**Dünyanın yalnız son 100 il deyil, tam 500 il ərzində ən fundamental transformasiyalar dövrünə qədəm qoyduğunu qəbul etsək, o zaman çox təbii və tanış görünən şeylərin yoxa çıxmasına hazır olmalıyıq. Münaqişə səbəbindən Hörmüz boğazı ətrafında uzun sürən danışıqların, qlobal ticarətin bütün strukturunda köklü dəyişikliklərin ilk siqnalı olduğunu diqqətdən qaçırmaq olmaz. İlk növbədə də onun təklif etdiyi üstünlüklər – təşkilati müstəvidə və ənənəvi yük çatdırılma üsulları baxımından diqqət çəkir.**




Bu, heç də təəccüb doğurmamalıdır. Axı, üfüqdə Qərbin qlobal siyasətdə güc inhisarının yıxılması görünməkdədir və belə olarsa, bütün əlaqəli infrastrukturun dağılacağını ehtimal etmək absurd sayılmaz. Bu konstruksiyada dəniz ticarəti, bəlkə də, ən vacib yerlərdən birini tutur. Bəlli səbəblərə görə, o, həm də dünyada güc bölgüsü uğrunda gündən-günə artan mübarizənin ilk qurbanına çevrilir. Bu, hələ indiyə qədər qarşılaşdığımız nisbətən lokal münaqişələrdəndir. Qarşıda ABŞ və Çin arasında daha genişmiqyaslı və sistemli qarşıdurma ola bilər və bunun təzahürləri artıq özünü göstərməkdədir.

İranla ABŞ arasındakı qarşıdurmanın necə inkişaf edəcəyini, nə ilə yekunlaşacağını, hələ ki, bilmirik. Lakin bütün əlamətlər göstərir ki, Tehran Vaşinqtonun sonuna qədər getmək istəyinin olmamasını başa düşərək bundan öz xeyrinə mümkün qədər çox şey qazanmağa çalışır. İranı buna görə qınamaq və ya təmkinli olmağa çağırmaq ədalətli olmazdı – axı ölkə artıq səbəbsiz təcavüzə qarşı mübarizədə kifayət qədər əziyyət çəkib.

Bəlkə də tərəflər yaxın gələcəkdə nisbətən sabit bir razılığa gələ biləcəklər. Lakin artıq baş verənlərin qlobal iqtisadiyyata mənfi təsirlərinin nə qədər böyük olduğu görünməkdədir. Bir çox politoloqlar və iqtisadçı ekspertlər bunu belə qiymətləndirirlər:

Birincisi, münaqişə tərəfləri arasında qardaşlıq sevgisi və etibar ehtimalı az olduğundan, bazar iştirakçıları bunu qaçılmaz olaraq hesablamalarında nəzərə alacaqlar. Bu, yük daşıyıcıları üçün sığorta xərclərinin artmasına və quru ticarət yolları ilə müqayisədə xərc fərqinin azalmasına səbəb olacaq. Axı yükdaşımada dəniz yollarına ona görə üstünlük verilir ki, bu ucuz başa gəlir.

İkincisi, hətta Hörmüz boğazında başqa bir tıxanmanın hipotetik ehtimalı belə qlobal ticarət yollarında struktur dəyişikliklərinə səbəb ola bilər. Dövlətlərin və şirkətlərin siyasi risklərə daha az həssas olan yükdaşıma üsullarına daha çox diqqət yetirməyə başlayacağını istisna etmək olmaz və bu gözləniləndir. Çünki məsələ təkcə başabəla boğazın hazırda bağlanması ilə bağlı deyil: bu hadisə qlobal iqtisadiyyatın əhəmiyyətli bir hissəsinin, müharibə edən tərəflərin özbaşına hərəkətlərinə məruz qaldığı ilk haldır. Motivlərindən asılı olmayaraq, İran məsələsində bu, tamamilə başa düşüləndir.

Ekspertlər bildirirlər ki, belə olan halda, daha ənənəvi quru ticarət yolları üçün əhəmiyyətli perspektivlər açıla bilər. Minilliklər boyu bunlar, hətta geniş şəkildə ayrılmış ərazilər arasında belə, iqtisadi mübadilənin ən geniş yayılmış və etibarlı vasitəsi olub. Azərbaycanın da bir hissəsi olduğu Böyük İpək yolu eramızdan əvvəl III əsrdən eramızın XVI əsrinə qədər mövcud idi və indi də Böyük Avrasiyanın daxili iqtisadi və mədəni əlaqəsi ilə sinonim olaraq qalır. Bütün bu yol boyunca ticarət şəhərləri yaranmışdı və mədəni həyat çiçəklənirdi. Lakin sırf xarici siyasət səbəblərinə görə uzun illər bir çox nəsillərə və dövlətlərə xidmət edən bu yol nisbi tənəzzülə uğradı.

Roma imperiyası və Qədim Şərq də yollar şəbəkəsi ilə əhatə olunmuşdu. Amma məqsəd onların heç də yalnız qoşunların daşınmasına xidmət etməsi deyildi; daxili ticarət siyasi müstəvinin vəhdətini təmin edirdi. Məşhur Çin atalar sözü var: “Varlanmaq istəyirsinizsə, əvvəlcə yol çəkin”. Çünki ən etibarlı ünsiyyət vasitəsi liman və ya daldalanacaq yer yox, yoldur. Üstəlik, dənizlər həmişə təhlükəli olub, təlatümlü fırtınalar, çoxsaylı piratlar tacirlər və səyyahlar üçün təhlükə yaradıb. Rəsmi Pekin tərəfindən 13 il əvvəl irəli sürülən “Bir kəmər, bir yol” təşəbbüsünün ötən əsrlərdə piratçılıqda ad çıxarmış anglo-saks sivilizasiyasında bu gün mənfi reaksiya doğurması sizcə təəccüblü deyilmi?

Lakin buna baxmayaraq, bu təşəbbüs artıq layihələr şəklində reallaşmaqdadır və dünya ticarətində mühüm bir elementə çevrilir. Məhz bunu əsas gətirərək Çin Xalq Respublikasının rəhbəri Si Cinpin hələ 2019-cu il aprelin 27-də Pekində keçirilən ikinci “Bir kəmər, bir yol” Beynəlxalq Əməkdaşlıq Forumundakı çıxışında bu təşəbbüsün dünyada yeni əməkdaşlıq formatı yaradacağını və qlobal iqtisadiyyatın inkişafına və qədim İpək yolunun yenidən canlandırılmasına təkan verəcəyini vurğulamışdı”.

Dəniz ticarətinin geniş yayılması və onun üstünlükləri mifi qlobal siyasətdə Qərbin dominantlığı ilə sinonimdir. Təsadüfi deyil ki, Qərbi Avropa ölkələri gəmiqayırma sahəsində böyük uğurlar qazandıqdan sonra, XVI əsrdən sonra sürətlə böyüməyə və tədricən dominant olmağa başladı. Bu, onlara dünyanın qalan hissəsi ilə tez bir zamanda planetin coğrafi cəhətdən ucqar bölgələrinin talan edilməsi və istismarına əsaslanan münasibətlər modelini qurmağa imkan verdi. Avropa həmçinin iki ən təhlükəli rəqibinin - Rusiya və Osmanlı imperiyasının inkişafını məhdudlaşdırmaq üçün qlobal ticarəti dənizə yönəltməli idi.

Avropadan kənarda heç bir sivilizasiya bu təzyiqə tab gətirə bilmədi. Qərbi Avropa və Amerika gücünün təvazökar obyektinə çevrilməməyi bacaran yeganə böyük güc olan Rusiya imperiyası tez bir zamanda özünü tək tapdı. Həmçinin bu Şimal ölkəsi bir neçə əsr ərzində məhdud maddi ehtiyatlarını xərcləyərək dəniz ticarət yollarına çıxış uğrunda mübarizə aparmaq məcburiyyətində qaldı. Başqa sözlə, dəniz ticarəti məhdud bir qrup dövlətin gücü ilə təmin edildikdən sonra dominant hala gəldi. Onlar son dövrlərə qədər bu təmələ etibar etməyə davam edirdilər.

Hətta son 50 ildə fantastik iqtisadi uğurlar qazanan Çin belə, demək olar ki, bütün daxili bölgələrinin sahil zonasından geri qalması problemi ilə üzləşir – dənizdən uzaqda yerləşən sənaye mərkəzlərindən yalnız Çuntsinin adını çəkmək olar. Sahil əyalətlərindən kənarda bütün digər ərazilərin inkişafı mərkəzi hökumətdən böyük subsidiyalar tələb edir və buna baxmayaraq, hələlik əhəmiyyətli irəliləyiş müşahidə edilməyib.

Dəniz ticarəti, təbiətinə görə, infrastrukturun inkişafı baxımından, olduqca ibtidai xarakter daşıyır – istehsal nöqtəsindən ən yaxın limana qədər malların çatdırılmasını tələb edir: burada, ixracatçı ölkələr bölgələr arasında iqtisadi əlaqələrə sadəcə heç bir töhfə vermir. Rusiyalı siyasi politoloq Timofey Bordaçov bunu belə əsaslandırır: “Dövlətlərin dəniz ticarətində fəal iştirakı onları qlobal “qida zəncirində” müəyyən bir yerə möhkəm bağlayır. Bu da tam o anlama gəlir ki, Qərbdən başqa hər hansı bir ölkə yalnız ABŞ və Avropanın ehtiyaclarını ödədiyi dərəcədə inkişaf etməlidir”.

Marşrutları boyunca dəstək infrastrukturu və dəyər zəncirləri yaradan quru ticarətindən fərqli olaraq, dəniz ticarəti dövlətlərin ən çox ehtiyac duyduğu yerlərdə – daxili ərazilərdə əlavə iş yerləri yaratmır. Bu yolla ölkələri strateji dərinlikdən məhrum edirlər. Onları əzmək lazım gələndə yalnız boğazları effektiv şəkildə bağlamaq və ya limanları məhv etmək kifayət edir.

ABŞ və İsrailin İrana hava zərbələri endirməsi və bunun münaqişəyə çevrilməsi də Fars körfəzi ölkələrinin iqtisadiyyatının nə qədər kövrək olduğunu üzə çıxardı. Təkcə ona görə yox ki, onlar dar bir mal qrupunun – neft və qazın ixracına etibar etdikləri üçün bu duruma düşdülər. Bu dövlətlərin düşdüyü durumun əsas səbəbi onların dənizləri idarə edənlərin inhisarından tam asılı olmalarıdır. Konkret Hörmüz boğazının nümunəsində bu inhisar İran tərəfindən sarsıdılır. Lakin bu, yalnız ənənəvi kommunikasiya üsullarından yapışmaq cəhdlərinin strateji zəifliyini təsdiqləyir.

Dəniz ticarəti qonşu dövlətləri bölür, çünki onların iqtisadi maraqlarını dünyanın istənilən digər hissəsinə bağlayır. Buna görə də beynəlxalq siyasətə regional səviyyədə müsbət təsir göstərmək mümkün deyil. Qərbin Mərkəzi Asiya dövlətlərindən Hind okeanına nəqliyyat yollarının çəkilməsi ideyasını fəal şəkildə təbliğ etməsi təsadüfi deyil: bu, onların Rusiya və Çinlə isti münasibətlərinin davamlı olmasına maraqlarını azaltmaq məramı ilə reallaşdırılır.

Lakin Qərb hazırda özünün müqavimət göstərə bilmədiyi güc məhdudiyyətləri ilə üzləşir. Buna reaksiya aqressiv davranışdır və gördüyümüz kimi, bu, yalnız Amerika və Avropanın əsas aktivlərinə – qlobal iqtisadiyyat və ticarətdəki dominantlığına zərər verir. Hörmüz boğazı ətrafında baş verən hadisələr onu diktə edir ki, Avrasiyada quru ticarət yollarının inkişafı həyati bir zərurətdir və bu, onun dünya bazarı ilə əlaqələrini tənzimləmək üçün perspektivdə duran ən mühüm bir yoldu. Belə olarsa, bu onun daxili sabitliyinin və bu geniş bölgədə yaşayan xalqlar arasında yaxşı münasibətlərin əsl təminatına çevrilər.

Ümumiyyətlə, qlobal ticarətdə “quru yollar inqilabı” artıq gerçəyə çevrilməkdə və dünya bazarlarına töhfələr verməkdədir. Bu, əvvəldə qeyd etdiyimiz kimi, ÇXR-nın sədri Si Cinpin tərəfindən 2013-cü ildə irəli sürülmüş “Bir kəmər, bir yol” təşəbbüsüdür. “Bir kəmər, bir yol” təşəbbüsü müasir dünya iqtisadiyyatının ən böyük infrastruktur və inkişaf layihələrindən biri hesab edilir. Bu qlobal təşəbbüs Avrasiya qitəsini əhatə edən nəhəng bir iqtisadi dəhlizin yaradılmasını nəzərdə tutur və iştirakçı ölkələrin sosial-iqtisadi inkişafına əhəmiyyətli töhfə vəd edir. Hazırda dünya əhalisinin 70 faizini əhatə edən, 149 ölkə və beynəlxalq təşkilatın qoşulduğu sözügedən təşəbbüs çərçivəsində 3 mindən artıq konkret layihə həyata keçirilməkdədir.

Azərbaycan öz coğrafi mövqeyinə görə bu təşəbbüsdə xüsusi əhəmiyyət kəsb edir və ona görə də dövlətin xarici siyasət arxitekturasında da bu konstruksiya əsas yerlərdən biri hesab olunur. 2030-cu ilə qədər təşəbbüs çərçivəsində Azərbaycanda 25 milyard dollarlıq investisiya layihələrinin reallaşdırılması planlaşdırılır. Bu təşəbbüs Azərbaycan üçün təkcə nəqliyyat və logistika imkanlarının genişlənməsi deyil, həm də qlobal iqtisadi proseslərə daha sıx inteqrasiya imkanı yaradır. Azərbaycanın bu təşəbbüsdə aktiv iştirakı ölkənin beynəlxalq mövqeyinin güclənməsinə, iqtisadiyyatın şaxələndirilməsinə və dayanıqlı inkişafa mühüm töhfə verəcəkdir.

Logistika üzrə çinli ekspert Van Süy Dun təsadüfən qeyd etmir ki, “Azərbaycan Çinin “Bir kəmər, bir yol” təşəbbüsündə mühüm strateji rol oynayır və Avropa ilə Asiya arasında əsas tranzit mərkəzi kimi mövqeyini gücləndirir. Azərbaycan Çini, Mərkəzi Asiya ölkələrini, Xəzər regionunu, Qafqazı və Avropa bazarlarını birləşdirən Orta Dəhlizin vacib bir hissəsidir və qlobal təchizat zəncirlərindəki dəyişikliklər və artan geosiyasi gərginliklər fonunda bu marşrutun əhəmiyyəti sürətlə artmaqda davam edir”. Ekspert həmçinin vurğulayır ki, müasir infrastrukturun, xüsusən də Bakı Beynəlxalq Dəniz Ticarət Limanının inkişafı sayəsində Azərbaycan təkcə tranzit ərazisinə deyil, həm də tədricən tam regional logistika və bölüşdürücü mərkəzə çevrilir. Bu, ölkənin beynəlxalq nəqliyyat sistemində rəqabət qabiliyyətini gücləndirir, ticarət və iqtisadi əlaqələrin genişlənməsinə kömək edir”.

Bütün bunlar onu göstərir ki, müstəqil siyasət yürüdən dövlətlər artıq dünyada hegemon güclərin ambisiyaları üzündən yaranan təhdidlərdən qorunmaq üçün çoxvektorlu siyasətə daha çox diqqət yetirirlər ki, bu da onların gələcəkdə hər hansı münaqişə üzündən yaranacaq risklərdən yayınmasına imkan verəcək.

*Hazırladı:*
***İlqar RÜSTƏMOV,***
***XQ-nin analitiki***

# Yaxın Şərqdən enerji və ərzaq bazarlarına “qara yellər” əsir



**Yaxın Şərqdə artan hərbi gərginlik qlobal enerji, ərzaq təhlükəsizliyi və regional sabitlik müstəvisində də ciddi təlatüm yaradıb. ABŞ-İran danışıqları dalana dirənərkən, paralel olaraq vasitəçilik təşəbbüsləri, yeni siyasi manevrlər və geoiqtisadi risklər ön plana çıxır. İran, ABŞ, Rusiya və region ölkələri arasında formalaşan yeni geosiyasi konfiqurasiya beynəlxalq münasibətlər sistemində həssas dönüş siqnalları yaradır. Xarici media proseslərin həm də neft bazarlarında gübrə təchizatına, terror təhlükəsindən böyük güclərin mövqelərinə qədər geniş təsirini diqqətə çatdırır.**

**“Tasnim”:** İranın xarici işlər naziri Abbas Əraqçi Omana səfəri ilə bağlı “X” sosial şəbəkə hesabında etdiyi paylaşımda bildirib ki, ölkənin xarici siyasətində qonşuları ilə münasibətlər prioritet təşkil edir. O, həmçinin Omana səfəri zamanı keçirdiyi görüşlərdə regional proseslər barədə mühüm müzakirələr aparıldığını diqqətə çatdırıb: “Hörmüzün yeganə sahilyanı dövlətləri olaraq diqqət mərkəzimizə bütün qonşuların və dünyanın xeyrinə olan təhlükəsiz tranziti təmin etmək yolları daxil idi”.

**“CENTCOM”:** ABŞ Silahlı Qüvvələrinin Yaxın Şərqdəki Mərkəzi Komandanlığının məlumatlna görə, İran limanlarının dəniz blokadası başlayandan 38 ticarət gəmisi dayandırılıb: “ABŞ HDQ gəmilərin daxil olmasına və çıxmasına yol verməyərək İran limanlarının blokadasını həyata keçirməyə davam edir. Amerika Silahlı Qüvvələri 38 gəmiyə istiqamətini dəyişmək və ya geri, limana qayıtmaq barədə əmr verib”.

**“Axios”:** İran ABŞ-a münaqişənin həlli üzrə blokadanın ləğvini, Hörmüz boğazı vasitəsilə gəmiçiliyin bərpasını və ardınca Tehranın nüvə proqramı üzrə danışıqlara keçidi özündə ehtiva edən yeni təklif göndərib. Məlumata görə, İran tərəfi Pakistanın vasitəçiliyi ilə yeni təklifi Vaşinqton nümayəndələrinə çatdırıb. Təşəbbüs danışıqlar prosesindəki mövcud dalandan çıxmağa və İran rəhbərliyinin Tramp administrasiyası ilə razılaşma əldə etmək naminə getməyə hazır olduğu nüvə güzəştlərinin həcmi ilə bağlı fikir ayrılıqlarını aradan qaldırmağa yönəlib. İranın təşəbbüsü, ilk növbədə, Hörmüz boğazı ətrafındakı böhranlı vəziyyətin həllinə və blokadanın ləğvinə hesablanıb. Hər iki tərəfin qüvvədə olan atəşkəs rejimini uzun müddətə uzatması və ya hərbi əməliyyatların tam və qəti şəkildə dayandırılması barədə razılığa gəlməsi nəzərdə tutulur.

**“Al Jazeera”:** Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen Berlində mühafizəkar XDS partiyasının və onun Bavariya filialı olan XSS-nin nümayəndələrinin görüşündə deyib ki, İrana qarşı sanksiyaların ləğv edilməsi hələ tezdir. Lyayen əlavə edib ki, sanksiyalar İranın öz əhalisini sıxışdırması ilə əlaqədar tətbiq olunub: “Hesab edirik ki, sanksiyaları ləğv etmək hələ tezdir. Bunun üçün əvvəlcə İranda əsaslı dəyişiklikləri görməliyik”.

**“Al Arabiya”:** "Hizbullah"ın lideri Naim Qasem Livanın İsraillə birbaşa danışıqlar aparmaq planlarını tənqid edərək onları ölkədə sabitliyi pozan "ağır günah" adlandırıb: “Biz İsraillə birbaşa danışıqları qəti şəkildə rədd edirik və hakimiyyətdə olanlar anlamalıdırlar ki, onların hərəkətləri nə Livana, nə də onların özünə fayda gətirəcək”. O, hakimiyyəti Livanı qeyri-sabitliyə aparan belə bir ağır günahdan çəkinməyə çağırıb.

**“Reuters”:** ABŞ ilə İran arasında fikir ayrılıqlarını aradan qaldırmaq istiqamətində işlər dayanmayıb. Vasitəçi Pakistan mənbələrinin bildirdiyinə görə, ABŞ prezidenti Donald Tramp nümayəndələrinin səfərini ləğv etdikdən və “İran razılaşma istəyəndə zəng etsin” dedikdən sonra birbaşa diplomatiya uğursuz olsa da, təmaslar davam edir. İran mənbələri Tehranın son təklifini açıqlayıb. Təklifə əsasən, ilk mərhələdə müharibənin dayandırılması və Fars körfəzində gəmiçiliyə dair qarşıdurmanın həlli nəzərdə tutulur, İranın nüvə proqramı ilə bağlı daha geniş danışıqlar sonrakı mərhələyə saxlanılır. Lakin bu yanaşmanın Vaşinqtonu qane edəcəyi çətin görünür, çünki ABŞ hesab edir ki, nüvə məsələləri danışıqların başlanğıcından həll olunmalıdır.

**“WSJ”:** Yaxın Şərq münaqişəsi fonunda son dörd ildə ikinci dəfə gübrə qiymətlərində kəskin artım dünyada fermerləri ciddi çətinliklərlə üz-üzə qoyub. Vəziyyət qlobal ərzaq istehsalını risk altına sala bilər. Yaxın Şərq gübrə istehsalının əsas mərkəzlərindən biridir və dünya gübrə ticarətinin böyük hissəsi adətən Hörmüz boğazından keçir. Münaqişə səbəbindən bu marşrutda nəqliyyat, faktiki olaraq, iflic vəziyyətinə düşüb. Dünyanın ən iri istehsal müəssisələrindən biri olan Qətərdən karbamid (azot əsaslı gübrə) tədarükü dayandırılıb.

**“Mehr”:** İran parlamentinin sədri Məhəmməd Baqir Qalibaf bildirib ki, ABŞ İranla iqtisadi qarşıdurmada təzyiq rıçaqlarının böyük hissəsini artıq tükədib, Tehran isə hələ də istifadə edə biləcəyi mühüm “kartlara” malikdir. O, hər iki tərəfin “iqtisadi oyun kartları”nı müqayisə edərək ABŞ rəsmilərinin üstünlük iddialarını rədd edib. Qalibaf İranın təklif yönümlü alətləri – Hörmüz boğazı, Bab əl-Məndəb boğazı və neft kəmərləri ilə ABŞ-ın tələbyönümlü mexanizmlərini, o cümlədən strateji neft ehtiyatlarından istifadəni, tələbin idarə olunmasını və qiymət tənzimləmələrini müqayisə edən formul təqdim edib. O vurğulayıb ki, İranın bəzi imkanları hələ işə salınmayıb, halbuki ABŞ öz alətlərinin bir hissəsini artıq tükədib və ya qismən səfərbər edib.

**“Bloomberg”:** İranın xarici işlər naziri Abbas Əraqçi səkkiz həftədir davam edən müharibənin dayandırılması ilə bağlı ABŞ-la danışıqlar dalana dirəndiyi bir vaxtda Rusiyada Prezident Vladimir Putinlə görüşə gəlib. İran Xarici İşlər Nazirliyinin Teleqram kanalında yayılan açıqlamaya görə, Əraqçi bildirib ki, ABŞ-İsrail hərbi kampaniyasının İranla ikitərəfli təmasları pozmasından sonra Rusiya rəsmiləri ilə koordinasiya aparmaq zərurəti yaranıb.

***Hazırladı:***
***N.BEYDİYEVA***
***XQ***

## “Gənclik” ASC səhmdarlarının nəzərinə!

12 iyun 2026-cı il saat 12:00-da cəmiyyətin səhmdarlarının növbəti illik ümumi yığınacağı “Zoom” proqramı vasitəsilə onlayn qaydada keçiriləcəkdir. Bununla əlaqədar ümumi yığıncaqda iştirak etmək üçün sizi “Ganjlik” onlayn qrupa daxil etmək məqsədilə 11 iyun 2026-cı il saat 11:00-dan saat 22:00-dək adınızı, soyadınızı və atanızın adını 050-398-03-13 mobil telefon nömrəsinə “Whatsapp” vasitəsilə göndərməyiniz tələb olunur.

**Gündəlikdəki məsələlər:**

**1.** 2025-ci ilin yekunu üzrə cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyəti barədə müfəttişin hesabatı.

**2.** Sair məsələlər.

2026-cı il iyunun 12-də ümumi yığıncaqda iştirakınızı təsdiq etmək üçün saat 11:00-dək şəxsiyyətinizi təsdiq edən sənədin surətini 050-398-03-13 mobil telefon nömrəsinə “Whatsapp” vasitəsilə göndərməyiniz tələb olunur və saat 11:30-dək (yəni iclasın başlanmağına 30 dəqiqə qalmış) “Zoom” proqramı ilə keçirilən ümumi yığıncağa qoşulmaq və yığıncağın müzakirəsində iştirak etmək üçün” “Whatsapp” vasitəsilə “Ganjlik” onlayn qrupa daxil olmaq və qrupun təşkilatçısı kimi “Ümumi yığıncağ”ın adından paylaşdığımız linkə daxil olmalısınız.

Ümumi yığıncağın gündəliyinin materialları ilə tanışlıq üçün 2026-cı il mayın 29-dan sonra cəmiyyətin direktoruna müraciət etmək olar. Səhmdarların iştirakı vacibdir.

**Telefon: (012) 465-84-90.**

***DİREKTOR***

## “Hənifə-Tütün” ASC səhmdarlarının nəzərinə!

14 iyun 2026-cı il saat 10:00-da “Hənifə-Tütün” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı Balakən rayonunun Hənifə kəndində keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Cəmiyyətin fəaliyyəti haqqında hesabat.

**2.** Cəmiyyətin könüllü ləğv edilməsi məsələsinin müzakirəsi.

**3.** Cəmiyyətin səhmlərinin alqı-satqısı barədə.

**4.** Digər məsələlər.

**Əlaqə nömrəsi: 051-255-78-79.**

## “Göygöl Şərab Zavodu” ASC səhmdarlarının nəzərinə!

24 iyun 2026-cı il saat 11:00-da “Göygöl Şərab Zavodu” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Ünvan:** *Göygöl şəhəri, Heydər Əliyev prospekti 2.*

**Yığıncağın gündəliyi:**

**1.** 2025-ci il üzrə maliyyə hesabatının müzakirəsi və təsdiqi.

**2.** Səhmdar cəmiyyətin fəaliyyəti ilə bağlı digər texniki məsələlərin müzakirəsi.

Səhmdarların ümumi yığıncağının gündəliyinin materialları ilə həftənin bazar ertəsi-cümə günləri saat 11:00-dan 18:00-dək “Göygöl Şərab Zavodu” ASC-nin mühasibatlığında tanış olmaq mümkündür.

Yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiqləyən sənədlə (vəkil edilmiş nümayəndələr notarial təsdiq edilmiş etibarnamə və şəxsiyyəti təsdiqləyən sənədlə) iştirakı vacibdir.

***“Göygöl Şərab Zavodu” ASC-nin rəhbərliyi***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 72 (31041) 28 aprel 2026-cı il, çərşənbə axşamı

## İDMAN

### Boks millimiz Dünya 2-cisi oldu

**Braziliyanın Fos-du-İquasu şəhərində boks üzrə Dünya kubokuna yekun vurulub. 49 ölkədən 400 idmançının qatıldığı yarışda Azərbaycan millisi tarixi nəticəyə imza atıb. Azərbaycan Boks Federasiyasından verilən məlumata görə, komandamız Dünya kubokunda ilk dəfə 3 qızıl və 1 bürünc medal qazanıb.**




Finalda Sübhan Mamedov (50 kq) İssam Bensayarla (Mərakeş) döyüşüb. Hər 3 raundu xeyrinə bitirən boksçumuz qızıl medala yiyələnib.

Onun ardınca Məhəmməd Abdullayev (+90 kq) də fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. O, həlledici görüşdə Davit Çaloyana (Ermənistan) gücünü göstərib. Rəqibindən daha yaxşı döyüşən Abdullayev komandamızın üçüncü qızıl medalını rəsmiləşdirib və Braziliyada üçüncü dəfə Azərbaycan himnini səsləndirib.

Millimizin heyətində final mərhələsinin ilk sessiyasında Səidcəmşid Cəfərov (75 kq) Dünya kubokunun qalibi olub, daha öncə isə Nəbi İsgəndərov (70 kq) bürünc medala yiyələnib.

### Güləş komandamız 6 qat Avropa çempionudur

**Albaniyanın paytaxtı Tiranada keçirilən Avropa çempionatına yekun vurulub.**



Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, yunan-Roma güləşi üzrə millinin ardınca sərbəst güləş üzrə yığmamız Avropanın zirvəsini fəth edib. 3 qızıl, 2 gümüş və 1 bürünc medal qazanan komandamız 152 xal toplayaraq 6-cı dəfə Avropa çempionu olub.

Millimiz Albaniyada medalların əyarına görə, son 17 ilin ən yaxşı nəticəsinə imza atıb. 3 qızıl, 2 gümüş və 1 bürünc medal 2009-cu ildən bu yana Avropa çempionatında sərbəst güləşdə ən yaxşı göstəricimizdir.

Xatırladaq ki, Tiranada İslam Bazarqanov (57 kq), Ali Tsokayev (92 kq) və Giorgi Meşvildişvili (125 kq) Avropa çempionu olub. Turan Bayramov (74 kq) və Arseniy Djioyev (86 kq) gümüş, Cəbrayıl Hacıyev (79 kq) isə bürünc medal qazanıb.

Beləliklə, Azərbaycan 2022 və 2025-ci illərdə olduğu kimi, həm yunan-Roma, həm də sərbəst güləş üzrə komanda hesabında Avropa çempionu olaraq qızıl dubla imza atıb.

### Deflimpiyaçılarımız Dünya çempionatında 7 medal qazanıblar

**Türkiyənin İstanbul şəhərində WSF versiyasında təşkil edilən karate üzrə Şotokan Dünya çempionatına yekun vurulub. 19 ölkədən 1300 idmançının iştirak etdiyi mötəbər yarışda ölkəmiz həm də 10 deflimpiyaçı ilə təmsil olunub. Azərbaycan Deflimpiya Komitəsindən verilən məlumata görə, komandamız Dünya çempionatında tarixi nəticə əldə edərək ümumilikdə, 3 qızıl, 2 gümüş, 2 bürünc medal qazanıb.**



Karateçilərimiz Hikmət Ağayev (+18 yaş, 75 kq, kumite), Sahib Sahibli (+18 yaş, +75 kq, kumite), Yusif Əzimzadə (14-17 yaş, -60 kq, kumite) inamlı qələbə qazanaraq qızıl medallara yiyələniblər.

Aytən Qədirova (kata) və Nizaməddin Əzimzadə (14–17 yaş, 60 kq, kumite) Dünya çempionatını gümüş medallarla başa vurublar.

Komandamızın heyətində Əliəkbər Əlizadə (+18 yaş, 75 kq, kumite) və Elnur Qasımzadə (+18 yaş, +75 kq, kumite) bürünc medal qazanıblar.

*Qabil YUSİFOĞLU*
*XQ*

*"Memarlıq və Şəhərsalma İli"*

# Keşlə: paytaxtın mərkəzində qədim qəsəbə

**Tarixi mənbələrdə Keşlə adına XVII əsrdə rast gəlinir. Keçmişdə Keşləqışlaq olmuş oykonim türk mənşəli keşli/keşlə tayfasının adını əks etdirir. XVIII əsrə aid sənəddə keşlilərin və qaramanlı tayfalarının Qazax, Ələsli və Borçalı yaylaqlarından istifadə hüququ haqqında məlumat verilir. Bəzən tarixçilər keşlə sözünü "düzən", "geniş vadi" kimi izah edilir. Professor Vəli Həbiboğlu Məcidov "Keşlə və keşləlilər" kitabında bu barədə ətraflı məlumat verib. Tədqiqatçının fikrincə, kəndin əsl adı Qışla olub, zaman keçdikcə Keşlə adını alıb.**



Bu kənd Bakı xanları ilə sıx bağlı olub. Xanların atları, qaramal və qoyun sürüləri bu qışlada saxlanılarmış. Xan öz ilxısını yoxlamaq üçün Keşləyə gəlirmiş. O vaxtdan xalq içərisində belə bir zərb-məsəl yaranıb. Birini bir yerə tələsən və qaçan gördükdə deyərmişlər: Hara tələsirsən, Keşləyə xan gəlir, nədir?

Bakının Nizami rayonunda yerləşən Keşlə qəsəbə kimi 1936-cı ildə yaranıb, 1939-cu ildən əvvəlcə şəhər massivi, 1991-ci ildən isə müstəqil qəsəbə kimi formalaşıb. Duzlu nəfəsli Keşlənin ruhu hələ də XVII əsrin tozlu cığırlarında gəzən bir yaddaş, həm tarixini, həm də əfsanələrini qoruyub saxlayan qədim məkanıdır. Qəsəbə həm tarixi irsi, həm də sənaye və biznes mərkəzi kimi tanınıb.

Keşlə qəsəbəsinin tarixi abidələri qədim Abşeron memarlıq məktəbinin incilərindən hesab olunur. Qəsəbə hələ orta əsrlərdən bəri mühüm yaşayış məskəni olduğu üçün burada dövlət tərəfindən qorunan bir neçə əhəmiyyətli tikili var.

Qəsəbədə ucalan Şah Abbas məscidinin qədim daşları, sadəcə divar deyil, o daşlarda minlərlə insanın duası, Şirvan-Abşeron memarlığının səmimiyyəti və tarixin ağır addım səsləri var. Bir neçə il öncə qəsəbə sakinlərinin Şah Abbas məscidinin uzun müddət təmirsiz qalması və minarənin olmaması ilə bağlı Prezident İlham Əliyevə müraciəti müsbət qarşılanıb. Müraciətlə əlaqədar dövlət başçısının tapşırığına əsasən qısa müddət ərzində məscidin əsaslı təmiri və bərpası, yeni minarənin tikintisi layihəyə uyğun olaraq Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutu tərəfindən müayinəsi aparılaraq, mühəndis-müayinəsi və texniki vəziyyəti haqqında rəy verilib.

Rəyə uyğun olaraq konstruksiya layihəsi hazırlanıb, bünövrədə möhkəmləndirmə, binada isə mövcud mikroçatların aradan qaldırılması məqsədilə ineksiya işləri aparılıb. Möhkəmləndirmə işləri aparılarkən binanın ilkin tarixi görünüşünün qorunub saxlanılmasına xüsusi diqqət yetirilib, əlavə olaraq atmosfer təsirlərinə məruz qalmış fasad, üzlük daşları bərpa olunub və yenilənib. Daxildə sonradan görülmüş suvaq işləri sökülüb, məscidin tikintisi zamanı istifadə olunan daxili üzlük daşları bərpa olunaraq tarixi görünüşünə qaytarılıb. Məscidin günbəz örtüyü dəyişdirilərək yenisi ilə əvəz olunub, binanın memarlıq üslubuna uyğun olaraq hündürlüyü 20 metr olan yeni minarə inşa edilib.



Məscid xaricdən hər tərəfi 12 metr uzunluğu olan kvadrat formasına malikdir. Məscidin planı Abşeron məscidləri üçün xarakterik olan sxemi təkrarlayır: binanın mərkəzində günbəzlə örtülmüş əsas zal yerləşdirilib, onun dörd tərəfində isə zala bitişən tağ-tavan örtüklü kiçik otaqlar tikilib. Həmin kiçik otaqlar planın kvadrat xarakteri almasını təmin edir.

Həmçinin məscid Mərdəkandakı Tuba Şahi məscidinin (1481) planı ilə oxşarlıq təşkil edir. Hər iki binanın planında əsas fərq məscidlərin girişinin təşkilindədir. Tuba Şahi məscidinə giriş önə çıxarılaraq qabarıq həcm şəklində həll edilib. Keşlə məscidinin girişi isə binanın həcmi daxilində həllini tapıb.

Şah Abbas Məscidi əsrlər boyu bölgənin ruhani mərkəzi olduğu üçün, burada bir çox nüfuzlu din xadimləri yetişib. Onlar Keşlənin mənəvi sütunları hesab olunub. Məscid bu gün də qəsəbənin ən məşhur abidəsi hesab olunur. Tikinti zamanı divarların möhkəm olması üçün çiy yumurtadan istifadə edildiyi də bildirilir.

İnanclara görə, Keşlə qalasının qalıqları burada qədim müdafiə sisteminin olduğunu sübut edir. Yerli əfsanələr və bəzi tarixi ehtimallar qəsəbədən Bakı xanlarının iqamətgahına və Şirvanşahlar sarayına gizli yeraltı yolların uzandığını iddia edir.

Qəsəbənin köhnə hissəsində XIX əsrin sonu və XX əsrin əvvəllərinə aid, özünəməxsus fasad naxışları olan daş evlər qəsəbənin tarixi simasını tamamlayır. Qədim hamam da XVII əsrə aid olub. Şirvan-Abşeron memarlıq üslubunu əks etdirən bu qədim tikili də qəsəbənin tarixi irsinin bir hissəsini təşkil edib.

Qəsəbənin tanınmış adamları da az deyil. Mesenat, milyonçu Ağabala Quliyev, şair Bədri Seyidzadə, yazıçı Xanımana Əlibəyli, şərqşünas alim, pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi, Azərbaycanda müasir ərəbşünaslığın banisi, alman və ərəb dilləri üzrə mütəxəssis, Nürnberq prosesində tərcüməçi Ələsgər Məmmədov məhz bu qədim qəsəbənin yetirmələridir.

65 ildir Keşlə qəsəbəsində yaşayan Ağami Abbasov qeyd edir ki, rayonun yeganə qəsəbəsi olduğundan RİH başçıları tərəfindən hər zaman diqqətdə saxlanılıb. Qədim yaşayış massivlərindən biri olan qəsəbədə mövcud problemlərə rayon rəhbərliyi dərhal reaksiya verir və tez bir zamanda həllini tapır. Elə mütəmadi keçirilən görüşlər də problemlərin həllində, sakinlərin arzu-istəklərinin reallaşmasında mühüm rol oynayır. Vaxtilə qatarların relslər üzərindəki ritmik səsi insanların gündəlik həyatının bir-birinə qarışdığı bir "açıq hava teatrı" idi. Qatar pəncərəsindən görünən süfrələr, uşaq gülüşləri və qatarların arasından keçən ömürlər Keşləni Bakının ən qaynar nöqtəsinə çevirmişdi. Dünyanın heç yerində qatarlar evlərin içindən Keşlədəki kimi keçmirdi. "Şanxay" kimi tanıdığımız həmin ərazidə şahidi olurduq ki, qatar gələndə həyətdə sərilən paltarları yığılar, uşaqları relslərin üstündən çəkərdilər. Qatar keçib gedən kimi isə həyat qaldığı yerdən davam edərdi – sanki heç nə olmayıb. Hətta qatar keçəndə qonşuların bir-birinə "Çay süz, qatar keçsin gəlirəm" deməsi insanlarda xoş ovqat yaradırdı.

Təxminən yarım əsr bundan əvvəl qəsəbə bir düzənliyi xatırladırdı. Yaşayış evləri az olsa da sənaye müəssisələri kifayət qədər idi. Minlərlə insan Keşlə Ət və Toxucu-Əyrici kombinatında çalışırdı. Qəsəbədəki çadır toyları hələ də əsl Abşeron ruhunda keçir. Restoranlar artsa da, həyətdə çadır qurub toy etmək ənənəsi Keşlədə hələ də sevilir. Toylar meyxanasız keçməz, bədahətən deyilən sözlər, yerli şairlərin atışmaları toyun əsas bəzəyi olurdu.

Keşlənin damlarında hələ də göyərçin uçuranları görmək olur. Bu, Bakı kəndlərindən gələn qədim bir ənənədir. Onlar üçün bu, sadəcə, quş saxlamaq deyil, bir həyat tərzidir. Bu gün Keşlə büsbütün dəyişib, inkişaf edib. Mərkəzə ən yaxın qəsəbə olduğundan vaxtilə buradan şəraitinə görə köç edənlər, yenə də bura üz tuturlar.

Bu gün qəsəbə ərazisində görülmüş abadlıq-quruculuq və yenidənqurma işləri xoş əhvali-ruhiyyə yaradır, sakinlər göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını bildirirlər.

*Müşfiq MİRZƏ*
*XQ*

***✓ 2026-cı ildə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsi tərəfindən Dadaşzadə Esra Yusif qızının adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

## HAVA

# Paytaxtda yağmursuz, rayonlarda yağış, dolu və qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Şimal-qərb küləyinin güclənəcəyi gözlənilir.**



Havanın temperaturu gecə 9-13, gündüz 13-16 dərəcə isti olacaq. Atmosfer təzyiqi 762 millimetr civə sütunundan 766 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 40-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Ayrı-ayrı yerlərdə arabir duman müşahidə ediləcək. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 8-12, gündüz 15-20, dağlarda gecə 2-7, gündüz 7-12 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli və AMEA Rəyasət Heyətinin üzvləri AMEA-nın müxbir üzvü

**RAFİQ QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəhbərliyi və kollektivi S.Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin direktor müavini Şəlalə Baxşəliyevaya atası

**FƏRRUX BAXŞƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağcabədi rayonundan Rafil Hüseynov

**ELMAN ALLAHVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya İnstitutu PHŞ-nin direktoru, akademik İradə Hüseynova və institutun kollektivi mikrobiologiya laboratoriyasının müdiri, biologiya elmləri doktoru, professor Könül Baxşəliyevaya atası

**FƏRRUX BAXŞƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin kollektivi tikinti istehsalatının texnologiyası, təşkili və idarə olunması kafedrasının əməkdaşı, dosent

**RASİM BAYRAMOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin landşaft memarlığı kafedrasının əməkdaşları kafedranın dosenti Samirə Abdullayevaya qardaşı

**MİRHƏMZƏ ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3129
SİFARİŞ 517
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV
Çapa imzalanmışdır 00:00